**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 43 (6136) 14 noyabr 2025-ci il | Qiyməti 40 qəpik

# Prezidentdən xəbərdarlıq



**”Sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək”.**

**Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edərkən deyib.**

**”Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək”.**

## “Qəzaya uğrayan təyyarənin qara qutusu tapılıb, araşdırma başlayıb



**Azərbaycandan havaya qalxan C130 təyyarəsi qısa müddət sonra Gürcüstan-Azərbaycan sərhədinə yaxın Siqnaxi bölgəsində qəzaya uğrayıb.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.

O, qəza nəticəsində 20 hərbçinin şəhid olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, hadisədən dərhal sonra müdafiə, daxili və xarici işlər nazirləri ilə əlaqə saxlayıb, axtarış xilas-etmə işləri sürətlə başladılıb. Ərdoğan qeyd edib ki, təyyarənin qalıqlarının olduğu ərazi təhlükəsizlik məqsədilə bağlanıb. ”Təyyarənin qara qutusu tapılıb, araşdırma başladılıb, həlak olan hərbçilərdən 19-nun nəşi tapılıb”, - Türkiyə Prezidenti vurğulayıb. O, bu müddətdə Azərbaycan Prezidenti, daha sonra Gürcüstan Baş naziri ilə telefon danışığı apardığını bəyan edib.

## Aqil Abbas Türkiyə səfirinə başsağlığı verdi

**Millət vəkili Aqil Abbas Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgünə başsağlığı verib.**

**Hörmətli cənab səfir!**

**Azərbaycandan Türkiyəyə yola düşən C130 hərbi yük təyyarəsinin Gürcüstan-Azərbaycan sərhədində qəzaya uğraması xəbəri məni dərindən kədərləndirdi. Həlak olan hərbi qulluqçulara Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin”.**

**Başın sağ olsun, Türkiyə.**

**Aqil ABBAS,**
**Milli Məclisin deputatı**

## DİN: “Sosial şəbəkələrdə “mükafat qazandınız” kimi vədlərə inanmayın”




**Son dövrlər sosial şəbəkələrdə, messencerlərdə və SMS vasitəsilə göndərilən saxta mesajlar, ”bonus”, ”lotereya”, ”mükafat qazandınız” kimi vədlərlə vətəndaşların bank kartı məlumatlarını ələ keçirməyə yönəlmiş cəhdlər var.**

Adalet.az xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, heç bir bank, dövlət qurumu və ya rəsmi platforma vətəndaşlardan kartın PIN kodunu, CVV nömrəsini, kart üzərindəki 16 rəqəmi və ya SMS-lə göndərilən birdəfəlik şifrəni tələb etmir:

”Bu cür məlumatların paylaşılması, kart hesabınızda şəxsi vəsaitlərinizin həcmindən asılı olmayaraq oğurlanması ilə nəticələnə bilər.

Şübhəli linklərə daxil olmayın, sayt ünvanının orijinal olduğuna əmin olun, pul köçürülməsi”, ”hesabınız dondurulub” və ya ”kartınız bloklanıb” kimi panika yaradan mesajlara inanmayın. Əgər bu cür hallarla qarşılaşırsınızsa, dərhal 102 Zəng Mərkəzinə və banka məlumat verin”.

## *MN-dən xəbərdarlıq*

**Ağdərə və Pirəkəşküldə istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatları məhv ediləcək.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, 12-14 noyabr tarixlərində istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla Pirəkəşkül qəsəbəsi yaxınlığındakı poliqonda, həmçinin Ağdərə rayonu ərazisindəki təlim mərkəzində məhv edilməsi prosesi həyata keçiriləcək.

”Partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsasın olmadığını diqqətə çatdırırıq”, - məlumatda bildirilib.

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

# NAXÇIVAN CAMAATI RAHAT NƏFƏS ALA BİLƏR



***İl yarım bundan əvvəl xanımımla Naxçıvana getmişdik. Bir həftə qədim və müqəddəs Naxçıvan torpağını qarış-qarış gəzdik. Hüseyn Cavidin məqbərəsini, Heydər Əliyev muzeyini, Məmməd Araz muzeyini, Nuh peyğəmbərin qəbrini, gözəl memarlıq abidəsi olan Heydər Əliyev məscidini, Əshabi-Kəhfi, Mömінə Xatun türbəsini, Qarabağlar kəndindəki qədim məscidi, Keçməbasar kəndində Heydər Əliyev məscidini ziyarət etdik, Əlincə qalasına getdik. Demək olar ki, bir dəqiqə də boş vaxt keçirmədik. Naxçıvanın kəndlərində, xüsusilə də mənə doğma olan Şahbuz və Kolanı kəndlərində olduq. Kolanıda Naxçıvan kətəsi yedik, heç pulunu da almadılar.***

***Məni ailəmlə Naxçıvana dəvət edən dostum Cəbi Quliyev Yeni Azərbaycan Partiyasının Şuşadakı tədbirində iştirak elədiyindən ilk günlər bizimlə bir yerdə olmadı. Amma qardaşı maşını gətirib qoydu otelin önünə ki, sizin ixtiyarınızdadır, istəyərsiz mənlə, istəyərsiz özünüz Naxçıvanı gəzə bilərsiniz.***

**Bax:səh-2**

## *Ukrayna AB-dən 6 milyard avro yardım alıb*

**Ukrayna Avropa Birliyindən (AB) 5,9 milyard avro dəyərində dəstək alıb.**

Bunu Ukraynanın Baş naziri Yuliya Sviridenko deyib.

O qeyd edib ki, bu vəsait iki hissəyə ayrılıb: ”Belə ki, 4.1 milyard avro ERA (Extraordinary Revenue Acceleration) krediti vasitəsilə, yerdə qalan 1.8 milyard avro isə Rusiyanın dondurulmuş aktivlərindən Ukraynaya ödənilib. Bu bizə makromaliyyə stabilliyini təmin etməkdə kömək edəcək. Bu məbləğ xilas edilmiş həyatlar, bərpa edilmiş infrastruktur və gücləndirilmiş iqtisadiyyat deməkdir”.

Xatırladaq ki, avqust ayında Ukrayna AB-dən 4 milyard avrodan çox dəstək vəsaiti alıb.

## *GÜNÜN LƏTİFƏSİ*

Kürəkən qayınanasına sms yazır:

**- Sizin istehsal etdiyiniz məhsul (qızını nəzərdə tutur) zaydır, heç bir işə yaramır. Nə yemək bişirə bilir, nə də paltar ütüləyir.**



Qayınana cavab yazır:

**- Məhsul neçə il bundan əvvəl satıldığına görə istehsalçı məsuliyyət daşımır.**

# Prezident nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə "On İki Həvari Kvorumu"nun üzvü Deyvid Bednar, Yetmişlər Komitəsinin üzvü və Avropa Mərkəzi Ərazi İdarəsinin birinci məsləhətçisi Cek Gerard, Stirlinq Fondunun prezidenti və idarə heyətinin sədri Mayls Hansen və Yetmişlər Komitəsinin Mərkəzi Avropa və Avrasiya üzrə kvorumunun üzvü Pol Pikard daxildir.

Söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətinin əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Qonaqlar ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyərək, onların regionun inkişafı üçün mühüm rol oynadığını vurğuladı. Donald Trampın yenidən Prezident seçilməsindən sonra Azərbaycan-ABŞ əlaqələrinin yeni mərhələyə keçdiyini bildirən Prezident İlham Əliyev bu ilin avqustunda Vaşinqtona səfəri çərçivəsində ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı mühüm sənədlərin imzalandığını xatırladı.

Qonaqlar Azərbaycan hökumətinin Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsini rəsmi qeydiyyata almasına görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirərək, bu kilsənin Bakı ofisinin açılışında iştirak edəcəklərini dedilər və bunu ölkəmizdə bütün dinlərin nümayəndələrinə göstərilən qayğının təcəssümü kimi qiymətləndirdilər.

Görüşdə Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərdən söhbət açıldı, bu istiqamətdə ölkəmizdə bir çox mühüm beynəlxalq tədbirin təşkil edildiyi vurğulandı. Tolerantlığın xalqımızın həyat tərzi olduğu bildirildi, tarixən ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə kimi dinc və sülh şəraitində yaşadığı qeyd edildi.

# "İpoteka haqqında" qanuna dəyişiklik edilib

**Azərbaycanda ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi mexanizmi təkmilləşdirilib.**

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "İpoteka haqqında" qanuna dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi barədə müqavilənin notariat qaydasında təsdiq edilməsi və üstünlük hüququnun dövlət reyestrində qeydiyyata alınması nəzərdə tutulur.

İpotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ ipoteka saxlayanlar arasında dəyişdirildikdə hüquqlar daşınmaz əmlakın dövlət reyestrində və daşınar əmlakın rəsmi reyestrində sənədlərin təqdim edildiyi gündən 3 iş günü müddətində qeydə alınacaq. Həmçinin ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ dəyişdirildikdə dövlət rüsumunu üstünlük hüququnun keçdiyi ipoteka saxlayan ödəyəcək.

İpotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsinin dövlət qeydiyyatı bu mexanizmin daha işlək olmasına və üstünlük hüququ olan ipoteka saxlayanın hüquqlarının daha səmərəli həyata keçirilməsinə xidmət edəcək.

Yeni qanun nəticəsində ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması yolu ilə bu hüquqların dövlət reyestrində tanınması və təsdiq edilməsi təmin ediləcək. İndiyə qədər qüvvədə olan qanunda bu hüququn ipoteka saxlayanlar arasında müqavilə əsasında dəyişdirilə bilməsi nəzərdə tutulub.

# *Nazir:* "Yekun sülh müqaviləsi bu tarixdə imzalana bilər"

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 2026-cı ildə Ermənistanla sülh müqaviləsinin imzalanması ehtimalının böyük olduğunu vurğulayıb.**

Adalet.az xəbər verir ki, nazir bu barədə İTV-yə müsahibəsində deyib.

"Əlbəttə ki, heç kim 100% zəmanət verə bilməz, amma mən bu ehtimala nikbin yanaşıram", - deyə Ceyhun Bayramov bildirib. "Azərbaycanla sülh prosesinin başa çatması Ermənistanın özünün maraqlarına uyğundur, ona görə də inanıram ki, belə bir ehtimal çox yüksəkdir", - nazir əlavə edib. C.Bayramovun sözlərinə görə, bunun asan olacağını düşünmür. Onun fikrincə, əvvəlki kimi, üçüncü ölkələr tərəfindən bu prosesi pozmaq cəhdləri olacaq. Nazir hesab edir ki, iki ölkə arasındakı münasibətlərin tarixi nəzərə alınmaqla, sülh müqaviləsinin imzalanmasının qısa müddət sonra Azərbaycan və Ermənistan arasında sıx dostluq və tamhüquqlu mehriban qonşuluq münasibətlərinə gətirib çıxarması ehtimalı azdır. "Və bu, anlayışla qəbul edilməlidir", - deyə o vurğulayıb.



Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri əlavə edib ki, son iki ildir ki, Bakı ilə İrəvan arasında münasibətlərin normallaşdırılması prosesi davam edir.

"Belə qısa müddət ərzində inanıram ki, qalib ölkə ilə məğlub ölkə arasında normallaşdırma prosesi çox sürətlə gedir", - deyə o qeyd edib.

C.Bayramov həmçinin "Tramp marşrutu" (TRIPP) layihəsinin həyata keçirilməsinin Azərbaycan və Ermənistan arasında ortaq iqtisadi maraqların yaranmasına səbəb olacağı fikrini ifadə edib.

Qeyd edək ki, 8 avqust 2025-ci il tarixində Vaşinqtonda Azərbaycan və Ermənistan arasında normallaşma prosesi ilə əlaqədar bir sıra razılıq əldə olunub, sülh sazişi layihəsi paraflanıb. Bu razılıqlara uyğun olaraq 1 sentyabr 2025-ci il tarixindən etibarən ATƏT-in Minsk qrupunun ləğvinə dair qərar qəbul edilib.

Rəsmi Bakının tələbinə görə, yekun sülh süzişinin imzalanması üçün Ermənistan öz konstitusiyasına dəyişiklik etməli, onun preambula hissəsində Azərbaycana qarşı olan ərazi iddiası çıxarılmalıdır.

# "Son 30 ildə iqtisadiyyatımıza 300 milyard dollardan artıq sərmayə cəlb edilib"



**"Bu gün Azərbaycan Respublikasının Konstitusiyası Günü qeyd olunur. Ölkəmizin əsas sənədi 30 il öncə- 1995-ci il noyabrın 12-də keçirilmiş referendumda qəbul edilib. Müstəqil Azərbaycan Konstitusiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir və dövlətçiliyimizin təşəkkülündə və hüquqi cəmiyyət quruculuğunda xüsusi rola malik olan əsas qanunumuzun qəbulunda Ulu Öndərin müstəsna xidmətləri olmuşdur".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib. Onun sözlərinə görə, Konstitusiyanın qəbulu həmçinin Azərbaycanda iqtisadi islahatların dərinləşməsinə və xüsusən də özəl sektorunun davamlı inkişafına təkan vermişdir: "Konstitusiyamızın qəbulundan keçən 30 ildə Azərbaycanın dövlət büdcəsi 50 dəfə artıb. Eyni zamanda, 1995-ci ildə 300 dollar olan adambaşına ÜDM 2025-ci ildə 7,6 min dollara yüksələrək 25 dəfədən çox artıb. Beynəlxalq Valyuta Fondunun qiymətləndirmələrinə əsasən, post-sosialist dövlətləri arasında adambaşına düşən ÜDM-in həcminə görə son 30 ildə ən güclü sıçrayışı Azərbaycan nümayiş etdirib. Konstitusiyanın qəbulunun həmçinin mülkiyyət hüquqlarının təsnifləşdirilməsi və liberal iqtisadiyyatın dəstəklənməsi baxımından da xüsusi töhvələri oldu. Nəticədə, son 30 ildə Azərbaycan iqtisadiyyatına 300 milyard dollardan artıq sərmayə cəlb edilib. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə artıq vətəndaşlarımızın konstitusional hüquqları bütün suveren ərazilərimizdə qorunur. Bu Azərbaycan tarixində yeni inkişaf mərhələsidir".

**Vasif ƏLİHÜSEYN**

*AQİL ABBAS*

# NAXÇIVAN CAMAATI RAHAT NƏFƏS ALA BİLƏR

***İl yarım bundan əvvəl xanımımla Naxçıvana getmişdik. Bir həftə qədim və müqəddəs Naxçıvan torpağını qarış-qarış gəzdik. Hüseyn Cavidin məqbərəsini, Heydər Əliyev muzeyini, Məmməd Araz muzeyini, Nuh peyğəmbərin qəbrini, gözəl memarlıq abidəsi olan Heydər Əliyev məscidini, Əshabi-Kəhfi, Möminə Xatun türbəsini, Qarabağlar kəndindəki qədim məscidi, Keçməbasar kəndində Heydər Əliyev məscidini ziyarət etdik, Əlincə qalasına getdik. Demək olar ki, bir dəqiqə də boş vaxt keçirmədik. Naxçıvanın kəndlərində, xüsusilə də mənə doğma olan Şahbuz və Kolanı kəndlərində olduq. Kolanıda Naxçıvan kətəsi yedik, heç pulunu da almadılar.***

***Məni ailəmlə Naxçıvana dəvət edən dostum Cəbi Quliyev Yeni Azərbaycan Partiyasının Şuşadakı tədbirində iştirak elədiyindən ilk günlər bizimlə bir yerdə olmadı. Amma qardaşı maşını gətirib qoydu otelin önünə ki, sizin ixtiyarınızdadır, istəyərsiz mənlə, istəyərsiz özünüz Naxçıvanı gəzə bilərsiniz.***



***Naxçıvan şəhərinin abadlığına və gözəlliyinə söz ola bilməz. Bir də o ləzzət edirdi ki, bütün kəndlərə Avropa standartlarına uyğun yol çəkilib. Təbii ki, bütün bunlar Vasif Talıbovun vaxtında edilib.***

***Naxçıvan camaatının qonaqpərvərliyinə söz ola bilməz. Özümü Qarabağda hiss edirdim, mənə və ailəmə o qədər diqqət göstərirdilər ki. Amma bircə fərq vardı - Qarabağda mənə Aqil Abbas kimi hörmət edirlərsə, Naxçıvanda mənə Məmməd Arazın göyü (kürəkəni) kimi hörmət edirlər. Bu da mənə ayrı ləzzət verir. Naxçıvanda ailəmlə dəfələrlə olmuşam, oğlanlarım da olub, onları da belə hörmətlə qarşılayıblar. Bu da Naxçıvan camaatının Məmməd Araza xüsusi bir sevgisindən doğur.***

***Nəhayət, Cəbi müəllim gəlib çıxdı, onunla qoşalaşıb ikilikdə şəhərin çayxanalarında, gur yerlərində adamlarla görüşdük. Hətta şahmat da oynadıq. Bir neçə fəaliyyətdə olan nazirlərlə də görüşüb dərdləşdik. Naxçıvan camaatında ikili xarakter yoxdu, bircə xarakter var - bəyənirlərsə bəyənirlər, bəyənmirlərsə bəyənmirlər, sevirlərsə sevirlər, sevmirlərsə sevmirlər.***

***Sonra Naxçıvan gəncləri mənimlə bir yazıçı kimi görüşmək istədiklərini bildirdilər. Və Gənclər Evində gözəl bir görüş keçirildi. Görüşdən əvvəl və sonra da gənclərlə çay süfrəsi arxasında maraqlı söhbətlər etdik.***



***Təbii ki, futbola olan sevgimdən içində yel vurub yengələr oynayan stadionda da oldum. Gölün kənarında jurnalist həmkarlarım Sara Əzimova və Günay Malikqızıyla da gözəl bir restoranda çay içdik.***

***Sözümün qəmbərqulusu var. Görüşdüyüm nazirlərdən tutmuş sıravi adamlaradək heç kimdən Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli haqqında bircə kəlmə də xoş söz eşitmədim. Belə başa düşdüm ki, Fuad müəllim naxçıvanlıları boğaza yığıb.***

***Belə fikirləşdim ki, qayıdanda bunların hamısını, eşitdiklərimi və gördüklərimi mətbuatda yazacam. Amma Cəbi müəllim az qala yalvardı ki, qardaş, xahiş edirəm burda eşitdiklərini gedib yazma, bunu məndən biləcəklər:***

***- Bir vaxtlar vitse-spiker Adil Əliyev Naxçıvana qonaq gəlmişdi, mənimlə gəzdi Naxçıvanı. Sənin bu eşitdiklərini o da eşitdi. Fuad müəllimlə də görüşmədi, qayıdıb getdi. Sonra mənim başıma oyun açdılar ki, niyə Adil Əliyevi qonaq çağırmısan. Əslində, Adil Əliyev özu gəlmişdi, mən də onun rəhbərlik etdiyi komitənin üzvü kimi ona xüsusi diqqət göstərirdim. Məcbur elədilər vəzifəmdən istefa verdim. İndi də elə məni gözümçıxdıya salıblar. Sən də gedib nəsə bir şey yazsan, gərək başımı götürüb Naxçıvandan çıxam.***

***Mən də Cəbi müəllimdən keçə bilmədim. Amma mən yazmasam da Cəbi müəllim başını və ailəsini götürüb Naxçıvandan çıxdı. Cəbi müəllimin nə itirdiyini deyə bilmərəm, amma Naxçıvan Cəbi Quliyev kimi savadlı, elmli, geniş dünyagörüşünə malik, sözünün sahibi olan bir deputatı itirdi, bir gənci itirdi.***

***Bunu ona görə yazdım ki, deməyəsiniz ki, niyə Fuad müəllim hakimiyyətdə olanda yazmırdın? Cəbi müəllimin xətrinə yazmırdım.***

***İndi Prezidentin sərəncamı ilə 37 yaşlı, gənc və enerjili Ceyhun Cəlilov Naxçıvanın səlahiyyətli nümayəndəsi təyin edilib. Özü də Şahbuz rayonundandır. Cənab Prezident İlham Əliyev yeni təyin olunan icra başçılarını və xüsusi nümayəndəni qəbul edərək onlara öz məsləhətlərini verdi, necə işləməyi, xalqa necə xidmət etməli olduqlarını tapşırdı. Yəni onların önündə bir yol xəritəsi çizdi. Yəqin ki, Ceyhun Cəlilov da elə bir yol tutacaq ki, Naxçıvan camaatının itirilmiş ümidini özünə qaytaracaq və naxçıvanlıların hörmətini qazanacaq.***

# *Nazir müavini:* "Bu, müəyyən müddətdən sonra hiss olunacaq"

**”Büdcə siyasətində sosialyönümlülük prinsipinin qorunmasına, insan resurslarının, o cümlədən gənclərin inkişafı və ictimai təşəbbüslərin dəstəklənməsinə xüsusi diqqət göstərilir”. Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə ”Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli deyib.**



Nazir müavini bildirib ki, məqsəd iqtisadi artımın hər bir vətəndaşın həyatına daha çox müsbət təsir göstərməsi, investisiyaların real sektorda yeni imkanlar yaratması və cəmiyyətin ümumi inkişafına töhfə verməsidir:

”Bu baxımdan büdcə layihəsi önəmli iqtisadi sənəd hesab olunur. Büdcə zərfində iqtisadiyyatın inkişafı, neft gəlirlərindən asılılığın azaldılması, özəl sektorun dəstəklənməsi, vergi yükünün optimallaşdırılması və valyuta ehtiyatlarının qorunması istiqamətləri öz əksini tapıb. 2026-cı il üzrə proqnozlaşdırılan dövlət büdcəsinin gəlirlərinin 57 faizi qeyri-neft-qaz sektorunun payına düşür. Növbəti ildə qeyri neft-qaz ÜDM-in 5 faiz artacağı proqnozaşdırılır. Makroiqtisadi sabitlik Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının əsas göstəricilərindəndir. Bu əlverişli şərait ölkədə maliyyə nizam-intizamının qorunmasına, inflyasiyanın idarə olunmasına, investisiya mühitinin yaxşılaşmasına və qeyri-neft sektorunun genişlənməsinə imkan yaradır.

Eyni zamanda, iqtisadi artımın sosial rifahla uzlaşdırılmasını və uzunmüddətli inkişaf strategiyalarının həyata keçirilməsini stimullaşdırır. Hazırda ölkədə iqtisadiyyatın şaxələnməsinə yönəlmiş fəaliyyət davam edir və bu fəaliyyətin iqtisadi artıma təsiri müəyyən müddətdən sonra hiss olunacaqdır. Ötən 9 ayda əsas kapitala 13 mlrd. manat vəsait yönəldilib”.

**Nicat**

# *Deputat:* "Azərbaycanda dini sahədə ciddi proseslər gedir"

**”Son illərin dini fəaliyyət sahəsində ən mühüm qərarlarından biri də din xadimlərinə dövlətin maddi dəstək göstərməsidir. Hazırda ölkədə təxminən 2250 məscid var. Təxminən 1000 nəfər ətrafında din xadimi dövlətdən maddi dəstək alır. Düzdür, bu məscidlərin hamısı tam fəaliyyət göstərmir. Ancaq fəaliyyətdə olan məscidlərdə bir neçə din xadimi fəaliyyət göstərir. Hesab edirəm az da olsa dövlətdən maddi dəstək alan din xadimlərinin əhatə dairəsinin genişləndirilməsi din sahəsində proseslərə müsbət töhfə verə bilər”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə ”Azərbaycan Respublikasının 2026-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı deputat Ceyhun Məmmədov deyib. O bildirib ki, bir sıra bölgələrdə dini tarixi abidələrin xüsusi diqqətdə saxlanılmasına ciddi ehtiyac var:



”Din tədbirlərə vəsaitin artırılması təqdirəlayiqdir. Düşünürəm eyni zamanda dini maarifləndirmə sahəsinə də vəsaitin artırılmasına ehtiyac var. Azərbaycanda dini sahədə ciddi proseslər gedir.

Qeyri-ənənəvi radikal dini təriqətlərin üzvlərinin sayında artım müşahidə olunur. İnzibati tədbirlərlə yanaşı maarifləndirmə işi də çox önəmlidir”.

**Nicat**

# «Ermənistan Zəngəzur dəhlizini qısa müddətdə bərpa edərsə...»

**”Azərbaycanın Qazaxıstan və Rusiya taxılının Ermənistana tranzitinə icazə verməsi erməni müxalifətini çətin vəziyyətə salıb. Erməni radikallar taxılın tranzitinin əleyhinə açıqlama vermirlər, bu məntiqə zidd olardı, özləri uzun illər bəyan edirdilər ki, guya Azərbaycan Ermənistanı blokadada saxlayır. Halbuki, Ermənistan ona lazım olan taxılı digər marşrutlardan əldə edir, üstəgəl Azərbaycanın işğal altındakı ərazilərindən də İrəvana taxıl daşınırdı”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. Politoloqun sözlərinə görə, indi Rusiya və Qazaxıstan Azərbaycanın nəqliyyat imkanlarından istifadə edərək Ermənistana qısa yolla taxıl nəql etmək imkanı qazanıblar:








”Erməni radikallar Azərbaycan üzərindən taxıl tranzitini şübhə altına alan yeni ”bəhanələr” icad ediblər. Onların sözlərinə görə, guya Azərbaycan üzərindən taxıl tranziti Ermənistana baha başa gələcək. Çünki, Ermənistan tranzitə görə Gürcüstana da pul ödəməli olacaq. Ermənistan Zəngəzur dəhlizini qısa müddətdə bərpa edərsə, Gürcüstan üzərindən nəqlə ehtiyac olmayacaq, taxıl və digər yüklər Azərbaycan üzərindən birbaşa Ermənistana daşınacaq. Radikalların digər ”bəhanəsi” alınan taxılın qida üçün yararsız və həmin taxılın heyvan yemi olmasıdır. Əslində radikallar bu ”arqumentlə” yalnız Paşinyan hökumətini hədəf almırlar, tərəfdaş adlandırdıqları Qazaxıstanı da aşağılamış olurlar. Çünki yüksək keyfiyyətli Qazaxıstan taxılından un məhsulları hazırlanacaq. Təsadüfi deyil ki, Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan rəqiblərinə cavab olaraq Azərbaycandan tranzitlə ölkəyə gətirilən Qazaxıstan buğdasından hazırlanan çörəyi birinci dadmağa hazır olduğunu bildirib”.

**V. ƏLİHÜSEYN**

# "Bu qələbə təkcə torpaqların işğaldan azad edilməsi deyil..."

**”Azərbaycan Qarabağ məsələsinin həlli zəminində bir neçə qələbə qazanıb. Döyüş meydanındakı qələbədən sonra siyasət, diplomatiya meydanında da qələbə qazanıb. Qalib gəlmək asandır, amma qələbəni qorumaq, əldə saxlamaq çətindir. Azərbaycan məhz bunun da öhdəsindən gələrək qələbəni qoruyub saxlayıb”.**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib.

O, bildirib ki, sonuncu ən mükəmməl qələbə isə düşmənin sülhə məcbur edilməsi, bir daha təcavüz niyyətinə düşməsi ehtimalının minimuma endirilməsidir:

”Yəni, bu son 5 ildə sözü gedən qələbələrin əldə edilməsi möhtəşəm nailiyyətdir. Xalqın birliyi, Ali Baş Komandanın ətrafında sıx birləşməsi, ordunun qüdrəti, rəhbərin yüksək liderlik qabiliyyəti və müdrik siyasəti vəhdət təşkil edərək ilahi təqdiri gerçəkləşdirdi! Bu qələbə təkcə torpaqların işğaldan azad edilməsi deyil, həm də dövlətimizin dünyada nüfuzunun, qüdrətinin artmasının təsdiqidir.

Bu müqəddəs yolda xalqımıza yar olan Uca Yaradana şükürlər, bütün şəhidlərin ruhu şad, qalib xalqımızın qələbə bayramı mübarək olsun!”.

**Vasif**

*Səxavət MƏMMƏD*

# Ali Baş Komandan, ordu, xalq birliyi...



***Hər il bu gün gələndə 44 günlük müharibəyə yanaşmam, baxışım dəyişir. Şuşanın işğaldan azad edilməsi elan ediləndə dostlarımızla bir yerdə oturub, izləyirdik. Ad yaddaşım pis olduğu üçün üzürlü saysınlar, dəqiq yadımda qalan Vasif Qurbanzadə və Teymur Zahidoğlu idi. Prezident İlham Əliyev çıxış edir, biraz səbrsiz adam olduğum üçün qəfil dedim ki, saallah bu qədər uzatma, tez de, işimizi bilək. Teymur Zahidoğlu dedi, kiri(!), adam o boyda iş görüb, əlbbətdə dadın çıxaracaq. Şuşanın işğaldan azad olunduğunu nəinki bilirdim, hətta ayın 6-da millət vəkili Aqil Abbası muşutulqulamışdım da. Ancaq yenə baxmağa, sanki rəsmiləşdirməyə ehtiyac vardı...***

***O vaxt sevinməkdən başqa ağıla heç nə gəlmirdi. Yəni, sevinc qiymət verməyə imkan vermirdi. Hər il müharibəyə bir qədər fərqli baxmağa başladım. İstəsək də, istməsək də, soyuq başla qiymət vermək asan deyildi. Düzdür, həmişə soyuqqanlı yanaşmışam, ancaq apardığımız müharibəyə indi daha dəqiq qiymət vermək olar. Buna həm də dünyada baş verən proseslər imkan verir. Gözümüzün qabağında ağır Rusiya Ukrayna müharibəsi gedir, İran İsrail toqquşmasını gördük. Digərlərini kənara qoyuram, sırf bu iki toqquşma həm necə müharibə apardığımızı, həm də əhəmiyyətini anlamış oldum.***

***Azərbaycan ordusunun müasir müharibə apardığını dəfələrlə yazıblar, deyiblər. Bunu yazanlar haqılıdırlar? Əlbbətdə! Ancaq bir ağıllı adam çıxıb yazsa ki, bu müharibədə klassik müharibənin də elementləri çoxdur. Heç kim etiraz edə bilməz. Bu müharibəyə klassik müharibə də demək olmaz. Başqa bir ağıllı adam çıxıb deyə bilər ki, assimetrik müharibənin də çoxlu elementləri var. Haqlı olacaq? Əlbbətdə! Yaxşı biz necə müharibə aparmışıq?***

***Yuvarlaqlaşdıraraq Azərbaycan ordusunun 3 min, Ermənistan ordusunun 5 min itki verdiyini hesab edək. Azərbaycan ordusu hücumdadır. Ermənistan ordsu müdafiədə döyüşür. Relyef çətin, son dərəcə mükəmməl hazırlanmış müdafiə zolağı olan "Ohanyan xətti". Ermənistan ordusu 5 min itki veribsə Azərbaycan ordusu nə qədər itki verməli idi? Dünyada ən çox istinad edilən üç hərbi nəzəriyyə var, NATO, Rusiya, Çin. Çinlilərin yanaşmasına görə, Azərbaycan ordusu minimum 12-13 min itki verməli idi. NATO-nun yanaşmasına görə, bu rəqəm 14-15 mindir. Rusiya standartına görə, bu rəqəm 15, hətta 17 min də ola bilərdi. Niyə? Çünki rusların standartında daha çox itki vermək xüsusi qeyd olunur. Yaxşı, o zaman sual yaranır, necə oldu ki, müdafiə olunan tərəf 5 min itki verdiyi halda, hücum edən tərəf 3 min itki verir? Bunun bir cavabı var. Hər şeyin ən yaxşısını tətbiq etmişik. Lazım olan qədər klassik, lazım olan qədər assimetrik yanaşmışıq, nə lazım olubsa, onu etmişik. İstifadə olunan silahları hansı ölkə istehsalı olmasının da bir önəmi olmayıb. Rusiyalı bir zabit Azərbaycan ordusunun zabitinə video göstərərək, sual verdi ki, topdan bu atışı necə həyata keçirmisən? Sualı verməyinin səbəbini də belə izah etdi ki, bu top bizim istehsaldır, bunun taktiki texniki xüsusiyyəti bu atışı etməyə imkan vermir. Bizim zabit gülərək dedi, barmaq etmişəm. Tərcümə edəndə bilmədi necə izah etsin, barmağın göstərib, fırladaraq izah etməyə çalışdı. Rus zabit özünü də gülmək tutdu. Bayraktar TB2-lərdən mükəmməl şəkildə istifadə etdik. O Bayraktarlardan Ukraynada da vardı. İlk günlər istifadə etdilər, hətta mahnı-zad da yazdılar. Ancaq sonra heç bir effekt vermədiyini gördük. Səbəb nədir, silahlara yanaşma fərqi də fərqlidir.***

***Biz heç vaxt özümüzə dəyər verə bilmirik. Hələ də etiraf edə bilmirik ki, öz generallarımız, zabitlərimiz bu müharibəni ağlı, cəsarəti, hiyləgərliyi ilə qazanıb. Bir çoxlarının dünyasında şəhidlərimiz, Ali Baş Komandan, sonra da xarici mütəxəssislər gəlir. Ali Baş Komandan başqa kateqoriyadır. Bütün müharibələr göstərir ki, Ali Baş Komandan, ordu, xalq birliyi olmasa, qələbə mümkünsüzdür. Sırf sahədə gedən müharibəyə gələndə isə canı çıxır deməyə ki, bizim zabitlərin ağlı, cəsarəti, hiyləgərliyi qarşı tərəfin zabitlərindən az olsaydı, irəliləmək olmazdı. Ermənistan ordusu zəif idi? Qətiyyən! Son dərəcə hazırlıqlı, çoxlu sayda ciddi təhsilli (Frunze adına Hərbi Akademiya) zabitləri vardı. Ancaq bizimkilər daha ağıllı çıxdılar. Bir neçə generalımıza sual vermişəm ki, özünüzü düşmənin yerinə qoyun, uduzardınız? Detal, detal niyə uduzmayacaqlarını izah edirlər. Bəzilərinə hətta "yaxşı ki, düşmən olmamsınız" deyib, gülmüşük.***

***Realist adam olduğum üçün bəsit arzularım olub. Babam adımı Təhmasib qoyub (bu adın lənəti qarabqara izləyir), atam Səxavət (muğam ustası Səxavət Məmmədova görə) yazdırıb. Uşaqlıqdan arzum idi ki, Qarabağı geri alan kimi ilk onun qəbrinin üstünə gedəcəm. Alınmadı, başqa işlər arxasınca qaçdım. Bu il gedə bildim adaşımın qəbri üstünə. O torpaqlara getmək başqa hissdir. Nə yalan deyim, mənə ən çox doğma gələn yerlər, müharibə vaxtı olduğum yerlərdir.***

***Qələbə çox başqa bir şeydir. Biz hələ də dərk edə bilmirik. Empati qursaq anlayarıq ki, bizim yerimizdə olmaq istəyən çoxlu xalqlar var. Gürcüstanın da 20 faizi işğaldadır, Moldovanın da 20 faizi işğaldadır, Ukraynanın da 20 faizi işğaldadır. Bu sadaladıqlarım təkcə Rusiyanın 20 faizlik bəlasıdır. ABŞ-nin, Qərbin bu tip bəlaları ilə üzləşən çoxlu sayda xalqlar var. Bu 20 faizlik bəladan demək olar qurtulan yeganə ölkəyik.***

***Pəncəli Teymurova Milli Qəhrəman adının verilməsinə çox sevindim. Raquf Orucova da o adın veriləcəyi günü görərik. Döyüş generallarımızdan Kənan Seyidova General-leytenant rütbəsi verilməsinə də şad oldum.***

***Qarabağ uğrunda şəhid olanlara Allahdan rəhmət, qazilərə can sağlığı diləyirəm. Əməyi keçən hər kəsə sonsuz təşəkkürlər! Bayramınız Mübarək olsun!***



*Rüstəm Hacıyev*

# "Tarixin qatarı gecikənləri gözləmir"...

**Donald Trampın aylardı Rusiya-Ukrayna müharibəsini danışıqlar çərçivəsinə yönləndirmək cəhdləri, Rusiya prezidenti Vladimir Putinin imperiya hikkələri ucbatından hələ ki, nəticəsiz qalmaqdadır. Ümidləri üzülməkdə olan ABŞ prezidenti Donald Tramp isə, artıq yavaş-yavaş vasitəçilik təşəbbüslərindən geri çəkilməkdədir.**

**Bu işğalçı müharibə Rusiya üçün ağır sanksiyalarla, iqdisadi böhranla üzləşmək təhlükəsi qarşısında qoyur. Bir tərəfdən ABŞ prezidentinin "heç bir şərt irəli sürmədən atəşi dayandırmaq və münaqişəni danışıqlar yolu ilə həllinə başlamaq" təklifi faktiki olaraq Rusiya prezidenti tərəfindən rədd edilir, digər tərəfdən isə... Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bəyan edir ki, Rusiya ümid edir ki, ABŞ prezidenti Donald Tramp Ukrayna münaqişəsinin diplomatik yolla həllində iştirak etmək niyyətindən geri çəkilməyib.**

**"Biz səmimi olaraq inanırıq ki, prezident Tramp hələ də, Ukrayna münaqişəsinin diplomatik yolla həllinə kömək etməyə hazırdır"- deyə Peskov bəyan edir.**

**Bu arada, Rusiyanın xarici işlər naziri Sergey Lavrovda bəyan edir ki, "bəli danışıqlara hazırıq, lakin bizim şərtlərimiz Ukrayna tərəfindən qəbul edilməlidir". Putinin şərtləri məlumdur, "işğal edilmiş ərazilər Ukrayna tərəfindən Rusiyanın əraziləri kimi tanınmalı, Ukrayna NATO-ya qəbul olunmaqdan imtina etməli, ən əsası isə Ukrayna prezidentliyinə namizədlər Moskva ilə razılaşdırılmalıdır. (Yəni tam kapitulyasiya ilə razılaşmalıdır??? R.H.)**

**Bir anlıq belə təsəvvür yaranır ki, Rusiya diplomatiyasını aparanların bir-birilərindən xəbərləri yoxdur ki, belə ziddiyətli bəyanatlarla çıxış edirlər. Lakin, bu göründüyü kimi deyil. Kremldə oturanlar öz aləmlərində guya, dünya ictimayyətini "ikibaşlı oyunları ilə çaş-bas salırlar"...**

**Təbii ki, Ukraynanın Putinin bu şərtləriylə razılaşması mümkün deyil. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevdə bu yaxınlarda bununla bağlı Ukraynalı jurnalistə verdiyi cavabda bəyan etmişdir ki, "Ukrayna heç vaxt ərazilərinin işğalı ilə barışmayacaq, əgər barışarsa onda mənim dünya siyasətindən xəbərim yoxdur"...**

**Əslində Azərbaycan prezidenti cənab İlham Əliyev, bu bəyanatı ilə, münaqişə tərəflərinin hər ikisinə və dünya ictimayyətinə diplomatik yolla xəbərdarlıq etmişdir ki, əks halda bu müharibə sonsuzluğa qədər uzanacaq. Bu bəyanatı ilə onlara, "müharibənin tezliklə, diplomatik yolla ədalətli həlli tapmalıdır" mesajını vermişdi. Yəni, demək istəmişdi ki, "TƏLƏSİN ", Tarixin qatarı gecikənləri gözləmir...**

**Müharibənin uzanması nə Rusiyaya, nə Avropaya sərf etmir. Rusiyanın iqtisadiyatı çökür, Avropanın isə gücü tükənir. Əsasən də, şəhərləri, kəndləri, sənayesi, infrastrukturu tamamilə dağılmaqda olan Ukraynaya heç sərf etmir. Lakin, hücuma məruz qalan, əraziləri işğal edilən Ukraynadır, ağ bayraq qaldırıb biabırcılıqla təslim olmalıdırmı?..**

**Mümkün deyil... Heç vaxt...**

**Tarixin qatarı isə gözləmir...**

# "Dövlət büdcəsindən kino sahəsinə vəsaitin ayrılmaması narahatlıq doğurur"

**Son zamanlar ölkə parlamentində müzakirə olunan gələn ilin büdcə məsələsi müəyyən narahatlığa səbəb olub. Bu müzakirələrdə diqqəti çəkən məqam isə ölkəmizin mədəniyyət sahələrinə göstərilən diqqət, xüsusilə bu sahəyə ayrılan büdcə vəsatinin məbləği ilə bağlıdır. Mövzu ilə bağlı millət vəkili Günay Əfəndiyeva ilə həmsöhbət olduq.**

Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva suallarımızı cavablandırarkən bunları dedi:

Bir neçə gün öncə biz özü-özlüyündə bir filmə bənzər 44 günlük şanlı salnamənin nəticəsində qazanılan - Müqəddəs Zəfərin 5-ci ildönümünü böyük qürur və coşqu ilə qeyd etdik. Düşünürəm ki, Vətənimizə aid tarixi faktları, həqiqətləri kino sənəti vasitəsilə dünyaya göstərmək, Azərbaycanın haqlı mübarizəsinin səsini ekran dili ilə bütün qitələrə yaymaq vacib əhəmiyyət daşımaqdadır. Bu reallıqdan çıxış edərək mən diqqəti mədəniyyətimizin çox mühüm bir sahəsinə - milli kinematoqrafiyamıza yönəltmək istəyirəm.

Məlumdur ki, Mədəniyyətimizin və incəsənətimizin böyük hamisi Ulu Öndər Heydər Əliyevin vaxtilə həyata keçirdiyi kino siyasəti Azərbaycan mədəniyyətinin əsas sütunlarından birinə çevrilmişdir. Xatırlayırsınız, Ulu Öndərin dönəmində "Dədə Qorqud", "Nəsimi", "Babək", "Nizami" və görün daha nə qədər dəyərli ekran əsərləri çəkilib. Bu filmlər vasitəsilə tarixi, mədəni, ədəbi irsimiz, milli kimlik, milli təfəkkür məsələləri ortaya çıxarılıb, yaşadılırdı.

Bu gün də cənab Prezidentin siyasəti nəticəsində kinematoqrafiya sahəsində ardıcıl islahatlar aparılır, müasir tendensiyalar nəzərə alınmaqla yeni yanaşmalar formalaşdırılır. Heydər Əliyev Fondu, Bakı Media Mərkəzi tərəfindən, eləcə də Mədəniyyət Nazirliyinin dəstəyi ilə dəyərli filmlər çəkilir və bildiyim qədəri ilə yeni filmlərin çəkilməsi nəzərdə tutulub.



Amma bu il dövlət büdcəsindən kino sahəsinə vəsaitin ayrılmaması müəyyən narahatlıq doğurur. Düşünürəm ki, kino sahəsi mədəniyyətimizin tərkib hissəsi kimi yaradıcılıq yönü ilə yanaşı, həm də ideoloji, mənəvi və informasiya gücü ilə ön plandadır. Kino həm gənclərimizin dünyagörüşünə, həm milli kimliyimizin təbliğinə, həm də Azərbaycanın beynəlxalq imicinə birbaşa təsir göstərən vasitədir. Digər tərəfdən, kino yalnız ekran qarşısında gördüyümüz aktyor və rejissorlarla məhdudlaşmır. Bu sahənin görünməyən qəhrəmanları - səs rejissorları, montajçılar, işıq mütəxəssisləri, rəqəmsal texniki heyət - bu industriyanın dayanıqlı inkişafında önəmli rol oynayır. Kino mütəxəssislərin hazırlanması və sahənin institusional şəkildə dəstəklənməsi vacibdir.

Eyni zamanda digər bir məsələyə toxunmaq istəyirəm. Bu, tender mexanizmləri çərçivəsində nəşrlərin sifarişi və keyfiyyət məsələsidir. Son illərdə bir sıra müəlliflərin bir neçə cilddən ibarət seçilmiş əsərləri dövlət sifarişi əsasında müxtəlif nəşriyyatlar tərəfindən çap olunub. Yəni,bu işi tenderi qazanmış nəşriyyat həyata keçirir. Belə çıxır ki, hər il eyni müəllifin çoxcildlik əsərləri ayrı-ayrı nəşriyyatlara həvalə olunur və bir çox hallarda həmin nəşriyyat bu işi yüksək keyfiyyətlə deyil, sadəcə "udduğu tenderin öhdəliyi" kimi yerinə yetirir.

Nəticədə, bəzən kitablar keyfiyyətsiz kağızda, zəif çapla oxucuya təqdim olunur, kitabın cildi açılan kimi qopur. Bu, ciddi məsələdir - bu, dövlət vəsaiti ilə maliyyələşən layihələrin etibarlılığı və ictimai inamla bağlı məsələdir.

Tender udmaq - məsuliyyət daşımaq deməkdir, dövlətin mədəni sifarişini layiqincə yerinə yetirmək deməkdir.

Bu baxımdan, hesab edirəm ki, gələcəkdə bu sahədə tender mexanizmlərinə daha ciddi nəzarət tətbiq edilməlidir.

Xüsusilə mədəniyyət sahəsində qiymət ilə yanaşı, keyfiyyət meyarları, mütəxəssis heyətinin təcrübəsi, nəşriyyatın reputasiyası kimi kriteriyalar da əsas götürülməlidir.

**Əbülfət MƏDƏTOĞLU**

# "Müharibə olmadan Ermənistanın heç bir rəhbəri Qarabağı..."

**"Baş nazir Nikol Paşinyanın noyabrın 10-da Müdafiə Nazirliyində Silahlı Qüvvələr rəhbərliyilə əməliyyat müşavirəsi keçirməsinin əsas iki səbəbi var. Birinci səbəb Paşinyan bu tədbirlə Azərbaycanla müharibənin Ermənistan üçün ağır məğlubiyyətlə bitiminin 5 illiyini cəmiyyətinə mümkün qədər unutdurmağa çalışıb. Azərbaycanda bugünlərdə Zəfəri bayramı böyük təntənə ilə keçirilərkən, Bakıdakı hərbi paradın əks-sədası davam edərkən, Nikol Paşinyan İrəvandakı iclasda ordunun davamlı modernləşdirilməsinin və bu istiqamətdə ardıcıl addımların atılmasının vacibliyini vurğulayıb. Paşinyanın bu tədbiri 10 noyabrda keçirməsinin ikinci səbəbi bugünlərdə ona qarşı çıxışlarını sərtləşdirən və məğlubiyyətdə onu günahlandıran keçmiş prezidentlər Serj Sərkisyanı və Robert Köçəryanı susdurmaqdır".**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, Sarkisyan və Köçəryan müharibə öncəsi Paşinyanın ordunu bilərəkdən başsız qoyduğunu bildirərkən, baş nazir Müdafiə Nazirliyində silahlı qüvvələrin inkişafı üçün strateji baxış, yeni təhlükəsizlik mühitinin qiymətləndirilməsi, effektiv idarəetmə, insan resurslarının inkişafı və digər məsələlər müzakirə edib:

"Yəni Paşinyan bununla rəqiblərinə və cəmiyyətinə demək istəyib ki, müharibədə məğlub olmasına baxmayaraq, ordunun inkişafına diqqəti azaltmayıb. Halbuki, gələn il üçün Ermənistan büdcəsində hərbi xərclər azaldılacaq. Robert Köçəryanın son müsahibəsindən çıxan qənaət budur ki, Paşinyan Rusiya Prezidenti Vladimir Putinin təklifi ilə müharibəni başlanğıcda dayandırmağa razılaşsaydı, Ermənistanın itkiləri daha az olardı və Ermənistan Qarabağın işğal altındakı ərazilərinin tamamını itirməzdi. Halbuki, Azərbaycan artıq qərarını vermişdi, istənilən atəşkəs müvəqqəti xarakter daşıyacaqdı".

Politoloq bildirib ki, Paşinyan Putinin 2020-ci ilin oktyabrın əvvəlində atəşkəs təklifinə razılaşsaydı belə, bu uzun çəkməyəcəkdi:

"Çünki Azərbaycan düyməyə basmışdı, ərazilərin tamamının işğaldan azad edilməsi əməliyyatı daha sonra davam edəcəkdi. Paşinyan bir neçə gün öncə etiraf edib ki, elə gərək əvvəldən Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan edərdi. Paşinyan səmimi deyil. Ermənistan Azərbaycan Ordusunun gücünü görməliydi ki, müharibədən əvvəl "Qarabağ Ermənistandır" deyən baş nazir 5 il sonra "Qarabağ Azərbaycan ərazisi kimi daha əvvəl tanımalıydım" yanaşmasını ortaya qoysun. Müharibə olmadan Ermənistanın heç bir rəhbəri Qarabağı Azərbaycan ərazisi kimi tanımazdı".

**Vasif ƏLİHÜSEYN**

## *Komitə sədri: "Partiyalara ayrılan vəsaitin bölgüsündə dəyişikliyə ehtiyac var"*



**"Həm parlamentdə təmsil olunan, həm də seçkilərdə etibarlı səslər qazanaraq Milli Məclisdə təmsil olunmayan siyasi partiyalara bu il 6 milyon manat vəsait ayrılıb. Bu, dövlətin indiki imkanları ilə uyğun gələn vəsaitdir. Bunun bölgüsü məsələsində müəyyən dəyişikliyə ehtiyac var".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə "Azərbaycan Respublikasının 2026-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa deyib.

"Çünki bir partiyanın çoxluğu təşkil etməsi təbiidir və buna görə də partiyanın daha çox vəsait ayrılması nəzərdə tutulur. Amma digər partiyaların inkişafı üçün verilən vəsait məqsədəuyğun şəkildə istifadə olunursa, onların da inkişafına öz köməyini göstərəcək", - deyə komitə sədri bildirib.

**Nicat**

# Lukoylun aktivləri uğrunda mübarizə başlayır

**Blombergin məlumatlarına görə, ABŞ prezidenti Donald Trampın Rusiyanın iki iri şirkətinə qarşı tədbiq etdiyi sanksiyslardan sonra, Lukoyl şirkətinin Avropadakı aktivlərini əldə etmək üçün Avropa və Yacın Şərq ölkələri mübarizəyə başlayırlar.**

Bildirilir ki, Bolqariya artıq Ştatların maliyə nazirliyi ilə, Burqasda yerləşən neftayırma zavoduna tam nəzarəti öz üzərinə götürülməsinə razılıq verilməsiylə bağlı danışıqlar aparır. "Lukoylun" aktivlərinin ələ keçirilməsi üçün əsl dava başlayıb"- deyə agentliyin yaydığı materialda bildirilir.




Bundan başqa, Moldova "Lukoylla" , hava limanını yanacaqla təmin edən anbardakı yanacağın alınması məsələsini müzakirə edir. Rumıniya isə, ümumiyyətlə "Lukoylun" bu ölkənin Ploeştidə yerləşən neftayırma zavodunun aktuvlərinin alınmasına çalışır.

Beləliklə, görünən odur ki, Tramp hissə-hissə dünya bazarının qapılarını Putinin üzünə bağlamağı qarşısına məqsəd qoyur...

**Rüstəm Hacıyev**

# İlahiyyatçı: "Dində qonşulara münasibət həmişə ön planda olub..."

**”Qonşu hətta qohum qədər əhəmiyyətli sayılıb. Xalqımızın ənənələrində də qonşuya böyük dəyər verilib; ”Uzaq qohumdan yaxın qonşu yaxşıdır” deyilib”.**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

O, bildirib ki, müqəddəs kitablar olan Tövrat, Zəbur, İncil və Quranda da qonşunun dəyərindən geniş bəhs olunub: ”Qonşunu özün kimi sev.” (Tövrat, Levililər 19: 18);

”Qonşunu özün kimi sev.” (İncil, Matta 22:39);

”Yaxın qohuma, yetimə, kasıba, qohuma, qonşuya yaxşılıq edin.” (Quran, Nisa, 4:36)



Bu onu göstərir ki, Uca Allah qonşuya böyük önəm verir. Hətta Həzrət Muhəmməd Peyğəmbər əleyhissəlamın hədislərində buyurulur ki, Cəbrayıl mənə qonşu haqları barədə o qədər tövsiyələr verdi ki, Allahın qonşunu qonşuya mirasçı qılacağını zənn etdim.

”Qonşusu ac ikən tox yatan məndən deyil” deyə tövsiyədə bulunurdu Həzrət Muhəmməd salavatullah. Odur ki, qonşuya hər zaman diqqət göstərmək dinin ən ümdə göstərişi kimi nəzərdə saxlanılmalıdır”.

**Vasif**

# "5 ildir böyük coşğu və təntənəylə qeyd etdiyimiz misilsiz Qarabağ zəfərimizin kökündə..."

**”Bizi 2 əsrlik bir problemdən qurtuluşa götürən, haqqını və azadlığını savaşla qorumağı bacaran qürurlu və cəsur xalqlar sırasına qoşan Zəfər yolumuz 5 il əvvəlin 8 noyabrında - Şuşanı düşməndən azad etməyimizlə açılmışdı! Məhz Şuşanı aldıqdan sonra düşmən önümüzdə diz çökmüş, üzərinə təslimçi öhdəliklər götürməklə, atəşkəs razılaşmasını imzalmağa məcbur qalmışdı! İndi isə sülhün bir addımlığındayıq!”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şükürlü deyib.

O, bildirib ki, Şuşanın işğaldan azad edilməsi və ondan sonra yaşananlar bizə İslam tarixindəki məşhur ”Xeybər qalaları”nın fəthi hadisəsini xatırladır:

”Mədinənin, təxminən, 150 kilometrliyində və Şama gedən əsas ticarət yolunun üzərində yerləşmiş ”Xeybər qalaları”nda məskunlaşan yəhudilər o vaxt yenicə təşəkkül tapan İslamın yayılmasında əsas maneələrdən və fitnə-fəsad yuvlarından birinə çevrilmişdi. 628-ci ildə Peyğəmbərimizin (s.) başçılığıyla ”Xeybər qalaları” uğrunda döyüş başladı və bu qalaların fəthiylə də, yəhudi-



lərin canlarına qorxu düşdü, onlar üzərlərinə təslimçi öhdəliklər götürməklə, Peyğəmbərimizlə (s.) sülh sazişi imzalamağa, müsəlmanların Şama gedən yolunu açmağa məcbur qaldılar. Bu böyük fəthin müjdəsini isə əziz Peyğəmbərimiz (s.) öncədən - hələ Hüdeybiyyədə müşriklərlə müqavilə imzaladıqdan sonra almışdı... Həmin vaxt nazil olan ”Fəth” surəsinin ilk ayələrində Ümmət Başçısına (s.) xitabla bu möhtəşəm çağırış vardı:

”Həqiqətən, Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik! Allah bununla sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam-kamal edəcək və səni düz yola müvəffəq edəcək. Allah sənə yenilməz qələbə verəcək”!”.

O, bildirib ki, inanın, bizim 5 ildir böyük coşğu və təntənəylə qeyd etdiyimiz misilsiz Qarabağ zəfərimizin kökündə də, bir tərəfdən, şəhidlik yoluna çıxmış əsgər və zabitlərimizin heyrətamiz şücaəti, xalqımızın mütəşəkkil, ləyaqətli davranışı və Prezident İlham Əliyevin Ali Baş Komandan kimi əzmkarlığı, qətiyyəti və doğru qərarları durursa, o biri tərəfdən də, bütün bunların təməlində, ilk növbədə, analarımızın dualarını eşidən qüdrətli Allahın iradəsi yatır!:

”O Allahın ki, bu zəfərlə ölkənin rəhbərindən tutmuş sıravi vətəndaşınadək, bizim keçmiş günahlarımızı bağışlamaq, bizi bir xalq olaraq doğru yola yönəltmək və o yolda da sabitqədəm etmək istəyir! Yetər ki, hamılıqla bunu anlayaq, ayılaq, geriyə baxaq, keçmiş səhvlərimizdən nəticə çıxaraq, hamılıqla əl-ələ verməklə övladlarımızın, gələcək nəsillərimizin dinc və xoşbəxt yaşadığı, müharibələrin olmadığı, anaların və körpələrin gözüyaşlı qalmadığı gözəl, yalnız ədalətin hakim olduğu firavan bir ölkə, cəmiyyət quraq! Yox, əgər bunu anlamayacaq, qələbədən başımız gicəllənəcək, eyforiyaya qapılacaq və təkəbbürə yol verərək yenə də müharibədən əvvəlki halımıza dönəcəyiksə, inanın, bu dəfə Allah bizi bağışlamayacaq və qəzəbindən də qurtuluş olmayacaq! Bizi yenidən yaradan, gözlərimizi və könlümüzü açan, şükrümüzü artıran möhtəşəm Zəfər Günümüz mübarək! Allah millətimizin və ümmətimizin qələbələrini daimi, bizi isə bağışladığı və qəzəbinin tutmadığı kəslərdən etsin!”.

**Eldar**

# "Televiziyalarımızın ekranlarından geylər bizə "əxlaq" dərsi keçir..."

**”Yazır ki, Yasin adlı oğlan Ruzgar adlnda qıza çevrilib və bunu bilən əmisi onu qətlə yetirib. Sonra gəncə qarşı kəndçifason qınaq seli başlayır ki, a bala, gördün, bura (vətənin Azərbaycan) sənin cinsi dəyərlərinə uyğun deyil, çıx get xaricdə yaşa, geyliyini orada, özünəoxşarların arasında elə və belə şəraiti yaratma ki, əmin nəslin namus-qeyrətini qorumaq üçün səni qətlə yetirsin. Guya çıxıb xaricə getmək belə asandır: bilet aldın, oturdun təyyarəyə, çıxdın getdin və orada Niderland hökuməti böyük təntənə ilə sənin pişvazına çıxdı, dərhal ərlə, evlə, yaşayış şəraiti ilə təmin elədi və üstəlik də Azərbaycana bir təşəkkür məktubu yolladı ki, malades, yaxşı yetişdirirsiniz. Bax, vəziyyət belədir. Uşağı ittiham etmək ən asan yoldur”.**

Adalet.az xəbər verir ki, bunu yazıçı Səfər Alışarlı deyib.

Onun sözlərinə görə, halbuki, ölkəmizdə bu cinsi azlıqların artım məsələsi çox böyük ictimai bəladır:

”Şərqdə geylər lap qədim zamanlardan olub. Ancaq bu heç vaxt reklam edilməyib, bir növ, gizlədilib, xüsusi şəkildə qınanmayıb da. Toplum həmin fərdə tolerant yanaşmağı özünə borc bilib. Hesab edib ki, onu Allah cəzalandırıb və bu yetər. Bu gün biz LGBT bayrağı altında müxtəlif cinsi eybəcərliklərin təzahürlərini cəmiyyətdə görür, hətta onların himayə edən dövlətlərin beynəlxalq təşkilatlar vasitəsilə ənənəvi qurulușlu ölkələrə göstərdiyi təzyiqi də hiss edirik. Televiziyalarımızın ekranlarından



geylər kütləvi şəkildə bizə ”əxlaq” dərsi keçir. Bunu da xaric içərimizdə yüksək vəzifə tutan antimilli ünsürlərin vasitəsilə edir. O günü Xoşqədəm Hidayətqızının verilişində vəkillər dedi ki, Almaniyada, əgər uşaq axşam bağçadan götürülərkən qaçıb səni (valideynini) qucaqlamadısa, alman hökuməti aşağı-yuxarı bəzi incəliklərlə o uşağı valideyndən alıb ya öz himayəsinə götürə, ya da formal gizlinlərlə başqa valideynə sata bilər. Bax, xaricdə belə məsələlərlə üzləşmək adi haldır. Millət və xalq olaraq, bizim xilasımız xaricdə deyil. Vətənimiz Azərbaycandan başqa bizə heç yerdə nicat yoxdur”.

Yazıçı bildirib ki, uzaqlarda mühacirlərə verilən tulapayı beş-on manata aludə olub özünüzü aldatmayın, uşaqlarınıza yazığınız gəlsin”.

”İndi baxaq görək cinsi anomaliyaların yaradılması və yayılması üçün həmin XARİC bizə nə edir. Özü də heç nədən çəkinmədən, gündən-günə daha böyük hızla edir. Bəzi mütəxəssislərin fikrincə, bizə göndərilən və ya onların texnologiyası ilə ölkəmizdə hazırlanan qida məhsullarının tərkibinə cinsi azğınlıq yaradan fermentlər vurulur”.

**Vasif ƏLİHÜSEYN**

Murad Köhnəqala

# Ax Tamara! Sum qayıt!



*Xeyli vaxtdı marketlərimizin xəmir yeməklər bölmələrində Türkiyədən gəlmə bir fastfut növü peyda olub, adına da "böyrək" deyirlər. Əvvəllər mən elə bilirdim bu yemək mal böyrəyindən hazırlanır. Sən demə, elə deyilmiş. Bizi çaşdıran yeməyin səhv ifadə olunan adı imiş. "Qozlu börək", "pendirli börək", nə bilim, "kartoflu börək". Sən demə, söhbət böyrəkdən yox, bürüməkdən gedirmiş! Ona görə də yeməyin adı "börək" yox, "bürük" imiş. Məsələn, pendiri xəmirə büküb kürədə bişirəndə adı olurmuş "pendirli bürük". Eləcə də qozlu bürük, köbələkli bürük!*

*Beləcə, öz yeməklərimizin adını yolda itirdiyimizə görə erməni kimisinin biri götürüb deyir bu, bizim milli yeməyimizdi. Bizdə də bu cür yeməyə dürmək deyirlər. Məsələn, yuxanın arasına göyərti, pendir qoyub yeyirik, adı da olur "dürmək".*

*Hələ ətli xəngəlimizə baxın! Bu yeməyə buryatlar buuz, özbəklər, uyğurlar mantı, biz xəngəl deyirik. Azərbaycanın qərb zonasında əsasən yayma xəngələ üstünlük verildiyinə görə bu yeməyin döymə ət bükülmüş növünə ən çox Borçalıda rast gəlinir. Ona görə bugün "gürcü xəngəli" dediyimiz həmin xəngəlin adı Borçalı xəngəlidi. Kimə deyirsən? Bütün millət bu yeməyin adına "gürcü xinkalı" deyib durur. Halbuki, gürcü mətbəxi üçün xəmir yeməklər heç də xarakterik deyil. Məsələn, bir gürcüdən soruşsan ki, bico, "xinkal" nə deməkdi, gözünü döyəcək. Dağıstan türklərində və şimal bölgələrimizdə bunun "gürzə" adlı forması da var. "Xəngəl" xəncər sözündəndi, onun xəmiri iti ağızlı bıçaqla doğrandığına görə "xəncəl-xəngəl" adlanıb. Gürzə də başqa bir xəncər növünün adıdı. Yatağan adlı xəncər də var. Bunların hamısı türk yaraqlarının adıdı. Ay bədbəxt azərbaycanlı, öz mədəniyətini niyə tupoy kafeçilərin ağlı ilə zorla gürcüyə verirsən? "Gürcü xinkalı" nədi, hələ kafelərdə menyuya da belə yazırsan.*

*Borçalı demiş, Qazaxda, Gürcüstanla aramızdakı sərhəddə bir qədim körpü var, adına "Sınıq körpü" deyirlər. Baxırsan, körpünün heç bir sınıq, çat yeri yoxdu. Dayaqları arka formasında hörülüb, körpü qabarıq hörgü qanunlarına görə hər cür ağırlığa davam gətirir. Əslində isə körpünün adı sınıq yox, "Sınaq körpü"dü! Qədimdə belə körpüləri inşa edən baş memarın boynuna qoyurdular ki, ağırlığa tab gətirən inşa etməsən kərpicləri sənin belinə töküləcək. Yəni, körpü tikilib hazır olandan sonra ağırlığa dözümünü yoxlamaq üçün üstündən ağır arabalar yeridirdilər və sınaq vaxtı memar körpünün altında dayanırdı. Ki, körpü mükəmməl deyilsə qoy, memarın belinə uçsun.*

*Aramızdakı bu "Sınaq körpü" haqda əfsanə də var. Əfsanədə deyilir ki, sınaq vaxtı təkcə memarın özü yox, onun ailə üzvləri də körpünün altında dayanıb.*

*Hələ "Qarabağ" sözünün etimologiyasını demirəm! Demək, təbliğat o qədər səhv gedib ki, çox adam elə bilir Qarabağ böyük bağ deməkdi. Çox gülməlidi! A kişilər, Qarabağ Qarapapaq sözündəndi! Borçalıdan üzü bəri bütün Kür çayı hövzəsi boyu Qarapapaqlar səpələnib. Borçalıda bu gün də köhnə kişilər özlərinə "Qarapapax" deyirlər. Qarapapax-Qarapbax-Qarabağ!*

*Sonra. Uca bir Ağrı dağı var, haçan baxsan zirvəsində qar görünür. Bu dağ həmişə uzaqdan qar dağı kimi görünür- dümağ. Dağın adı "Ağrı" yox, "Ağarıdı"! Ağarı dağı! Yəni, həmişə ağaran dağ! Ermənilər bu dağa Ararat deyir. Çünki, bu dağa "Ağaran dağ" da demişik.*

*Birini də deyim, üç olsun, düşmən puç olsun!*

*Deməli, Göyçə gölünə axan çaylardan birinin də adı Axtamardı. Bizim dildə "ağ su" və "qara su" mövhumları var. Tərkibində duz olan, içməyə yaramayan, cod suya "qara su", tərkibi təmiz olan içməli suya isə, "şirin su", yaxud "ağ su" deyirik. "Axtamar" isə axtamar yox, Osmanlı qardaşlarımızın dediyi kimi "Ak-tamar"dı. Ağ damardı, yəni. Suyu içməli olan, suyu ağ olan çaydı - Ağ damardı, ağ damar!*

*Kimə deyirsən? Bir vaxtlar erməni belə bir əfsanə uydurub bizim millətin ağlına yerləşdirmişdi. Guya, bir azərbaycanlı oğlan Tamara adlı bir erməni qızına aşiq olur. Erməni qızı oğlanın qarşısına şərt qoyur. Ona deyir, əgər sən Göyçə gölünü bu üzdən o üzə üzüb geri qayıda bilsən səninlə evlənməyə razılıq verərəm. Oğlan qızın şərtinə görə gölün bu üzündən o biri tərəfinə üzməyə başlayır və Aktamar çayının hövzəsinə çatanda artıq üzməyə nəfəsi çatmır. Son nəfəsində sahildə onu gözləyən qıza tərəf "Ax Tamara!" deyə bağırır. Bu əhvalatdan sonra həmin çayın adı Axtamar olur.*

*Gözünüz aydın, ermənilər lap çoxdan "Axtamar" konyakı buraxır.*

*Yadıma gəlir, Sumqayıt adı haqda da belənçik bir əfsanə uydurub orta məktəb kitablarına salmışdılar. Burdakı əhvalat biraz fərqli olmuşdu. Burda qız Sum adlı oğlana səslənmişi: "Sum, qayıt, Sum qayıt!" Sum hara qayıdır?*

*Deyirəm axı, 20 Yanvardakı taksi şoferləri də hərdən o naməlum Sumu səsləyirlər: "Sum, qayıt, Sum, qayıt!" Sum hara qayıdır?! Bilir ki, qayıdan kimi onu zorla maşına basıb Sumqayıta aparacaqlar.*



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Bu millətə nə gəldi yedizdirirlər...

**Başqa millətlərdən fərqli olaraq biz hər işin dərinliyinə bir o qədər də getmirik. Deyirik ki, əşi, özgə xalqlar nə edir-etsin, əsas məsələ odur ki, biz öz "işimiz"lə məşğul olaq! Yəni günü-günə sataq və vaxtımızı yelə verək! İndi qayıdaq əsas məsələ üzərinə! Yəni başqa millətlərdən geri qalmağımıza.**

**Başqa millətlərə at, eşşək və ölü heyvan əti yedizdirmək olmaz! Amma bizə olar! Dəfələrlə at, eşşək əti Bakıya gətirilərkən və bazarlarda satılarkən hüquq-mühafizə orqanlarının əməkdaşları onları aşkarlayaraq saxlayıb. Sonradan həmin adamlar məhkəmə hökmü ilə məhkum edilib. Ancaq bir müddət keçməmiş onlar azadlığa çıxıblar, yenidən köhnə əməlləri ilə məşğul olublar. İndi də rayonlarda ölmüş heyvan leşləri yığanlar var. Onlar bu leşləri yeməkxanalara, ya da kolbasa sexlərinə verirlər.**

**Ona görə də, əhalinin böyük əksəriyyəti, hətta məşhur kolbasa firmaları istehsalı etdiyi məhsulu almaqdan ehtiyat edir! Düz də yol tuturlar. Çünki aidiyyəti qurumlar saxta və keyfiyyətsiz məhsullar istehsal edən istehsalçılara qarşı yetərincə mübarizə aparmır. Bəlkə də bizim ölkəmizdə qida istehsalı sahəsində mövcud olan nöqsanlar dünyanın heç bir ölkəsində yoxdur. Kimin kefi necə istəyir elə də məhsul istehsalı edir, təki pul çıxsın. Hərdənbir də Qida Təhlükəsizliyi Agentliyi gözə kül üfürmək üçün arxasız bir obyektdə nöqsanlar üzə çıxarır və televiziya kanallarında nümayiş etdirir! Amma heç kim, vallah, çörəyi qulağına yemir.**

**Bizdə Qida Təhlükəsizliyi Agentliyinin adı var, fəaliyyəti isə bir o qədər də hiss olunmur! İndi də millətə Monqolustan, Braziliya, nə bilim, daha harda istehsal olunan ət yedirtmək istəyirlər. Daha doğrusu, elə yedirdirlər də! Monqolustandan gətirilmiş qoyun, quzu, mal ətləri məşhur marketlərin vitrinlərini bəzəyir. O ətlərə baxırsan qapqaradı. Sosial şəbəkələrdə Monqolustandan gətirilmiş qoyun ətini nümayiş etdirib, onu dograyaraq qazana atıb qaynadırlar. Qazanın içi ağappaq olur. Elə bil ki, qazanda ət deyil, yağ qaynadılır! Və pis bir görüntü alınır.**

**Bu da belə! Deyilənə görə, bu ətin bir kilosuna 4 manat pul verirlər, amma camaata 12 manata satırlar. Heyvanlarımız dabaq olsa da, gec-tez onlar sağalacaq. Sadəcə olaraq, hər sahədə olduğu kimi, xaricdən ölkəmizə ət gətirilməsində də monopoliya mövcuddur. Bax, bu işlə məşğul olan adamlar millətin çətin vəziyyətində onlara keyfiyyətsiz ət yedirtməklə yanaşı, həm də milyonlar qazanırlar.**

**Qazansınlar ey, ancaq bu yolla yox, halal yolla! Ölkədə heyvanlar arasında yayılmış xəstəliklərlə əlaqədar quş ətinin də qiymətini bahalaşdırıblar. Hinduşka ətinin bir kilosu 18-20 manat, qaz, toyuq, ördək ətinin qiyməti isə 16-17 manatdır! Üzü Yeni ilə doğru gedirik və quş ətlərinin qiyməti belə getsə, bir qədər də bahalaşacaq! Bizə xaricdən gətirilən ət yox, baha olsa da, yerli ətimiz lazımdı!!! Mənşəyi bilinməyən ətləri yeməkdənsə, öz heyvanlarımızın ətləri daha dadlıdı!!!**

## Yenə bahalıqdı...



**Payız mövsümündə bir çox meyvələrin qiyməti adətən aşağı enir, yəni ucuzluq yaranır. Amma deyəsən , bu payız belə deyil. Baş çəkdiyimiz bir neçə bazarda bahalıq gördük və təəccübləndik.**

Məsələn, ən çox ucuzluq olan " 8 kilometr" bazarında belə bahalıqdı. Alma , armud, mandarin, xurma, naringi... o qədər də ucuz deyil.Əvvəllər kilosu bir manata ola mandarin indi 1 manat , 50 qəpiyə satılırdı.Eləcə də alma,armud, xurma heç də qiymətinə görə baha idi. Yaxşı narın kilosu 2 manatdan aşağı deyildi. Alıcılar isə məhsullara diqqətlə baxır, baha olduğu üçün oradan uzaqlaşırdılar.

Bazarlıq eləmək üçün gələn Nərgiz xanım dedi ki, qiymətlərə baxıram çox bahalıqdı. Demək olar ki, bütün meyvələrin qiyməti artıb. Mən bazara balıq almaq üçün gəlmişdim, balıq aldım, amma mer- meyvə almağa pulum çatmadı. Aldığım pensiya pulunun hamısını bazarda xərclədim.

Gərək elə edim ki, ayı başa vurun.360 manatla dolanmaq olar? Bu pulu verəsən o pensiya təyin edənlərə, görüm çox yox 10 gün dolana bilərlərmi! Beş manat pensiya artır, on beş manat qiymətlər. Gəl, indi , bunu çatdır, görüm necə çatdırırsan! Bax , belə ! Rəyin öyrəndiyimiz əksər sakinlər bazarlardakı bahalıqdan narazılıq elədilər.Bəs onda bazarlarda ucuzluq nə vaxt yaranacaq ki, camaat razı qalsın? Bunu isə zaman göstərəcək!

**EMİL FAİQOĞLU**

## "Azəristiliktəchizat" niyə köhnə rejimlə işləyir?



**Sovet dönəmindən belə bir ənənə qalıb ki, binalara istilik noyabrın 15- də verilir. Bu isə birmənalı olaraq o istilikdən istifadə edənlərin böyük narazılığına səbəb olub.**

Amma buna baxmayaraq, neçə illər keçsə də, binalara istiliyin verilməsi vaxtı dəyişdirilməyib! Görünən odur ki, bu il də məlum qurum köhnə qrafiklə işləyəcək! Həmişə yeni mövsüm gələndə insanlar böyük ümidlə gözləyirlər ki, bəlkə noyabrın 1-dən istilik verilə, amma biz bunun əksini görürük! İstiliyin qiyməti iki dəfə bahalaşıb.

Yəni əvvəllər bir kvadratmetrə görə 15 qəpik ödənilərdi, ancaq bu mövsümdən 45 qəpik veriləcək! Belə olan halda gərək əhaliyə yüksək temperaturda istilik verilə. Lakin bilmək olmur ki, iki dəfə qiymət artımından sonra yüksək istilik veriləcək, yoxsa verilməyəcək? Bunu istiliyin verilməsi zamanı əhali biləcək.

Ancaq birinci dəfə qiymət artımından sonra mənzillərə verilən istiliyin tempraturu bir o qədər də yaxşı deyildi! Əgər istiliyin qiyməti iki dəfə artıbsa, ona da " Azəristiliktəchizat" da zəhmət çəkib , əhaliyə yüksək temperaturda istilik verməlidir. Və bir də mənzillərə istilik noyabrın 15- deyil, 1- də verilməli, aprelin 30- a qədər bu proses davam etməlidir! Əgər qiyməti qaldirmısansa, onda xidmətin keyfiyyətini da artırmalısan!

## Qaydaları pozan sürücülər...




**Hər bir hər hərəkət iştirakçısı, o cümlədən sürücülər yol hərəkəti qaydalarına əməl etməlidir. Əlbəttə, qanuna əməl edənlər də var, əməl etməyənlər də! Heç şübhəsiz ki, qanunu pozan sürücülər inzibati məsuliyyətə cəlb olunurlar. Bakıda da bir qayda olaraq yol polisi hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə profilaktik tədbirlər həyata keçirir.Əlbbətə , bu cür tədbirlərin görülməsi baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında önəmli əhəmiyyət kəsb edir.**

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi Yol Patrul Xidməti Alayının 5- ci tağımının əməkdaşları öz üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırlar. Belə ki, onlar xidmət apardıqları küçə və prospektlərdə kobud qayda pozuntularına qarşı birmənalı olaraq ciddi mübarizə aparır, sərxoş, avtoxuliqan, eləcə də işıqforun qırmızı işığında keçən, başqa hərəkət iştirakçılarının həyatına təhlükə yaradan sürücülərə qarşı qabaqlayıcı tədbirlər görürlər! Bu isə o deməkdir ki, 5- ci tağımın əməkdaşlarının gözündən heç bir şey yayınmır.

5- ci tağımın komandiri, polis mayoru Nurlan Əliyev çox peşəkar və bacarıqlı bir polis zabitidir. N. Əliyev deyir ki, əməkdaşlarımız sutkanın qaranlıq və gündüz saatlarında işləməsindən asılı olmayaraq tapşırılan işə məsuliyyətlə yanaşırlar! Dövlət tədbirlərindən tutmuş, digər məsələlərə qədər bütün bizi tapşırılan vəzifələr daim diqqət mərkəzində saxlanılır.Artıq dayanacaqların zəbt olunmasının qarşısı alınıb.

Dayanma, durma qaydalarını pozan sürücülər inzibati məsuliyyətə cəlb edilir. Bir sözlə, xidmət apardığımız avtomobil yollarında hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ilə bütün qabaqlayıcı tədbirlər həyata keçiririk. Amma gərək sürücülər də , bizim tövsiyələrimizə əməl etsinlər. Belə olanda heç şübhəsiz ki, onlar inzibati məsuliyyətə cəlb edilməyəcəklər!

## Avtomobildən bayıra atılan əşya...

**Biz belə hadisələrin respublikanın avtomobil yollarında və Bakıda tez - tez şahidi oluruq. Götürürük ki, hansısa maşının pəncərəsini aşağı saldılar və ordan bayıra bir tullantı, ya da başqa bir əşya atdılar. Bu, ətrafı çirkləndirməklə yanaşı, həm də avtomobil yollarında digər nəqliyyat vasitələri üçün qəza şəraiti yaradır.**

Yəni, belə məsuliyyətsiz hərəkətdən arxadan gələn hər hansı avtomobil sürücüsü təhlükə ilə üzləşir.Təbii ki, bu qanun pozuntusu ilə bağlı İnzibati Xətalar Məcəlləsində məsuliyyət nəzərdə tutulub. Başqa sözlə demiş olsaq avtomobildən atılan tullantıya görə , hər hansı sürücü 50 manat cərimə edilir.

Heç şübhəsiz ki, Baş Dövlət Yol Polisi İdarəsi mütəmadi olaraq hərəkət iştirakçılarını və sürücüləri maarifləndirir. Əlbəttə , bu tədbirlərin bu və ya digər dərəcədə müsbət təsir də olur. Belə ki, aparılan profilaktik tədbirlər nəticəsində əvvəlki vaxtlara müqayisədə avtomobillərdən ətrafa tullantıların və əşyaların atılması faktları azalıb. Və bir də hər bir sürücünün sürücülük mədəniyyəti olmalıdır. Əgər o mədəniyyət yoxsa, heç şübhəsiz, belə xoşagəlməz hadisələr çoxalacaq. Amma fakt faktlığında qalır ki, hər bir hərəkət iştirakçısı öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirməlidir!!! Hər halda, yüksək mədəniyyət insanlar arasında bir- birini daha yaxşı anlamağa kömək edir!!!



## Kəndlər boşalır, cənablar!



**İnsanlar kənd yerlərində özlərini daha rahat, daha normal və daha sakit hiss edirlər. Amma indiki kəndlə əlli il bundan əvvəlki kəndin yerlə - göy qədər fərqi var. Əlli il bundan əvvəl bütün kəndlər də iş yerləri var idi.**

Camaatın baş iş- gücə qarışırdı. Ancaq indiki kəndlərin əksəriyyətində iş yerləri çox azdı və bəzi kəndlərdə heç yoxdur. Bəs belə olanda kəndli nə etməlidir? Əlbəttə, həmin insanlar odla- su arasında qalır və iş yeri, dolanışıq olmadığı üçün artıq kəndlər boşalmağa başlayır.

Əvvəllər kəndləri tərk edənlər Rusiyaya gedirdilər. İndi həmin ölkədə sərt qanunlar tətbiq olunur.Ona görə də, Rusiyaya getmək çətinləşib.

Belə olanda da kənddən çıxanlar Bakıya üz tuturlar. Lerikin, Yardımlının, Tovuzun, Gədəbəyin , Şəmkirin bir çox kəndləri boş qalıb. Yenə deyirik, onlar ya Rusiyaya, ya da Bakıya çıxıb gedirlər!

Bu isə ilk növbədə hökuməti narahat etməlidir. Kəndlərin boşalması isə yenə davam edir. Bunu gizlətmək mümkün deyil. Ən azından ona görə ki, bizim gözümüzün qabağında bu proseslər davam edir! Ona görə də, biz bir daha həyəcan təbili çalırıq! İnsanları kəndlər də saxlamaq üçün birmənalı olaraq iş yerləri açılmalıdır. Əgər bu yoxsa, kəndlər boşalmaqda davam edəcək!!!

## Asma körpü də problemi həll etməyəcək...



**Bakıda və onun ətrafında tıxacları aradan qaldırmaq üçün çox böyük layihələr həyata keçirilib. Və bu layihələr bu gün də həyata keçirilir və sabah da həyata keçiriləcək.**

Amma görünən odur ki, bütün bu məsələlər heç də problemlərin tamamilə həllinə kömək etməyib! Çünki bu çətinlikləri yoluna qoymaq o qədər də asan iş deyil. Təbii ki, bu gün də Bakıda hər gün tıxaclar olur. İnsanlar saatlarla tıxacda qalır, artıq yanacaq işlədir və əsəbləşir.

Artıq Bakıda şəxsi avtomobillə mənzil başına getmək hər bir sürücüdən səbr və dözüm tələb edir. Və səbri , dözümü olmayanlar gərək sükan arxasında əyləşməsinlər. İndi də deyirlər ki, Xırdalan dairəsində tıxacları aradan qaldırmaq üçün asma körpülər tikiləcək və bundan sonra həmin istiqamətdə tıxaclar aradan qaldırılacaq!

Ancaq buna da bir o qədər inanmaq olmur. Ən azından ona görə ki, günbəgün regionlardan Bakıya axın davam edir. Paytaxtda həm insanlar çoxalır, həm də avtomobillər!Belə olanda da sıxlıq yaşanır.Ümumiyyətlə, Bakıda tıxaclar o vaxt tam aradan qaldırmaq üçün paytaxtı başqa yerə köçürmək lazımdır. Bu olmayana kimi Bakıda tıxaclar həmişə mövcud olacaq!!!

**EMİL FAİQOĞLU**



# "Ürək xəstəlikləri yalnız tibbi problem deyil, bir iqtisadi itkidir..."

**"Neçə vaxtdır, müzakirə olunur ki, Azərbaycan ürək, qan-damar sistemi xəstəliklərindən baş verən ölüm hallarına görə dünyada ikinci yerdədir. Amma hələ də ortada sona qədər gedən real təhlil yoxdur. Peşəkarlar da, qeyri-peşəkarlar da tam eyni şeyi deyir: "Səbəb qida və stresdir". Bəli, bunlar doğrudur. Hətta təhsilsiz adam da bunu deyəcək ki, səbəb stress və qidadır. Amma "qida pisdir" deməklə məsələ həll olunmur".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, bu sahənin peşəkarları və cavabdehləri ümumi ifadələrlə fikir tamamlamamalıdır: "Əvvəlcə konkret suallara cavab verilməlidir. O hansı qidadır? O qidanı kim istehsal edir? Xaricdən idxal edilirsə, konkret hansı kanallarla ölkəyə gəlir? Onun idxal strukturu necədir? İstehlak səviyyəsi nə qədərdir və son illərdə artım və ya azalma tendensiyası necədir? Əgər stresdirsə, stresin mənbəyi nədir? Əmək mühiti? Gəlir gözləntisi? Həkimə müraciət mədəniyyəti? Profilaktikanın olmaması?".



E.Əmirov deyib ki, Yeni ciddi analiz aparılsa, səbəblər iki mərhələdə müəyyənləşdirilə bilər:

"Birincisi, birbaşa risk faktorları, daha sonra həmin risk faktorlarını yaradan struktur səbəblər. Bu gün Azərbaycan tibbi kifayət qədər inkişaf edib, diaqnostika səviyyəsi yüksəkdir. Bu göstəricinin səbəbləri əlbəttə ki, dəqiq aşkar oluna bilər və bunun da ardından müvafiq tədbirlər görülə bilər. Amma hələ də bu mövzuda konkret, analitik, əsaslandırılmış və A-dan başlayıb Z-də bitən bir hesabat yoxdur.

Ona görə də məsələ ümumi ifadələrlə deyil, konkret və ardıcıl səbəb zəncirlərinə əsaslanan faktoloji araşdırmalarla izah edilməlidir. Yəni problemi doğuran bütün faktorlar elmi əsaslarla tam identifikasiya edilməli və ən sonda həmin zəncirin 'kranı' bağlanmalıdır. Hər bir səbəb, hər bir boşluq, hər bir risk mənbəyi sistemli şəkildə aradan qaldırılmalıdır.

Bu, ölkə üçün strateji məsələdir. Ürək xəstəlikləri yalnız tibbi problem deyil. Bu bir iqtisadi itkidir. İşçi qüvvəsinin itirilməsi, ailə yükü, sosial təminat xərcləri və ən əsası bu insan həyatının itirilməsidir. Və hər ürək dayananda, bir ailənin bütün arzuları, bütün planları, bütün gələcək xəyalları da həmin saniyədə sönür. Geridə qalanlar isə ömür boyu davam edən bir boşluqla yaşamalı olur".

**Eldar**

# "Bu raketlərin əldə edilməsi döyüş potensialını kifayət qədər artıracaq"

**"Vətən Müharibəsində əldə etdiyimiz Qələbənin 5-ci ildönümünə həsr edilən Zəfər Paradında Silahlı Qüvvələrimizin arsenalına qəbul edilən bir çox yeni texnika, silah, vasitə və avadanlıqlar ilk dəfə ictimaiyyətə nümayiş etdirildi. Onlardan biri də "Rafael Advanced Defense Systems" şirkəti tərəfindən hazırlanan "Ice Breaker" qanadlı raketi idi. 300 kilometrə qədər mənzilə malik bu raket ilk dəfə 18-22 iyul 2022-ci il tarixlərində "Farnborough Airshow" sərgisində təqdim edildi. "Ice Breaker" raketi, 2021-ci ildə eyni şirkət tərəfindən təqdim edilən "Sea Breaker" gəmi əleyhinə raket ailəsinin bir üzvüdür".**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, bu raketin hazırlanması proqramı uzaqmənzilli, çoxməqsədli raketin əldə olunmasını nəzərdə tuturdu:

""Ice Breaker" çoxməqsədli raketdir, hava, quru və dəniz hədəfləri ilə mübarizə aparmaq üçün hazırlanıb. "Ice Breaker" raketi axtarış, hədəf tanıma və operatordan asılı olmadan hədəfin seçilməsi və məhv edilməsi üçün süni intellekt alqoritmlərindən istifadə etməyə imkan verən bort kompüteri ilə təchiz olunub. Bu isə onu 5-ci nəsil raket olduğunu göstərir. "Rafael Advanced Defense Systems" raketin gövdəsini gizli (stels) texnologiyadan istifadə edərək hazırlayıb, bu isə onun radarlara görünməsini maksimum çətinləşdirir.

Raket rəqəmsal idarəetmə sistemi ilə 3,73 kN dartma gücü istehsal edən "Safran Microturbo TRI 60" turbo mühərriki ilə təchiz olunub. Süni intellektdən sayəsində raketin idarəetmə və analiz sistemləri avtomatik rejimdə fəaliyyət göstərir.

Yeni nəslə aid olan raketin istənilən hava şəraitində, GPS sisteminin mövcud olmadığı və mürəkkəb radielektron müdaxilə şəraitində fəaliyyət göstərə bilir.

Qatlanan karbon lifli qanadlara malik raket olduqca kompakt ölçülərə malikdir. Onun diametri 300 mm, uzunluğu isə 3980 mm-dir. Təvazökar ölçüsünə baxmayaraq raket ərazi 300 km-ə qədər məsafədəki hədəflərə qarşı effektiv nəticələr göstərir. 300 km məsafəyə uçuş 20 dəqiqədən çox çəkmir, ən uzaq məsafələrdə belə raket komanda və idarəetmə mərkəzi ilə təhlükəsiz ikitərəfli əlaqə qurmaq qabiliyyətinə malikdir. İdarəetmə Mərkəzi raketin uçuşuna tənzimləmələr edə bilir, yəni raket buraxılandan sonra belə onun hədəfini dəyişə və ya dayandıra bilir, uçuş zamanı vəziyyəti yenidən qiymətləndirə və raketə yeni hədəf təyin edə bilir. Universal "Ice Breaker"



raketləri həm kiçik gəmilərdə, həm pilotlu və pilotsuz aviasiya vasitələrində, həm də personal daşıyıcılarında və pikap tipli avtomobillərdə yerləşdirilə bilər. Bundan əlavə raketin təhlükəsiz rabitə sistemi sayəsində həm raket və sahil batareyası arasında, həm də digər batareyalar və gəmilərlə real vaxt rejimində rabitə təmin edilir. Qabaqcıl Missiya Planlaşdırması və Nəzarət (AMP) sistemi qurudan və dənizdən eyni vaxtda həyata keçirilən hücumların koordinasiyasını da təmin edir. "Ice Breaker" raketinin son dərəcə aşağı hündürlüklərdə (2-5 metr) uçması, gizli texnologiyaya malik olması və avtonom rejimində işləməsi onu analoqlarından fərqləndirir. Beşinci nəsil raketin müxtəlif təyyarə və helikopterlərdən, o cümlədən "Gripen", FA-50, M-346, Jf-17 və F-16 təyyarələrindən buraxılması mümkündür. "Gripen" və JF-17 qırıcısı asqılarında 6 ədəd, F-16 isə 7 ədəd "Ice Breaker" raketi daşıya bilər".

Ekspertin sözlərinə görə, digər bir neçə əsas parametr isə yeni raketin hücumları üçün GPS peyk sistemindən asılı olmamasıdır:

"Bu, digər "Rafael" sistemləri ilə tam uyğun olan zərbə silahıdır. Məsələn, daşıyıcı buraxılış təyyarəsində və ya helikopterdə"Spice 1000" silah idarəetmə blokundan istifadə edilərkən digər platformada olan "Ice Breaker" gəmi əleyhinə raketindən istifadə edilə bilir.

350 kiloqram kütləyə və aşağı hündürlükdə 300 km məsafəyə zərbə imkanına malik raket süni intellekt sayəsində dərin təhlil texnologiyasına, avtomatik hədəf əldə etmə (ATA) və avtomatik hədəf tanıma (ATR) imkanları əldə edib. "Ice Breaker" raketi çətin radioelektron müdaxilə mühitində işləyə bilir, stasionar və ya hərəkət edən hədəfləri vurmaq üçün manevr törətmə cəhdlərinə müqavimət göstərən müstəqil naviqasiya və tuşlama texnologiyasına malikdir. Raket hədəfə qoğru hərəkət zamanı yol nöqtələrinə, azimuta, hücum meydançası bucağına və tuşlama nöqtəsi seçiminə uyğun olaraq əvvəlcədən müəyyən edilən hücum planlarına əsaslanan və digər əlaqəli vasitələrlə sinxronlaşdırılan hücum həyata keçirir. Nəticə Azərbaycan dövləti Silahlı Qüvvələrin, o cümlədən Hərbi Dəniz Qüvvələrinin inkişafına daim yüksək diqqət göstərir. Həm quru, həm də dəniz sərhədlərində baş verə biləcək təhdidlərin aradan qaldırılması üçün zəruri olan bütün tədbirləri görür. "Ice Breaker" qanadlı raketlərinin alınması da Silahlı Qüvvələrin döyüş potensialının artırılması məqsədi daşıyır. Raketin universal platformaya və süni intellektə malik olması, onun müxtəlif daşıyıcı vasitələrə quraşdırılmasına imkan verir. Bu raketlərin əldə edilməsi Azərbaycanın həm quruda, həm də dənizdə döyüş potensialını kifayət qədər artıracaq".

**Vasif ƏLİHÜSEYN**

*Vüqar Abbasov,*
**Niderland, ENA-nın (European News Agency) əməkdaşı**



# Heç-heçəyə "Qarabağ"ın rəqibləri sevinsinlər

### *Futbola baxmamağa çalışdım*

**Futbol azarkeşi deyiləm. Gənclik illərimdə böyük maraqla izləyirdim, amma bir hadisədən sonra qərara gəldim ki, bir daha futbola baxmayım.**

**Türkiyə milli komandası dünya çempionatında oynayırdı (üçüncü yer qazandığı il). Hansı komandaya qarşı oynadığını xatırlamıram. Ofisdə bir neçə həmkarla birlikdə oyuna baxırdıq. Gərgin an idi. Həmkarlarımdan biri zarafatla Türkiyə millisi haqqında xoşagəlməz sözlər dedi. Elə oradan da hər şey başladı - həm mübahisə, həm də mənim futboldan uzaqlaşmağım.**

**Stulu götürüb onu vurmaq istədim. Qaçdı. Yaxşı ki, də qaçdı, yoxsa ona doğru atdığım stuldan zədələnə bilərdi. O vaxtdan futbola baxmamağa çalışdım.**

**Avropa klublarının azarkeşləri**

**Futbola olan hisslərim tamamilə sönmüşdü, ta ki, "Qarabağ" tarix yazmağa başlayana qədər. Bu klub həqiqətən tarix yazır. Bəlkə də Azərbaycanda yaşayanlar bunu tam hiss etməzlər; sadəcə qələbəyə sevinər, xarici mətbuatda yazılanları izləyərlər. Amma bu uğurları xaricdə, başqa ölkədə canlı eşitmək tamam başqa zövqdür.**

**Məsələn, çox yeni bir hadisə: 5 noyabrda "Qarabağ" "Çelsi" ilə oyunda heç-heçə etdi. Bir vaxtlar belə bir nəticə bizə xəyal kimi gələrdi. Vaxtilə bu səviyyədə klublara 1:0 uduzsaq, onu "qələbəyə bərabər məğlubiyyət" adlandırardıq. İndi isə heç-heçəyə sevinmirik, indi qələbə istəyirik.**

**Bu nə deməkdir, təsəvvür edirsinizmi? Əgər belə davam edərsə, çox keçməz Avropanın bir çox klubları "Qarabağ"la heç-heçəni özləri üçün qələbə sayacaqlar. Bəlkə də artıq sayırlar.**

**Həmin oyundan bir gün sonra Niderlandda olduğum bir çox yerdə bu oyundan danışıldığını eşitdim. Hətta həmin gün öyrəndim ki, dekabrda Amsterdamın "Ayaks" (Ajax) klubu Bakıya gələcək, "Qarabağ"la qarşılaşmağa.**

**Tanıdığım bir çox "Ayaks" azarkeşi narahatdır. "Qarabağ"ı "Çempionlar Liqasının sürpriz komandası" adlandırsalar da, içlərində bir qorxu var. Marketin qarşısında bir neçə nəfərin söhbətinə qulaq kəsildim, deyirdilər: "Karabax (burda belə tələffüz edirlər) 2:0 udacaq." Sonra da əlavə etdilər ki, "Əgər 'Ayaks' bu komandaya qarşı heç-heçə edə bilsə, elə qələbə sayılar."**

**Siz mənim sevincimi təsəvvür edə bilirsinizmi? Xaricdə belə sözləri eşitmək insana necə qürur hissi verir, bilirsinizmi?**

**Qələbə istəyirik**

**Dünyanın tanınmış klublarının azarkeşləri "Qarabağ"la heç-heçəni qələbə sayırlarsa, deməK ki, "Qarabağ" artıq çox şeyə nail olub.**

**Amma bu o demək deyil ki, biz də "Qarabağ"ın heç-heçəsinə razıyıq.**

**Biz artıq heç-heçəyə sevinən azarkeşlər deyilik.**

**Heç-heçəyə "Qarabağ"ın rəqibləri sevinsinlər.**

**Biz qələbə istəyirik və qələbə gözləyirik.**

**P.S. "Qarabağ" deyəndə nədənsə mənim ağlıma ilk gələn Qurban Qurbanov deyil, Aqil Abbas olur. Odur ki, "Qarabağ" haqqında, burrada yazdığım və yazmadığım, eşitdiklərimi bölüşmək üçün Aqil müəllimə zəng etdim. Danışdım, Aqil müəllim də - "Bunları yaz" - dedi. Mən də yazdım.**

## *Donald Tramp BBC-ni məhkəməylə hədələyib*



**ABŞ prezidenti Donsld Tramp, Bi-bi-si telekanalının rəhbərliyini, onun çıxışını montaj edərək, guya o, etirazçıları Kapitoliyaya hücum etməyə çağırmasını nümayiş etdirən kadrların yayımladıqları sənədli filmlə bağlı, Britaniya Yayım Şirkətinə ünvanladığı məktubda şirkət rəhbərlərini məhkəməyə verəcəyi ilə hədələyib.**

Dünya KİV-nin yazdığına görə, baş verən qalmaqalla bağlı Bi-bi-si şirkətinin iki yüksək vəzifəli rəhbəri vəzifələrindən azad edilib.

Qeyd olunub ki, Bi-bi-si şirkətinin sədri Samir Şah, gecikmiş olsa da, bununla bağlı ABŞ prezidentindən üzr istəyib və şirkətin baş direktoru Tim Devinin və BBC News-in rəhbəri Debor Ternessin vəzifələrindən istefa verdiyini bildirib.

**Rüstəm Hacıyev**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# XATİRƏLƏRİMİN DİRİLDİYİ SƏFƏR

(əvvəli ötən sayımızda)

**Bəli, illərlə LAZIMı gözlədik, illərlə içimizdə "Allah qoysa" dedik, "İnşallah" dedik. Allaha sığınıb dualarımızı etdik ki, yurdumuza, ocağımıza, torpaqlarımıza qayıdaq. Və günlərin birində Allah səsimizi eşitdi, dualarımızı qəbul etdi. Ali Baş Komandanımız əmr verdi, dəmir yumruğunu qaldırıb "İrəli!" - dedi. İgidlərimiz bayrağımızı işğaldan azad etdikləri yurd yerlərimizə sancdı. Torpağımız bütövləşdi. Qanla suvarılan torpaq sahibinə qayıtdı. Bu artıq nə yuxudur, nə xəyal, nə də nağıl. Bu, günümüzün Qarabağ dastanıdır. Mən də o dastanı elə Qarabağın Xan kəndində gecə saatlarında öz-özümə xatırlayır və pıçıldayıram. Artıq dan yeri ağarır. Düzünü deyim ki, mən bu gecə Xankəndində kiminsə yuxuya getdiyini təsəvvür etmədim. İnanmadım ki, kimsə belə gecəni gözdən qaçırıb yata bilər. Çünki şəhərdə normal bir həyat qaynayırdı. Adamlar gəzir, danışır, gülür, gecə aptekləri, marketləri də öz müştərilərinə xidmət göstərirdi. Təbii ki, şəhər polisi də iş başında idi.**

Mən təkbaşına gəzirdim şəhəri. Gedib ermənilərin bu şəhərə yamaq etdikləri kilsənin də qarşısında dayandım. Dua etmək üçün yox, Allahdan bu torpağın düşmənlərinə cəza istəmək üçün. Və sökülən dan yeri ilə elə o istəyin işığında həmsöhbət oldum:

### *Xankəndinin dan üzü*

***Mənə elə gəlir ki,***
***burda səhər -***
***tamam fərqli açılır...***
***Yarıyuxulu şəhər***
***gözəlliyinin***
***özəlliyini***
***Göz də gözdən qaçırır -***
***Xankəndində!***
***Mənə elə gəlir ki,***
***Şuşanın***
***ovuc-ovuc səpdiyi***
***ulduzlar -***
***Səmasına çəkdiyi,***
***ürəyində əkdiyi***
***Və***
***Hər səhər azanında***
***çinar tək dikəltdiyi***
***oğullardı, nur saçır-***
***Xankəndində!***
***Mənə elə gəlir ki,***
***bu geniş, həm kəsişən***
***küçələr***
***Büründüyü yaşıllığın -***
***gül-çiçək qoxusunu***
***içindən***
***Gecələrin***
***bal kimi yuxusunu***
***Açılan səhərin nağılına daşıyır!***
***Adamlar da,***
***elə şəhər də -***
***NAĞIL ÖMRÜ YAŞAYIR -***
***Xankəndində!***

**30.10.2025**

Şəhəri gəzib dolaşdıqca məni sanki əllərində qürur yerimiz olan üçrəngli bayraq tutmuş Azərbaycan əsgəri müşayiət edir. Açığını deyim ki, qəlbimə hopmuş bu hiss məni tez-tez inzibati binaların üstündə, eləcə də yaşayış binalarının balkonlarında dalğalanan bayrağımıza baxmağa məcbur edir. Bu bir könüllü məcburiyyətdir, içimin, ürəyimin istəyidir. Mən də o istəyə canla-başla tabe oluram.

Xankəndinin bayraq meydanında dayanmaq, o bayrağın altında son 35 ili bir anın içində yaşamaq mənim yuxuma da gəlməyən bir gerçəklikdir. Və mən o gerçəkliyin indi nə qədər əlçatan olduğunu bütün varlığımla duyuram, hiss edirəm, yaşayıram. Sizə bəlkə də qəribə gələcək. Ya da düşünəcəksiniz ki, bütün bunlar bir söz adamının, bir şairin xəyalının diqtəsidir. Amma yox, bunlar gerçəklikdir. Və bu gerçəklik üçün şəhid qanı axıdılıb, oğullar gözlərini də qırpmadan işğalçıların üzərinə yeriyiblər. Haqqımız olanı geri alıblar. Ona görə də Bayraq Meydanındakı bu qürurverici an heç nə ilə əvəz oluna bilməz. Və bu anı heç nə ilə də qiymətləndirmək mümkün deyil. Onun dəyəri, qiyməti qiymətsiz olmağında, yeri Tanrı dərgahında olan şəhidlərimizin ruhunun sönməyən işığındadır.

Mən Xankəndində dalğalanan bu bayrağın yenidən qayıtdığı bu şəhərdə təkcə simvol, təkcə atribut kimi yox, həm də dövlətimin, millətimin özü kimi görürəm. Və baş əyərək bu bayraq yerinə qayıdanda yazdığım ürəyimdə göyərmiş misraları xatırlayıram:

### *Xankəndinə Sancılan BAYRAĞIMA SƏCDƏLƏRLƏ*

***Bu payız ömrümün Baharı oldu,***
***Gözü aydın olsun torpağın, daşın!..***
***QƏLƏBƏ!- əbədi vüqarı oldu -***
***Sildi Qarabağım, gözünün yaşın!..***

***Səksəndi bu yurdun kövrək ürəyi,***
***Açdıq müjdə ilə nurlu sabahı!***
***Çıxardıb əynindən işğal köynəyin -***
***Xanın kəndi oldu İLHAM şəhəri!***

***Axır ki, duruldu yurdun səması -***
***Dualar selləndi şəhid adına!***
***Əsgər oğulların Vətən anası -***
***Təbəssüm sarıdı yaralarına!***

***Qürura bələndi Vətən büsbütün ,***
***Ürəyim fərəhdən dalğa yarırdı...***
***Bayraq da yerinə qayıtdığıyçün -***
***Sonsuz fəxarətlə dalğalanırdı!!!***

**15 oktyabr 2023**

Səhər günəş oyananda biz şəhəri gəzə-gəzə Xocalıya tərəf gedirdik. Oranı ziyarət edib Ballıcadan keçib Ağdərəyə doğru gedəcəyik...

Xocalının 30 il izlədiyim görüntüləri və burada qətlə yetirilən doğmalarımın xatirələri hamı kimi məni də o qədər üzmüşdü ki, bura necə qayıdacağımı və qayıdıb gördüklərimə necə dözəcəyimi heç cür təsəvvür edə bilmirdim. Çünki həm işimlə bağlı, həm gündəlik informasiyaların təsiri, həm də Xocalıdan olan qan qohumlarımın demək olar ki, hər gün eşitdiyim, xatırladığım ağrı-acıları, nisgilləri, hətta xatirələri içimdə sözün böyük anlamında bir Xocalı xarabalığı yaratmışdı. Elə bir xarabalıq ki, mən orda ancaq fəryad səsi, inilti, sızıltı və bir də düşmənin iblis gülüşlərini eşidirdim. Buna görə heç cür özümü orda təsəvvür edə bilmirdim. Düşünürdüm ki, ayağım o torpağa toxunanda həm həyəcandan, həm qəhərdən, həm hikkədən, həm də sevincdən ürəyim dayanacaq. Görünür, insan bəzən ağrılara o qədər alışır ki, ya müəyyən hissləri korlaşır, ya daşlaşır, ya da artıq dərk etməyə gücü qalmır. Amma burda bir nüansı da qeyd edim. Bu nüans da ondan ibarətdir ki, mən Xocalıya gələnə qədər artıq bir neçə dəfə bərpa olunan Füzulini, Hadrutu, Şuşanı, bu gün isə Xankəndini gördüm. Bu yenidən həyata qayıdan yurd yerlərimizdəki yaşam ovqatı içimə bir həyat havası hopdurdu, qürur bağışladı, yaşamaq istəyimi ayağa qaldırdı.

Görünür, elə bu səbəbdəndir ki, Xankəndindən Xocalıya gedəndə yenidən çəkilən o möhtəşəm yol, aparılan tikinti-abadlıq gözlərimdəki qəhəri sevinc yaşlarına çevirdi. Ürəyimin ağrısı elə bil ki, uçub getdi. Və mən ancaq həyata qayıdan Xocalını acgözlüklə seyr etməyə başladım. Yolun kənarında maşını saxlayıb düşdüm və işğaldan öncə yüz dəfələrlə olduğum bu qəsəbənin dünənini xatırlamağa çalışdım. Doğmalarımın yaşadığı məhəlləni təxmin etməyə, evlərini gözümün önünə gətirməyə çalışdım. Düzünü deyim ki, hər şey qarışmışdı mənimçün. Səmti təxmin etsəm də, tam arxayın deyildim dəqiqliyinə. Bu vaxt yolu keçən cavan oğlanı söhbətə tutdum. İstədim dayımgilin, xalamgilin evlərinin yerini soruşum. Amma təəssüf... Bu cavan oğlan Xocalını həyata qaytaran tikinti işçilərindən idi, üzrxahlıq etdi. Mən isə ona "işin avand olsun", - dedim.

Bu da Ballıca kəndi. Kəndin adı kimi, özü də adama şipşirin təsir bağışlayır. Demək olar ki, burda əməlli-başlı həyat var, adamlar işə tələsir. Yol kənarındakı evlərin abadlığı, həyətlərdəki meyvə ağaclarının barı, hətta çəpərlərdən görünən bostanlar belə, adama elə təsir bağışlayır ki, sanki burda düşmən izi olmayıb. Məncə, bu təəssüratı yaradan yurdun əsl sahibləridir. Çünki ocaq sahibləri öz ocaqlarını əvvəlki kimi yandırıblar. Saxladıqları mal-qara, toyuq-cücə elə arxayınlıqla örüşə aparılır ki, elə rahatlıqla onlara dən səpilir ki, adamın ürəyi dağa dönür. Burda da maşını saxlayırıq. Kəndin içərisinə daxil olanda yolun kənarında dayanmış adamlara "gününüz uğurlu olsun", - deyirəm. Onlar da eyni səmimiyyətlə "xoş gəldiniz",- söyləyirlər. Hətta bura ilk dəfə gəldiyimizi biləndə evlərinə də dəvət edirlər. Mən də bu torpağın halal sahiblərinə təşəkkür edib öncədən məlumat almaq üçün Ağdərəyə gedən yolun vəziyyətini soruşuram. Orta yaşlı bir kişi arxayın-arxayın deyir:

- Əmioğlu, heç narahat olma. Ağdərənin özünə qədər çox rahat bir yoldur. Mənzərəsi mənzərə, rahatlığı da rahatlıq. Qorxma, maşını sür, ruhun da inciməyəcək.

Həqiqətən də Ballıcadan çıxıb meşənin içindən keçən və dünyanın bütün rənglərini özünə hopduran bu mənzərəni seyr edə-edə üzü Ağdərəyə gedirik. Hətta arada maşını saxlayıb əlimlə yarpaqlara toxunuram. Bu bir sadəlövhlük deyil. Bu, rəng çalarlarının məni məndən almasıdır. Çünki rənglər o qədər təbii, o qədər çoxçalarlı və mənalıdır ki, bəzən gördüyümə inanmıram. Ona görə yarpağı əlimlə silirəm ki, bəlkə burda sünilik var. Amma yox, üstünün tozunu sildiyim də, gözümə sürtdüyüm də Vətən torpağında könlümü sevindirən gözəllikdir, möcüzəli gözəllik. Onu görməyən, onu seyr etməyən ola bilsin ki, məni hisslərə qapılmaqda, pafoslu sözləri yazıma əlavə etməkdə qınasın. Amma nə olur-olsiun, kim nə deyir-desin, Qarabağın bu gözəlliyini ancaq və ancaq vəsf etmək, yaşamaq lazımdır. Onda mənim gördüklərim sizin də könlünüzü oxşayacaq.

Yol boyu Ağdərənin hələ Birinci Qarabağ müharibəsi dövründən gəzib gördüyüm kəndlərinin adları yazılmış yol nişanlarına baxıram. Sırxavəndi, Güneytəpəni... Və burda bir məqam xüsusilə diqqətimi çəkir. Yurda qayıdan kənd sakinləri yol boyu hələ Birinci Qarabağ müharibəsində şəhid olmuş, ermənilərin bu ərazilərdə qətlə yetirdikləri soydaşlarımızın şəkillərindən ibarət xüsusi tablolar düzəldiblər. Orada şəhidlərin ad və soyadları göstərilməklə yol adamıyla həmsöhbət olan şəkillər stendi yaradıblar. Şəhidlərin şəkilləri bu yurdu tərk etməyən ruhlarının işığında mənimlə Birinci Qarabağ savaşından danışırlar.

Bu yolun müəyyən bir nöqtəsində fəaliyyət göstərən sənaye müəssisəsinin mənzərəsi mənə xüsusi təsir etdi. Həmin müəssisə qapalı olduğundan mühafizəçilər yaxınlaşmağa icazə vermədilər. Qanun qanundur, ona əməl etmək hamı kimi mənim də borcumdur. Mən burda yalnız bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, Ağdərəyə səfərim zamanı aparılan abadlıq işləri, yaradılan iş yerləri birmənalı olaraq məndə xoş təəssürat, xoş ümidlər yaratdı. Hətta qaz xəttini təmir edən fəhlələrlə söhbətdə hiss etdim ki, bura işləməyə gələnlər həm doğma torpağa qayıdışdan qürurludurlar, həm də burda işlədikləri üçün daha ümidlidirlər. Özlərinin də dedikləri kimi, onlar söndürülmüş ocaqları yenidən yandırırlar.

Günortaya yaxın Ağdərəyə çatırıq. Rayon mərkəzində əməlli-başlı əmək yarışmasıdır. Demək olar ki, bütün küçələrdə iş gedir, dağıntıların qalıqları təmizlənir, evlərdə bərpa işləri aparılır, səkilər səliqəyə salınır, qaz, su xətləri təmir olunurdu. Demək olar ki, burda çalışanların böyük əksəriyyəti cavanlar idi. Çoxlu texniki vasitələr də onların ixtiyarında olmaqla Ağdərəyə yeni dövrün təməli qoyulurdu. Biz Ağdərənin içərisində magistrala yaxın olan "Ağdərə" otel-restoranın həyətinə dönürük. Özünün də dediyinə görə, əslən Ağdamdan olan cavan bir xanım ailə üzvləri ilə bu otelin yeməkxanasını işlədir. Bizə bu torpağın məhsullarından süfrə açır. Çox dilli-dilavər olan bu xanım mətbuat işçisi olduğumu biləndə verdiyim suallara ürəklə cavab verirdi. O dedi ki, bu oteli təmir edəndən sonra ailəmizlə köçüb gəldik. Həyətdəki evdə məskunlaşmışıq. Necə deyərlər, həm evimiz var, həm işimiz. Qonaqlar da get-gedə artır. Şükür, bu günlərə.

Həqiqətən çox şükür bu günə. Elə Allahıma şükür edə-edə otelin həyətindəki bağı gəzirəm. Xurma ağaclarının budaqları yerə dəyir. Hətta bəzilərinin budaqları meyvənin bolluğundan ağırlığa tab gətirməyib qırılıb. Bəzilərinə qırılmaması üçün dayaqlar verilib. Xanımın icazəsi ilə budaqdan bir xurma qırıram nəvələrim üçün. Bunu görən həmin xanım dərhal bir torba gətirir:

-Doldurun aparın nəvələrə. Qarabağ meyvəsidi.

Xanımın bu səxavəti, xüsusilə, "Qarabağ meyvəsidi" sözü məni mütəəssir edir. Axı otuz il mən o sözü eşitmədim. İndi isə həm o sözü eşidirəm, həm də meyvəni dərirəm.

**Sağollaşıb üzü Tərtərə yola düşürük. Rayonun çıxışında polis nəzarət postu var. Maşını saxlayırıq, polis nəfəri yaxınlaşır, sənədlərə baxır, maşının baqajına nəzər yetirir və sonra "yaxşı yol", - deyir. Bu an ağlıma gələn fikirlə yazımı bitirmək istəyirəm. Bu fikir "yaxşı yol"la bağlıdır. Kaş bütün yollar yaxşı, yolçular da o yollardan məmnun olsunlar. Kaş bizim yaxşı yollarımız Vətən sevdalı, bizim sevdalarımız da Vətənli olmaqla bizi bir-birimizlə yaxşı yollarda, yaxşı günlərdə görüşdürsün. Ona görə də bizi "yaxşı yol"la uğurlayan polisə də "salamat qal" - deyib ayrılıram. Bu ayrılmaq indi məni üzmür, çünki biz bayrağımızı səcdəyə bundan sonra istədiyimiz vaxt gəlməyi haqq etmişik.**



Elmir Həsən

# Salam Sarvan poeziyasında sözün rəqsi və zamanın palitrası

**Fransız tənqidçisi və semiotiki Rolan Bart yazırdı ki, müasir şeirdə mənanı müəllif yox, oxucu yaradır. Şeir artıq tək bir məna daşımır - hər oxunuşda yeni anlamlar doğur. Biz Rolan Bartın nəzərdə tutduğu oxucunu iki fərqli şəxsiyyət kimi təsəvvür edə bilərik: biri yüksək ədəbi-intellektual hazırlığa malik oxucu, digəri isə tənqidçidir. Çünki yalnız simvolizmlə zənginləşmiş və düşünməyə təşviq edən şeirlərin mənasını dərk etmək, onları sorğu-suala çəkmək bacarığı məhz bu iki oxucu tipinə xasdır. Bu baxımdan müasir poeziya ilə klassik poeziya arasında nəzərəçarpacaq fərqlər mövcuddur. Müasir poeziyanın başlıca xüsusiyyəti onun insan xarakteri ilə sıx bağlı olmasıdır. Postmodern və metamodern insan azadlığa və sərbəst həyata meyillidir. Bu meyil poetik janrların sərhədlərinə də təsir göstərir - ənənəvi forma və qaydalardan uzaqlaşma müşahidə olunur, qafiyənin hökmü isə yeni mənalar axtarışına yol verir. Fəlsəfə, psixologiya və tarix yenidən ədəbiyyatla qovuşur; məhəbbət mövzusu isə əvvəlki mərkəzi yerini nisbətən itirir. Bunun səbəbi meta-insanın yeni həyat forması axtarışına çıxması, sevgidən yorulması, təkliyə alışması və duyğularını məntiqin hökmünə tabe etdirməsidir.**

Qeyd etdiyimiz bu cəhətləri Salam Sarvanın yaradıcılığında aydın şəkildə müşahidə etmək mümkündür. O, ədəbiyyatımızda spesifik üsluba malik şairlərdən biridir. Əksər şeirləri intertekstuallıq üzərində qurulmuşdur; bəzi şeirlərində isə müəllif sanki sözlə rəqs edir: ən incə çalarlı sözləri tədrici qradientlə seçir və onları misralara çevirir. Bu zaman əvvəlki misraları sonrakılarla həm zidd, həm də oxşar palimpsest yaradır.

***Saatın əqrəbləri***
***Biri-birinin üstə:***
***Qıfılnan bağlanıblar,***
***Üçü də "bir"in üstə.***

Bu şeirdə saatın əqrəbləri bir nöqtəyə toplanaraq həm fiziki, həm də məcazi mənada bağlılıq və məhdudiyyət ifadə edir. Başqa bir şeirində isə realizmin üzərinə yüngülcə "proletariat" sığalı çəkir, şaquli formada mənalar arasında ziddiyyət yaradır:

***Daha nələr?..***
***Kötük postamentlər üzərində***
***Həmişəyaşıl abidələr.***
***Daha kimlər?..***
***Pəncərəsi kamera divarından***
***Təqvim kimi asılmış məhkumlar.***

"Təqvim kimi asılmış məhkumlar" bənzətməsi yaradıcı təsəvvürün metamodern dünyaya istiqamətlənmiş ən kulminativ və intellektual mərhələsidir.

"Daha nələr?.." və "Daha kimlər?.." sualları poetik nitqin ritorik üsullarındandır. Şair burada cavabdan çox təəssüf, heyrət və narahatlıq hisslərini ifadə edir.

"Kötük postamentlər üzərində həmişəyaşıl abidələr" bənzətməsi ilə şair ölüm və ölümsüzlük dualizmini ədəbi mərkəzə gətirir. "Kötük" (kəsilmiş ağac) bitmiş həyatın anlamını əxz edirsə, "həmişəyaşıl abidə" daimi yaddaş, əbədi hörmət mənasındadır.

Şeir azadlıq və məhkumluq, yaddaş və unudulmaq, varlıq və yoxluq mövzularını əhatə edir. Eyni zamanda şəhidlik, müqavimət, tarixi travmalar (məsələn, repressiyalar, müharibə, işgəncə dövrləri) kimi mətnaltı məzmunlar verir.

Lakin "həmişəyaşıl" ifadəsi eyni zamanda qıclığın da əlamətidir. Yerində sayan, iflic düşüncə, manqurt mənasında da bu ifadə omonim məna daşıyır. Şeirdə isə kötük postamentin üzərində həmişəyaşıl abidə zamanın kütləşdiyini, iflic olduğunu göstərir.

"Pəncərəsi kamera divarından təqvim kimi asılmış məhkumlar" - burada məkan və zaman anlayışları çarpazlaşır. Məhkumun həyatında "pəncərə" artıq azadlığa yox, təqvimə baxış nöqtəsidir - zamanın axışı və gözləmə rəmzidir. Məhkumun pəncərəsi artıq fiziki çıxış yox, təqvimdə dəyişən günlərin rəmzidir - bu da ekzistensial tənha qalma halının göstəricisidir.

"Daha kimlər?.." sualı həm faciənin davam etdiyini, həm də gələcəkdə də bu qurbanların ola biləcəyini göstərir. Bu sual həm fərdi kimlik, həm də kollektiv yaddaş üzərində düşünməyə çağırır.

Bu mənada, şair üçün zamanın hərəkəti də tükürpədicidir - eynilə qatar relsinin döngələrə tuş gəldiyi zaman sürtünmədən çıxardığı ət ürpədici səs kimi...(!)

Başqa bir şeirində də zaman dirənib, yerində sayır:

***Söndür ekranları, ta bundan belə***
***Nə filmə, nə də ki həyata baxaq.***
***Deyirlər, saatda yaxşı vaxt gedir -***
***Gəl, gedək oturub saata baxaq.***

Amma xüsusilə qeyd etməliyik ki, Salam Sarvanın düşüncəsindəki zaman daha çox yetişkin insanın təsəvvüründəki zamandır. İnsan ömrünə görə zamanın leksikası da nisbidir. Bu cəhətdən Salam Sarvanın zaman anlayışı moldovalı şair Qriqore Vyerunun zamanından fərqlənir.

Zamanın ilk körpə tərifi ağlımda süpürgə səsi kimi qalıb. Bahar günəşinin atmosferində kəndin qu quşunun, qaranquş səsinin şəfəqlə rənglənmiş mavi səmasının tərkibində assosiasiya olunmuş halı ilə yaddaşıma hopub zaman.

Böyük rumın şairi, Moldovanın görkəmli ədəbiyyat nümayəndəsi Qriqore Vyerunun da şüurundakı zamanın qeyri-xəyali tərifi onun poeziyasını öz səmtinə salıb. Bunu aşağıdakı misrada rəngə doymuş koloritlə duymaq çətin deyil:

***Yetişmiş moruq kimi***
***Üfüq alışıb-yanır.***
***Bir qoca sübh səhərdən***
***Süpürür xiyabanı.***

Vaxt başlanğıcdır - körpə uşaq beyni, ağappaq vicdan kimi(!)

Zaman tərifi yalnız mənim Qafqazlı zehnimdə səhərin şəhə bulaşmış, uzaqdan günəş parıltısına boyanmış şəkilində qalmayıb, eyni zamanda qədim qitənin poeziya insanının da zehninə sübh qızartısı - səma mavisi rəngində həkk olunub. Qitənin tarixi qədimliyini kölgəsinə alıb.

***Ay oğul, vaxtı***
***Soruşmursan?***
***Al qırmızıdı!***
***Al qırmızıdı!***
***...***

***Avar çəkir dayanmadan,***
***Yorulmayır da bircə an:***
***Söylə, sən vaxtı***
***Soruşmursan?***
***Mavidi, mavi!***
***Mavidi, mavi!***

Salam Sarvan əksərən bizim yaşadığımız, sevdiyimiz, gördüyümüz, amma fərqində olmadığımız gözəlliklərə və ya reallıqlara pıçıltı ilə işıq tutur, ömrün bəri başından o biri başına prolepsis edir:

Bax ha...

***Uşaq vaxtı yıxılarkən ağlamadığın ağrılara***
***Əlli yaşdan sonra başlarsan ağlamağa.***

Uşaq vaxtı yaşanan fiziki ağrıların acısı candan saniyələr, uzağı dəqiqələr içində çəkilir, amma insan yaşa dolduqca ömrü mənəvi ağrıların çəkilməyən giziltisi ilə çırpınır.



Yaş artdıqca insan həyatın mənəvi və psixoloji ağırlığını daha dərindən dərk edir. Uşaqlıqda bədənə dəyən zərbələr unudulur, amma yaşlandıqca həmin anların mənəvi yükü ortaya çıxır.

İnsanın yaşadığı günlərin sayı çoxaldıqca səsi batır, dünyasının sonunda isə təkrar uşaqlaşır, əvvəlki saf, kövrək qəlbinə geri dönür.

Və yaxud:

***Guya tənhalığa çəkilmisən -***
***Gizlətmisən dünyanı***
***dörd divarın o üzündə...***
***Ətrafa baxmırsan -***
***Dülgərin satmaqçün***
***düzəltdiyi pəncərədən***
***Heç yerə baxmadığı kimi.***

Lirik qəhrəman özünü dörd divarın arxasında gizlədib, ətraf aləmdən təcrid olunmuşdur.

Şeirin başlanğıcındakı "Guya tənhalığa çəkilmisən" ifadəsində bir ittiham, ya da kinayə var. "Guya" sözü bu tənhalığın səmimi və həqiqi olmadığını, bəlkə də özünü təcrid etməkdə qeyri-səmimi bir istək olduğunu göstərir - bəlkə də monax həyat tərzi. "Dörd divarın o üzündə dünyanı gizlətmək" - burada ev və divar yalnız fiziki məkan deyil, həm də psixoloji çəpər kimi çıxış edir.

Şair demək istəyir ki, sən guya özünü dünyadan ayırmısan, amma əslində özünü dünyadan gizlətməyə çalışırsan; bu da tənhalıq deyil, qorxu və ya laqeydlikdir.

"Dülgərin satmaqçün düzəltdiyi pəncərədən heç yerə baxmadığı kimi" ifadəsi möhtəşəm bir metaforadır, hətta ədəbiyyatımız üçün əsrarəngiz bədii tapıntıdır. Dülgər pəncərəni praktik məqsədlə, satmaq üçün düzəldir - o, onun funksiyasına baxmır, içindən nə görünür, vecinə deyil. Şair bu bənzətmə ilə demək istəyir ki, sən də baxmaq üçün deyil, sadəcə divarı bəzəmək üçün pəncərə saxlayırsan, yəni həyata gözlərini qapamısan.

Burada həqiqi tənhalıq ilə süni tənhalıq arasında fərq qoyulur. Həqiqi tənhalıq insanın daxili düşüncə, özünüdərk üçün çəkildiyi səssizlikdir. Ancaq şair burada bu halı tənqid edir: guya tənhasansa, niyə dünya ilə rabitəni tamam kəsirsən? Pəncərə burada həm həyatla rabitə, həm də daxili baxış rəmzidir.

Görmək istəyən pəncərədən istifadə edir, amma görmək istəməyən üçün pəncərə mənasız çərçivədir - dülgər kimi, sadəcə funksional baxır. Bu baxımdan şair ekzistensialist fəlsəfəyə yaxınlaşır: insanın öz seçimləri, özünü qapaması, dünyanı məntiq və ağılla görməkdən imtinası onun varlığının mahiyyətini müəyyən edir. Beləliklə, insanın daxili dünyası və reallıq arasındakı ziddiyyət ön plana çıxır.

Şeirin əsas ideyası tənhalığın zahirən könüllü görünsə də, əslində insanı içindən məhv etməsi fikridir. Lirik qəhrəman təkliyə çəkildiyini düşünür, amma bu, ətraf mühitlə əlaqənin tam kəsilməsi demək deyil - o, dünya ilə münasibətini dörd divarın arxasında saxlamağa çalışır, amma çarəsiz durumda...

Məşhur rus filosofu və ədəbiyyatşünası Mixail Baxtin müasir şeir haqqında yazırdı ki, şeirdə səs və mənaların çoxsəsliliyi (polifoniya) ilə yeni məna qatları formalaşır. Bu mənada Salam Sarvanın şeirlərində polifonik xüsusiyyətləri müşahidə etmək mümkündür:

Məsələn:

***Qazılan quyulardan***
***Çıxarılmış torpaq zibildi daha.***
***Təxminən, sən də yaşamırsan.***
***Yalnız saçlarının və dişlərinin***
***Yavaş-yavaş tökülməsidi***
***həyat əlamətləri.***

Bir tərəfdə dünya və dəyərsizləşmə haqqında metafora (torpaq - zibil), digər tərəfdə insanın tənəzzülü, yaşamın formalara çevrilməsi (saç və dişlərin tökülməsi), üstəlik "Təxminən, sən də yaşamırsan" - bu, həm müraciətdir, həm yarımfikirdir, həm də mövqedir.

Salam Sarvanın poetik təfəkkürü fərdi xarakter ölçüləri ilə yaxındanyaxına kəsişir. Şairin şeirlərini nəzəri cəhətdən təhlil edərkən onun mövzusu, ideyası, poetik xüsusiyyətləri və bədii ifadə vasitələri üzərində xüsusi həssaslıqla dayanmaq lazımdır. Ümumiyyətlə, Salam Sarvanın bu şeiri üslub və janr xüsusiyyətləri baxımından lirik-fəlsəfi stilistikada yazılmışdır və oxucunu öz-özü ilə tək qalaraq (introspeksiya) ortaya çıxmış suallara cavab axtarmağa vadar edir.


**İstifadə olunmuş ədəbiyyat:**

**1. Salam Sarvan, Heykəl tənhalığı. Bakı: Qanun, 2017, 155 s.**

**2. Salam Sarvan, Şeirlər. Qanun, 2001.**

**3. Qriqore Vyeru, İynənin nəğməsi. Şirvannəşr, 2025.**

**4. Q. S. Nils Gilye, Fəlsəfə tarixi. Zəkioğlu, 2008.**

**5. Zeynəddin Hacıyev, Fəlsəfə. Ali məktəblər üçün dərslik. "Turan evi" nəşriyyatı, 2018, 463 s.**

**6. Mixail Baxtin, Dostoyevski poetikasının problemləri.**

**7. Rolan Bart, Müəllifin ölümü. 1967.**


## *Venesuela müdafiə olunmağa hazırlaşır*

**Venesuela prezidenti Nikolas Maduro , parlamentin təsdiü etdiyi ölkənin kompleks müdafiə komandanlığının yaradılması barədə qəbul etdiyi qanunu imzalayıb.**

"Komandanlıq qarşısında bütün səviyyələrdə və şəraitlərdə, Milli bolivar hərbi qüvvələrinin hazılıq vəziyyətinə çatdırılması vəzifələri qoyulub"-deyə Madura qeyd edib.

Qanun qəbul olunduğu gündən başlayaraq , Venesuela regional komandanlığı kompleks müdafiə işlərinə başlayacaq.

Xatırladırıq ki, ABŞ prezidenti narkotillerlərlə mübarizə adı altında Venesuelanı hərbi güc tədbiq edəcəyi ilə bağlı təhdid edib.

**Rüstəm Hacıyev**

## *2025-ci il üzrə ən çox tələb olunan peşələr*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya tərəfindən 2025-ci il üzrə iş elanlarının təhlili aparılıb. Təhlilin nəticələrinə əsasən ölkənin əmək bazarındakı əsas tendensiyalar və tələbat istiqamətləri müəyyən edilib.**

Adalet.az xəbər verir ki, bu barədə nazirlik məlumat yayıb. Bildirilib ki, ən çox vakansiya elan edilən sahələr topdan və pərakəndə ticarət, maliyyə və sığorta, emal sənayesi, yaşayışın təşkili və ictimai iaşə, tikinti sektorudur. Bu sahələr əmək bazarında tələbatın əsas istiqamətlərini formalaşdırır.

Əmək bazarında iş imkanlarının genişlənməsinə ən çox töhfə verən müəssisələr arasında banklar (8,2%), tikinti-quraşdırma şirkətləri (6,9%), otellər (4,9%) və tədris-təlim müəssisələri (4,7%) yer alır.

İşəgötürənlərin ən çox ehtiyac duyduğu kadrlar satış təmsilçiləri (8%), mühasiblər (6,6%) və satınalma-təchizat üzrə mütəxəssislərdir (3,2%).

Ən çox tələb olunan müstəqil peşələr isə sürücü, aşpaz və elektrik ustalarıdır.

Ümumilikdə 264 peşə və vəzifə qrupu üzrə qeydə alınan vakansiyaların yalnız 26,3%-ində əməkhaqqı açıq şəkildə göstərilib:

Orta əməkhaqqı - 965 manat

Median əməkhaqqı - 800 manat

Ən çox təklif olunan əməkhaqqı intervalı - 601-1000 manat

Ən yüksək orta əməkhaqqı İKT, mühəndislik, memarlıq, proqramçılıq və layihə idarəçiliyi sahələrində müəyyən olunub.

Təhlillərə əsasən, 2025-ci ildə işəgötürənlər tərəfindən ən çox tələb olunan yumşaq bacarıqlar arasında ünsiyyət bacarıqları faiz nisbətilə üstünlük təşkil edir.



Türkan Cəfərli
ADMİU-nin nəznində Humanitar kollecin
I kurs tələbəsi

# ELM VƏ TƏHSİL YOLUNDA QADIN GÜCÜ

**Hər bir xalqın gələcəyi onun təhsilə və elmə olan münasibətilə ölçülür. Təhsildə və elmdə qadınların rolu isə bu mənada xüsusilə fərqlənir. ”Təhsil millətin gələcəyidir”, - deyən Ulu öndər Heydər Əliyev Azərbaycanda digər sahələr kimi təhsil sahəsinə də mühüm önəm verirdi.**

**Dahi şəxsiyyət Heydər Əliyev xüsusilə vurğulayırdı ki, təhsil nə sənayedir, nə kənd təsərrüfatıdır, nə də ticarət. Bu, cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən sahədir. Heydər Əliyevin təhsil siyasəti onun siyasi kursunun layiqli davamçısı Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.**

**Azərbaycanda təhsil və elm sahəsində son illər görülən işlər, onun qanunvericiliklə təkmilləşdirilməsi bu sahənin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu deməyə əsas verir. Sözsüz ki, elmə aparan yol təhsildən keçir. Bu istiqamətdə Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondu mühüm işlər görür, səmərəli layihələr həyata keçirir.**

**Tələbəsi olduğum Azərbaycan Dövlər Mədəniyyət və İncəsənət Universitetinin nəznində Humanitar kollec elm və təhsil istiqamətində bir sıra uğurlu addımlara imza atır. Bu addımlarda qadınların payı və əhəmiyyəti diqqət çəkir. Kollecin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nərmin Qaralovanın rəhbərliyi ilə kollecdə müəllim və tələbələr üçün əlverişli imkanlar yaradılıb. Bu imkanlar bizi daha peşəkar və məsuliyyətli olmağa səsləyir.**

**Humanitar kollecdə təhsil alan tələbələr ümidlidir. Bu ümidin adı gələcəkdir. Çünki hər bir tələbənin gələcəklə bağlı arzuları var. Müəllimlərimiz bizim elmi, mədəni dünyagörüşümüzün artırılması, Vətənə, millətə sədaqətli vətəndaş kimi formalaşmağımıza dəstək olurlar. Təhsil aldığım kollecdə qadınların elmi və mədəni gücü, əməyi və bacarığı yeni uğurlara doğru bizi ruhlandırır.**

**Humanitar kollecdə həm elmi, həm də mədəni mühit kifayət qədər əlverişlidir. Bu mühiti formalaşdıran və onun inkişafına təkan verən kollec rəhbərliyi, müəllimlər və tələbələr Azərbaycan təhsilinin öncüllərindən hesab olunur. Hər dərs tarixə və mədəniyyətə yeni baxış, yeni yanaşma kimi başa düşülür. Zəngin kitabxanası və peşəkar kollektivi ilə təhsilimizin inkişafına öz töhfəsini verən Humanitar kollecin tələbəsi olmaq sevindirici bir haldır. Kollecdə tədris olunan fənnlər kadr hazırlığı və hər bir tələbənin potensialının aşkarlanması üçün zəruridir. Bu zəruriyyət həm də yeni elmi biliklərin əldə olunmasına imkan yaradır.**

**Bildiyimiz kimi gender siyasəti həyatın müxtəlif sahələrində qadın və kişilərin bərabərliyini özündə ehtiva edir. Ölkəmizdə gender tendensiyasının başlanmasının tarixi çox əvvələ gedir. Bu, özünü ilk növbədə XIX əsrin ortalarından başlayaraq qadınların savadlanması, sonra onların ictimai həyata xeyriyyəçi kimi qatılması ilə göstərib. Bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb 123 il əvvəl məhz Bakıda yaradılıb. Bu məktəbi açan Azərbaycanın xeyriyyəçi və maarifpərvər sahibkarları, ziyalılar başa düşürdülər ki, qızların təhsil alması çox vacibdir. Təhsilli qadın təhsilli millət, təhsilli nəsil deməkdir. Müsəlman Şərqində qadınların hüquqlarının tanındığı, onlara seçki hüququnun verildiyi ilk ölkə də məhz Azərbaycandır və biz bununla qürur duyuruq.**

**Qadınsız heç bir cəmiyyəti, sosial təsisatı təsəvvür etmək mümkün deyil. Çünki qadın ailənin möhkəmliyini qoruyan, yeni nəsil böyüdən, tərbiyə edəndir. Qadın, ana, xanım - triadasının fəlsəfəsi bu rolun mahiyyətini açır. O da faktdır ki, uğurlu insanların həyatında bir savadlı xanım, ana mütləq vardır.**

**Qızların təhsil alması cəmiyyətdə gender bərabərliyinin, qadınların iqtisadi iştirakçılığının təmin olunması və ölkənin bütün sahələrdə inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Milyonçu, mesenat, müsəlman Şərqində ilk qızlar məktəbinin yaradıcısı Hacı Zeynalabdin Tağıyevin dediyi kimi, bir oğlana təhsil verməklə təhsilli bir insan, bir qıza təhsil verməklə təhsilli bir ailə qazanmış oluruq. Məhz bu düşüncənin fərqində olan H.Z.Tağıyev müsəlman Şərqində ilk qızlar məktəbini tikdirərək onların təhsil almasına yaratdığı imkanlarla əslində bir neçə nəslin təhsil almasına şərait yaratmışdı.**

**Elmin müxtəlif sahələrində qadınların iştirakı özünəməxsus cəhətlərlə səciyyəlinir. Belə ki, qadın cəmiyyətin güzgüsü və sabahıdır. Təhsilli qadın, təhsilli gələcək deməkdir. Bu baxımdan cəmiyyətimiz üçün qadınların təhsil alması və müxtəlif sahələrdə fəaliyyət göstərməsi vacib amillərdən biridir.**

**Humanitar kollecdə həm elmi, həm də mədəni mühit kifayət qədər əlverişlidir. Bu mühiti formalaşdıran və onun inkişafına təkan verən kollec rəhbərliyi, müəllimlər və tələbələr Azərbaycan təhsilinin öncüllərindən hesab olunur.**

**Tarixə ekskurs etsək, görərik ki, Azərbaycan qadını tarixin və cəmiyyətin inkişafının müxtəlif mərhələlərində fəal iştirak ediblər. Bu mənada adını tarixə yazdıran Azərbaycan qadınlarından bir neçəsinin adını çəkmək kifayətdir.**

**Əhəminilər sülaləsinin qəddar hökmdarı Kiri məğlub edən, Türk dünyasının xanım hökmdarı Tomris xatun, şahları mat qoyan, gözəlliyi, istedadı, şeirləri ilə dillərdə dastan olan Məhsəti Gəncəvi, Atabəylər dövlətinin birinci xanımı, müdrik və uzaqgörən Möminə xatun, adı Azərbaycanın dövlətçilik tarixinə ilk xanım diplomat kimi düşmüş Sara xatun, xeyriyyəçi xanım, Təzəpir məscidini tikdirən Nabat Aşurbəyova, dövrünün məşhur şairlərindən olan Fatma xanım Kəminə (Aşıq Pəri), tarixçi alim Sara Aşurbəyli, ilk maarifçi qadınlardan biri, Bakıda ilk qız məktəbinin rəhbəri Hənifə Məlikova, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva. Bu siyahını uzatmaq da olar. Əsas odur ki, adını tarixə yazdıran bu qadınlar fəth etdikləri zirvələrə ancaq elm və təhsilin, yüksək dünyagörüşünün sayəsində çıxa biliblər.**

**Bu gün Azərbaycan təhsilinin inkişafında xidmətləri olan fədakar qadınlar dövlət və cəmiyyət tərəfindən rəğbətlə qarşılanır və yüksək qiymətləndiririlir. Bu rəğbətin və qiymətin dəyəri yoxdur.**

# Hamının yerinə ayrılıq yaşayan adam

**Təxminən 2012-ci il olardı Sosial şəbəkdə qarşıma bir imza çıxdı- Esmira Məhiqızı. Birinci kurs tələbəsi idim. Çox şeir oxuyan vaxtlarım idi. Harda xatirə dolu şeirlər tapırdımsa, həvəslə oxuyurdum. Esmira Məhiqızının şeirlərini artıq təkcə özüm üçün oxumurdum. Həzin mehə bənzər şeirlərini auditoriyaya daşımağa başlamışdım. Mənimlə bərabər tələbə yoldaşlarımın bəziləri həmin müəllifin şeirlərini həvəslə gözləyirdilər. İlk oxuduğum şeirini əzbər bilməsəmdə, həmişə bu misralar dilimdə dolaşırdı:**

***”Sənə gözlərimdə yer saxlamışam,***
***bilirsən necədir sevda yerləri”.***

Onun şeirlərini ya mehə, ya da mavi səmaya bənzədirəm. Zahiri görkəmində həmişə bir intizar görmüşəm. Elə bil harasa tələsir. Bilmirəm, bəlkə də elədir, bəlkə də yanılıram... Hərdən mənə elə gəlir ki, onun gözlərində yazılıb şeirləri. Gözlərinə baxanda bilərsən ki, bu adam şeir adamdır...

Qəribədir, bu qədər gözəl şeir yazan bir insan öz şeirlərini səsləndirə bilmir. ”Mənim qiraətim elə də yaxşı deyil” bəhanəsi ilə gözünü gözlərdən qaçırır. Bütün şeirlərində uşaqlıq, gənclik xatirələri yatır. Özünün də dediyi kimi:

*Ahh.. o Zəminənin, o Zəminənin*
*o qədər işıqlı xəyalı vardı...*
*o qədər xəyaldan danışardı ki,*
*Onu da bir qəfil ölüm apardı.*

Bir ağrını bu qədər incəliklə şeirə toxumaq üçün mütləq ki, söz damı olmalısan. Elə Esmira Məhiqızı kimi...

Xəyyallarını ömür yollarında itirənlər, ömrü duman olanlar da onun şeirlərində yaşayırlar. Həmişə deyir ki, insanlar var ki, nəğmələri yarımçıqdı. Biri də var heç nəğməsi olmayan insanlar...

Onun şeirləri İkinci Qarabağ savaşında ömür nəğmələri yarımçıq qalan igidlərə layla idi. Bəzən öz yazdığının gerçəyindən qorxan insan üçün belə şeirləri oxumq ,əlbəttə, kədərlidir. Hələ sevdaların yellər aparmış gənc qızların saçlarını öz şeirləri ilə oxşayırdı Esmira xanım:

*Hər xatirə filmindən sonra da,*
*Divarların nəm tərəfi üşüyür.*
*Saçlarımın deyirəm eyy,*
*sevgilim!*
*Saçlarımın dən tərəfi üşüyür.*

Hər söhbətimizdə ”Qadam, mən xatirələrimi yazıram. Gəncliyimi yazıram. O qədər gözəl xatırlayıram ki, Mehrini, Zəminəni, qardaşlarımı...” deyirdi.

Həyatla mübarizəni nəğmələrə bənzədər. Öz dediyi kimi:

*Çox əski, çox qədim*
*nəğmədi bu həyat-*
*yaşam boz,*
*biz xəyal,*
*söz boyat!*

Bütün yaşanmışlar xatirə olur. Esmira Məhiqızı da həmin xatirələri sözə toxuyur, misra düzəldir, misraları ağappaq vərəqlərə səpib şeir edir.

Özü deyir ki, gəncliyimdə sarıldığım doğmaları itirincə mən də budaq- budaq oluram. Söhbətimizin ardını mən tamamlayıram: hə bir hissəniz xatirələrdə qalır, bir hissəniz də şeirlərinizə sərilir. O isə deyir ki:

***”Və...***
***birdən də anlayırsan,***
***hamı bir- bir yoxa çıxıb-***
***sən hamının yoxluğusan”***

Həyat digər peşə sahibləri üçün standart yaşam tərzindən ibarət ola bilir. Ancaq söz adamı üçün heç də bu hal keçərli olmur. Yaşadığın hər anın, hər günün rəngini axtarırsan, hər hadisəyə məna verirsən.



Çox zaman sözdən asılı qalırsan. İnsan ömründə xatirələrdən başqa heç nəyi qalıcı hesab etməyən bu söz adamı xatirələrdən başqa insanın heç nəyinin olmadığını söyləyir:

***yenə sarı yarpaqların köçündən..***
***gör nə qədər yazmadığım söz keçir.***
***bu payızın çiçəkləyən yerindən***
***sözə dönən bir balaca qız keçir.***

Bəzən mənə elə gəlir ki, dünyadakı bütün insanların ayrılığını Esmira Məhiqızı yaşayıb. Sanki hamının yerinə ayrılıq yaşayan insandı bu adam. Ayrılığı o qədər incə izah edir ki, insana elə gəlir ki, müəllif heç kəsə zərrəcə ayrılıq yaşamağa yer saxlamayıb. Bütün ayrılıqları öz sinəsinə çəkib:

***gəl, sən də quşlara dən ver,***
***gündən gün, qəmindən qəm ver,***
***görəndə.. gedənlər gəlmir,***
***gəlim də, sənin xətrinə.***

İnsanlara buludlar kimi baxır Esmira xanım. Həyatı nəğmələrə bənzədir. Narın yağışları uşaqların oyun qurmağı hesab edir. Boz küləkləri isə Mehrili, Çiçəkli, Zəminəli günlər sanır. Elə bilir ki, hər göy üzünə baxanda insanlarla söhbətləşir, hər melodiya səslənəndə yaşanmışlar xatırlanır, hər yağış yağanda uşaqlığı göz önünə gəlir, baharın ortasında boz tufan görən kimi o balaca qızcığazları səsləyir. Amma şeirlərində... Elə şeirləri də ona cavab verir. Hamısı bir sətirdən misra- misra dillənir. Dillərdə əzbərə çevrilib göy üzünə qalxırlar, elə lap gedənlər kimi...

**Əntiqə Kərimzadə**

# “Mən belə bir cəmiyyət heç yerdə görməmişəm...”



**”Biz bir ”Təkərli kitab dükanı” yaratdıq ki, ölkəni gəzsin, kitabı unudulmağa qoymasın. Çox yerdə özümüzə qarşı təpki gördük. Harada dayanırsa, o yerin bir sahibi çıxır ki, burda dayanmaq olmaz. Dövlət idarəsinin qarşısıdır - dayanmaq olmaz. Marketin qarşısıdır - dayanmaq olmaz. Beş il oldu, təkərli kitabı məhələlərə və regionlara çıxardıq. Bir yerdə də səlahiyyət sahiblərindən ”xoş gəldiniz” eşitmədik”.**

Adalet.az xəbər verir ki, bunu ”Qanun” nəşriyyatının direktoru, naşir Şahbaz Xuduoğlu deyib.

”Hər yerdə zabitə süngüsü, hər yerdə sorğu-sual. Digər tərəfdən də insanların biganə münasibəti, kitaba ikrah doğuran nəzərləri. Amma uşaqların sevincini gördük.

Məhz budur, əlimizi soyutmayan. ”Təkərli kitab dükanı” Sumqayıtda bir məhlədən qovulub, o biri məhləyə gedir. ”Bağça şəhər” evlərinin komendantı sakinlər adından 102-yə şikayət edib ki, ”Təkərli kitab dükanı”nı məhləmizdə görmək istəmirik.

Mən belə bir cəmiyyət heç yerdə görməmişəm və heç kəsə də arzulamıram. İnsanlıq üçün ən təhlükəli bəla ilə üz-üzəyik- CAHİLLiK!”, - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

# Tənha adamın nağılları




***Ramiz GÖYÜŞOV,***
***yazıçı- publisist***


***"Sizə güvənirəm yaxşı adamlar***
***Qardaştək, oğultək qoruyun məni,***
***Bir insan ömrünü vurum axıra".***

**Nüsrət Kəsəmənli**

**1970-ci illərin əvvəli idi, Nüsrət Kəsəmənlinin "Azərbaycan" jurnalında bir neçə şeiri dərc olunmuşdu. Bu şeirlərin içərisində "Getmək istəyirəm" şeiri də vardı. Çox az bir müddətdə bu şeir gənclər, xüsusilə tələbələr arasında ildırım süræti ilə yayılaraq dillər əzbəri oldu və Nüsrət Kəsəmənliyə böyük şöhrət gətirdi.**

Elə o vaxtdan Nüsrət Kəsəmənli ədəbi mühitdə bir ulduz kimi parladı və oxucular arasında sevilməyə başladı.O, minlərlə Nüsrətsevərlər kimi mənim də gəncliyimin şairidir.

Az sonra Nüsrət Kəsəmənli bir-birinin dalınca öz şah şeirlərini yaratdı. Onun "Biri vardı, biri yox", "Daha nağıllara inanmıram mən", "Bənövşə bəndə düşdü", "Etiraf", "Yandır məktublarımı", "Dünən toyun idi", "Dünya köhnə dünyadı", "Sən demə təzədən sevmək olarmış", "Alnından öpdüklərim", "Dəli bir ağlamaq keçir könlümdən", "Avtoportret" və s. çoxsaylı şeirləri dillər əzbəri oldu Nüsrət Kəsəmənlinin... 150-dən çox şeirinə mahnı yazıldı.

Çox təəssüf ki, ömrü çox qısa oldu!

Şəxsiyyətinə və yaradıcılığına böyük hörmət bəslədiyim, ədəbiyyatşünas-alim, dostum Rüstəm Kamalla növbəti görüşlərimizin birində söhbət Nüsrət Kəsəmənli yaradıcılığından düşdü.

Qeyri-adi istedadı, fenomen duyum qabiliyyəti olan Rüstəm Kamal Nüsrət Kəsəmənlinin məhəbbət mövzusunda yazdığı şeirlərdən, onun qeyri-adi istedadından, yaradıcılığının qəribəliklərindən ətraflı söhbət açaraq, onun ölüm-həyat mövzusunda yazdığı şeirlərin üzərində xüsusilə dayandı.

Rüstəm müəllim Nüsrətin şeirlərdən misallar gətirərək sübut etmək istəyirdi ki, Nüsrət öz ömrünün sonunu görüb, hiss edib və öz ölümünə aid şeirlər yazıb.

"Nüsrət Kəsəmənli ilk şeirindən son şeirinəcən içində ölümü gəzdirib". (Rüstəm Kamal)

Bu fikir mənə Nüsrət Kəsəmənli yaradıcılığına yenidən nəzər salmağa sövq etdi.

***Mənim bu şəhərdə kimim var axı,***
***Bu ömrün sonuna gümanın azdır.***
***Yaxşılar yolumda çıraq kimidir,***
***Yamanlar tülkütək pusquda durub.***

***Sizə güvənirəm yaxşı adamlar,***
***Qardaştək, oğultək qoruyun məni.***
***Bir insan ömrünü vurum axıra,***
***Mənim bu şəhərdə kimim var axı...***

**("Mənim bu şəhərdə kimim var axı")**

Bəli! Qoruya bilmədik bu qeyri-adi istedad sahibini...

Tülkütək pusquda duranlar yedi Nüsrət Kəsəmənlinin ürəyini...

Səmimi etiraf edirəm ki, mənim ən çox sevdiyim və şeirlərini ən çox oxuduğum şairlərdən biri Nüsrət Kəsəmənlidir. Onun mənim kitabxanamda 3 kitabı var. Bunlardan biri 1991-ci ildə çapdan çıxmış "Hamısı sevgidəndir" kitabıdır. Elə həmin ildən də kitab məndədir. Bu kitabda toplanmış şeirlərin bir çoxunu əzbərdən bilsəm də, bu kitab mənim stolüstü kitabımdır.

Lakin Rüstəm Kamalın o söhbətindən sonra yenidən kitabı oxudum.

Dönə-dönə...

Öncə onu qeyd etmək istərdim ki, kitabdakı şeirləri müəllif özü seçib, özü tərtib edib.

Kitabın birinci vərəqində belə bir qeyd də var: "Şair Nüsrət Kəsəmənli bu kitabına oxucu sınağından keçmiş şeirlərini daxil edib".

Digər incə bir məqam! Kitaba ön söz yazılmayıb. Ön söz yerində şairin "Vətən" şeiri yer alıb. Bu da təbii ki, təsadüfi deyil. Müəllif demək istəyir ki, "Öncə Vətəndir!".

***Anaların torpağı sulayan tərini sevdim,***
***Göy qurşağı kimi əlvan yerini sevdim.***

***....Düşmənimə "yan"-deyən,***
***Dostlarına "can" - deyən,***
***Anam "Azərbaycan"- deyən,***
***Dilini sevdim, Vətən!***

**("Vətən")**

Şairin cismani yoxluğundan 10 il keçməsinə baxmayaraq, onun şeirləri indi də dillərdən düşmür. Sevənlər bir-biri ilə Nüsrətin şeirləri ilə danışır, bir-birinə olan məhəbbətlərini onun şeirləri ilə bildirirlər:

***Günəş kimi gülümsəyir üzümə,***
***Əllərimə, nəfəsimə tələsir,***
***Əyilirəm tikan batır dizimə,***
***Mən susuram,əvəzimdə o əsir,***
***Tərəddüdü çırpıb yerə bu axşam,***
***Cəsarətə gələcəyəm deyəsən,***
***Mən bu gülü dərəcəyəm deyəsən.***

**("Mən bu gülü dərəcəyəm deyəsən")**

Görkəmli dilçi, tənqidçi, ədəbiyyatşünas-alim, akademik Nizami Cəfərovun Nüsrət Kəsəmənli yaradıcılığı haqqında belə bir fikri var: "Mən Nüsrət Kəsəmənli yaradıcılığının qeyri-adiliyini, elmi anlayışlarla, akademik mülahizələrlə şərh etməli olduğu halda yalnız qeyri-adi sənət qarşısında heyrətini bildirməkdən başqa bir şey eləyə bilməyəcəyimi hiss etdiyindən təəssüflənirəm." Nə qədər səmimi və dəqiq ifadə!...

Nüsrət Kəsəmənlinin lirikasında eşq də var, məhəbbət də, sevgi də var, ehtiras da, şəhvət də, coşqu da, ərköyünlük də, vüsal da var, hicran da, od da var, atəş də, eyni zamanda bu şeirlər də soyuqluq da var, nifrət də, dönüklük də, atılmaq da, vəfasızlıq da, etinasızlıq da, laqeydlik də, bir sözlə, onun lirik qəhrəmanı canlıdır, insanı Allah necə yaradıbsa, o cür də təsvir olunur, hətta o qədər canlıdır ki, o sanki müəllifin özüdür, sanki müəllif bütün bu hissləri özü yaşayıb, sonra şeirə köçürüb.

Bu baxımdan Nüsrət Kəsəmənli lirikasına heyran qalmaya bilmirsən:

***Çiynimdə bir telin gəlib mənimlə,***
***Dolanıb boynuma açа bilmirəm.***
***Bir ucu cəhənnəm, bir ucu cənnət,***
***Mən bu qıl körpünü keçə bilmirəm.***

Nüsrət Kəsəmənli şeirlərinin üstün cəhətlərindən biri də səmimiliyidir , etiraflarıdır...

Nüsrət Kəsəmənli öz günahlarını səmimiyyətlə etiraf edir.Şairin ömürgün yoldaşına xitabən yazdığı "Etiraf" şeirinə diqqət yetirək:

***Sənsən dağlar kimi səbrlə dözən,***
***Bəlkə tərəddüdlə çox döyüşmüsən,***
***İsti bir sevgidən yazmışam bəzən,***
***Soyumuş çayımı sən dəyişmisən.***

**("Etiraf")**

Və ya:

***Qapını döymüşəm gecəyarısı,***
***Saçımda bir əlin təması gəlib,***
***İsti dodağımda bir öpüş izi,***
***Əlimdə bir saçın xınası gəlib.***
***Yuxulu gözündə qızartı görüb,***
***Qızara-qızara yalan demişəm.***
***Şübhənin bəhanə payını verib,***
***Hələ yatmayıb ki, balam demişəm.***

**("Qapını döymüşəm gecəyarısı")**



Yaxud

***İçindən qəm ilməli əriş-arğac keçibdir,***
***Sevinc yarıtox gəlib,***
***qəm yarıac köçübdür.***
***Sel olan göz yaşımı bir ehtiyac içibdir.***
***Tanış olaq, oxucum, tanış olaq,***
***bu mənəm.***

**("Avtoportret")**

Nüsrət Kəsəmənli ehtiyaclarla qayğılarla dolu uşaqlığından və ilk gəncliyindən bir nağıl danışır və "Daha nağıllara inanmıram mən" deyir:

***Fatmalar ayağı kəndirdə qalmır,***
***Kündəmiz küt gedir təndirdə qalmır.***
***Qarğalar tülküyə daha aldanmır,***
***Daha nağıllara inanmıram mən.***

**("Daha nağıllara inanmıram mən")**

Nüsrət Kəsəmənli yaradıcılığında vaxt mühüm fəlsəfi anlamlardan biridir. O, vaxtının qədrini bilmədiyini təəssüflə qeyd edərək: "Vaxt uçub siqaret tüstülərində, vaxt uçub çarpayı istilərində" , "Qaldırıb qədəhə içmişəm vaxtı", "Vaxtı su kimi içirik" deyən şair "Öldürdüyüm günlər üçün rekviyem" yazır:

***Əllərimlə kiminsə telinə bağlanmışam,***
***Sizi bir qandal kimi əlimə bağlamışam,***
***Qədrinizi bilməyib sonralar ağlamışam,***
***Bağışlayın siz məni vaxtsız ölən günlərim.***

Sonra isə zamanı duelə çağırır:

***Məqsədsiz düşəndə yolun ağına,***
***Vaxtı bir tum kimi çırtlayanda mən,***
***Qışqırıb zamanın kar qulağına,***
***Zamanı duelə çağırıram mən.***

... Nüsrətsevərlərə məlumdur ki, o qəfil ağır xəstəlikdən dünyasını Təbrizdə dəyişib.

Bu da bir tale yazısı idi.

Onun Təbrizə həsr etdiyi şeirlərə diqqət yetirək. Oğlu Araza xitabən yazdığı şeirində:

***Vətən alov etsin odunu sənin,***
***Böyü bu torpaqla, bu yurdla öyün.***
***Mən Araz qoydum ki, adını sənin,***
***Evimdə Arazı çağırım hər gün.***

***Bil ki, bu torpağın Araz dərdi var,***
***Kim deyir Arazın bir az dərdi var.***
***Don vurmuş həsrətin muraz dərdi var,***
***Hələ ki, sonunu görən tapılmır.***

**("Vətən alov etsin odunu sənin")**

Öz övladını Araz adlandıraraq Arazı yadından çıxartmayan şair "Ağlama, Təbrizim, ağlama" şeirində vətənin igid oğullarına müraciət edir:

***Bir torpağın üstündə,***
***O taylı, bu taylıyıq.***
***Torpaq ki, ömür deyil,***
***Necə gəldi paylayaq.***
***Nə qədər "qardaş" deyib,***
***Uzaqdan haraylayaq,***
***Ucalt haqqın səsini.***
***De sözünü saxlama,***
***Ağlama Təbrizim, ağlama.***

**("Ağlama Təbrizim, ağlama")**

Mənə elə gəlir ki, ədəbiyyatımızda elə bil Təbriz mövzusu bir qədər unudulub. Xüsusilə də son dövrlərdə bu mövzuda çox az əsərlər yaranır. Bilmirəm, bəlkə o taya gedib-gəlmək bir qədər asanlaşıb, ona görədir.

Bu baxımdan Təbriz mövzusu Nüsrət Kəsəmənli yaradıcılığından xüsusi xətt kimi keçir və zaman-zaman bu mövzuya qayıdır.

Fikirlərimin təsdiqi üçün bir neçə nümunə gətirmək istərdim:

***Gülə - gülə qovuşanda il-ilə,***
***Görəcəyəm Araz axır gül ilə.***

**("Qapamayın gözlərimi")**

***Çətin sərhədlərdən yol açmaq üçün,***
***Təbriz toylarında qol açmaq üçün,***
***Dünyanı nəğməylə dolaşmaq üçün,***
***Qıratı, Bozatı istəyirəm mən.***

**("A dağlar, qalayın qarı sinəmə")**

***Dərib bu çiçəkləri düzələm yola,***
***Düzəm həsrətimin torpağına, daşına.***
***Bir çiçək də aparam Təbrizə,***
***Azərbaycan məktəbinin açılışına.***

Və bu mövzuda yazdığı şeirlərində işlətdiyi poetik ifadələrin, arzu və istəklərinin kuliminasiyası:

***Araz axır...***
***O taydan da insan baxır,***
***Bu taydan da insan baxır.***
***Neçə milyon gözüyaşlı əzizimi,***
***O həsrətli Təbrizimi,***
***Oğurlamaq istəyirəm!***

**("Oğru olmaq istəyirəm")**

Və bəlkə də ona görə də Təbrizə, o taydakılara olan sonsuz məhəbbətin, istəyin nəticəsi idi ki, ömrünün son anlarını Təbrizdə keçirdi Nüsrət Kəsəmənli və Təbrizdə gözlərini əbədi yumdu, əbədiyyətə qovuşdu. Bu da bir Nüsrət Kəsəmənli öncəgörücülüyü idi bəlkə də....

Lakin o ölmədi...

"Nüsrət Kəsəmənli haqqında cəsarətlə demək olar ki, o, Azərbaycanın ən böyük məhəbbət şairlərindən biridir"(Nizami Cəfərov). Dogru sözə nə deyəsən?!

## *Epizootoloji monitorinq keçiriləcək*

**Bu ilin noyabrın 17-21-də quş qripi xəstəliyinə qarşı növbəti epizootoloji monitorinq keçiriləcək.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) məlumat yayıb.

Bildirilib ki, monitorinq zamanı risk əsasında müəyyən olunmuş ovçuluq təsərrüfatlarının və milli parkların subataqlıq, dənizsahili zonalar və digər ərazilərini əhatə etməklə, ərazi ilə yanaşı vəhşi quşlara ümumi baxış keçiriləcək, xəstəlik törədicisinin aşkar edilməsi məqsədilə vəhşi quşlar ovlanacaq və bəzi sənaye əsaslı müxtəlif həcmli quşçuluq müəssisələrində, o cümlədən müxtəlif rayonlardakı (şəhərlərdəki) ailə təsərrüfatlarında saxlanılan ev quşlarından diaqnostik nümunələr götürüləcək. Habelə ölkə üzrə müəssisələrə, təsərrüfatlara, su hövzələrinə və parklara ümumi baxış keçirilməklə, baytarlıq norma və qaydalarına əməl olunması üçün məqsədyönlü maarifləndirmə-təbliğat tədbirləri həyata keçiriləcək və epizootoloji məlumatlar toplanaraq təhlil ediləcək.

Monitorinqlər çərçivəsində epizootoloji vəziyyət və götürülmüş nümunələr barədə məlumatlar "Epicollect 5" proqramına daxil ediləcək. Tədbirlər müddətində götürülmüş nümunələrin İnstitutun Mərkəzi Baytarlıq Laboratoriyasında müayinələri aparılacaq.

## *Ata nə qədər optimist olsa, erkən doğuş riski o qədər azalırmış*

**Ata nə qədər optimist olsa, erkən doğuş riskini azaldır.**

Adalet.az xəbər verir ki, Kaliforniya Universitetinin alimləri 217 cütlük üzərində müşahidə apararaq bu qənaətə gəliblər.

Tədqiqat "Biopsychosocial Science and Medicine" (BSM) jurnalında dərc olunub.

Araşdırmalara görə atalar emosional dəstək verəndə və stresə dözümlü olduqda, analarda iltihab səviyyəsi azalır və uşaq vaxtından əvvəl dünyaya gəlmə ehtimalı aşağı düşür.

Eksperiment zamanı hamilə qadınlarda C-reaktiv zülalın səviyyəsi ölçülüb. Hansı ki, bu, iltihab göstəricisi olub və erkən doğuş riskinə işarə edir. Həm ata, həm də ana psixoloji sorğuları dolduraraq optimizm, özünəinam və sosial dəstək qabiliyyətini qiymətləndiriblər.

Nəticələr göstərib ki, rəsmi nikahda olan cütlüklərdə atanın özünəinamı və sosial dəstəyi qadınlarda iltihabı azaldaraq uşağın vaxtından əvvəl dünyaya gəlməsini əhəmiyyətli dərəcədə azaldır. Rəsmi nikah olmayan cütlüklərdə isə bu təsir müşahidə olunmayıb.

Mütəxəssislər vurğulayırlar ki, atanın emosional dəstəyi və pozitiv münasibəti yalnız bioloji proseslərə deyil, həm də sağlam qidalanma, stressin azalması və ümumi müsbət mühit yaradılması kimi ailənin həyat tərzinə təsir edir.

Qeyd edək ki, 37-ci həftədən əvvəl baş verən erkən doğuş uşaqlar üçün uzunmüddətli sağlamlıq problemlərinə səbəb ola bilər, buna görə hər əlavə gün həmiləlikdə uşağın inkişafı üçün önəmlidir.

Ələmdar MƏMMƏDOV



# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

**(əvvəli ötən saylarımızda)**

**İsmayılov ölkə başçısının, Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin 60 illik yubileyi münasibətilə Prezidenti təbrik edən, ona xoş arzu və istəklərini yetirənlər sırasında da öndə idi.**

O, təbrik məktubunda yazırdı:

"60 illik ömrünüz və 18 illik prezidentlik fəaliyyətiniz müddətində Sizin üçün ən gərgin, həm də ən fərəhli və qürurverici anlar bütün xalqımızın vahid ordu şəklində arxanızda birləşərək, düşmən üzərinə yürüdüyü və qələbəylə bitirdiyi 44 günlük Qarabağ savaşı zamanı olub. Çünki bir Rəhbərin savaş qərarı təkcə özünün deyil, həm də xalqının taleyini, aqibətini müəyyənləşdirər və mən çox şadam ki, Siz də, arxanızda birləşdirib düşmən üzərinə aparmağı bacardığınız Azərbaycan xalqı da bu 44 günlük Vətən savaşından qalibiyyətlə - alnıaçıq, üzüağ, şərəflə çıxdı".

Və bu xoş diləkli, müdriklik təcəssümü olan təbrik Prezidentin ünvanına bir daha - Prezident İlham Əliyev (böyük qələbədən sonra) yenidən dövlət başçısı seçiləndə ünvanlandı. Bu haqda Ədalət Partiyasının qəbul etdiyi bəyanatda deyilir: "7 fevral - Prezident seçkiləri Azərbaycan dövlətçilik tarixində bir çox xüsusiyyətlərinə görə öncəki seçkilərdən kəskin şəkildə fərqləndi.

İlk növbədə, 30 ildən sonra Azərbaycanda hansısa bir seçki ölkənin bütün suveren ərazisini əhatə edirdi.

Bununla yanaşı, 7 fevral seçkiləri ilk dəfə Azərbaycan qalib dövlət kimi keçirirdi.

Seçki təyin olunandan qısa zaman sonra ölkəmizdəki bir çox partiyalar milli və dövlətçilik mənafeyini əsas götürərək, Vətən müharibəsinin qalibi, Ali Baş Komandan İlham Əliyevi dəstəkləyəcəklərini açıq şəkildə bəyan etdilər. Bu, Azərbaycan siyasi tarixinin yeni səhifəsi, ayrı-ayrı siyasi güclərin milli məsələ, vətən və dövlət uğrunda birliyinin göstəricisi oldu..."

### *20 Yanvar faciəsi*

Azərbaycan tarixində qələbə zəfəri ilə də, məğlubiyyət acısı ilə də bağlı günlər var. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verən hadisələr xalqımız üçün böyük bir imtahan oldu. Azadlıq uğrunda mübarizəyə qalxan əliyalın insanların üzərinə yeriyən sovet qoşunları tarixdə misli görünməmiş vəhşiliyə əl atdı.

Bu qanlı faciə barədə çox deyilib, çox yazılıb...

Fikrim 20 Yanvar hadisələrini yenidən araşdırmaq deyil, bəzi qüvvələrin 20 Yanvar qətliamı ilə əlaqədar başlanmış cinayət işinin istintaqını nə üçün Azərbaycan SSR prokurorluğu aparmadı? Sualına cavab verməkdir.

Geniş oxucu kütləsi bilməsə də, hüquqşünaslar üçün təbəssüm doğuran sualdır.

Əvvəla, istər həmin dövrdə və istərsə indiki zamanda cinayət törətmiş onlarla şəxsin biri hərbçi olarsa qanunun tələbinə görə cinayət işinin istintaqı hərbi prokurorluq tərəfindən aparılmalıdır. SSRİ vaxtında heç bir müttəfiq respublikada, o cümlədən, Azərbaycan SSRdə Hərbi Prokuror vəzifəsi mövcud deyildi. Hərbi prokurorluq dairə, qarnizon sistemi üzrə fəaliyyət göstərirdi.

SSRİ Baş Hərbi Prokuroru, Dairə Hərbi Prokuroru və Qarnizon Hərbi Prokuroru.

Zaqafqaziya respublikaları Zaqafqaziya Dairə Hərbi Prokurorluğunun yurisdiksiyasına aid idi. Məsələn: Zaqafqaziya Dairə Hərbi Prokurorluğunun Bakı (Kirovabad, Lənkəran) Qarnizon Hərbi prokurorluğu və yaxud Zaqafqaziya Dairə Hərbi Prokurorluğunun Tbilisi (Batumi, Kutaisi) Qarnizon Hərbi Prokurorluğu və.s.

Beləliklə, həmin cinayət işinin Azərbaycan Respublikası Prokurorluğu tərəfindən istintaq edilməsi mümkün deyildi.

Buna baxmayaraq, İ.İsmayılovun təşəbbüsü ilə kollegiya iclasında qərar qəbul edildi ki, törədilmiş cinayət faktları ilə əlaqədar yoxlama aparıb cinayət işi başlanılsın və aidiyyəti üzrə göndərilsin.

Azərbaycan Respublikasının prokurorluq orqanları Yanvar hadisələri zamanı baş vermiş bütün cinayət faktlarını aşkarlayaraq, həmin faktlar üzrə cinayət işi başlayır, bu işlərin gizlədilməsinin qarşısını almaq üçünsə həmin işlər mərkəzləşdirilmiş cinayət işlərinin qeydiyyatına alınır və onlara mərkəzləşdirilmiş cinayət qeydiyyatı nömrəsi verilirdi.

Bundan sonra həmin işlər Zaqafqaziya Dairə Hərbi Prokurorluğunda istintaqı aparılan əsas işə birləşdirilməsi üçün göndərilirdi. Beləliklə, cinayət faktlarının gizlədilməsinin qarşısı alınırdı.

Respublika Prokurorluğunun səyi və təkidi nəticəsində Hərbi Prokurorluğun istintaq qrupuna 40 nəfər Azərbaycan SSR Prokurorluğunun və Daxili İşlər Nazirliyinin müstəntiqləri daxil edilmişdi.

Məsələn, Bakı şəhəri Oktyabr rayonu üzrə 100-ə qədər vətəndaşdan Yanvar hadisələri vaxtı hərbi qulluqçuların qanunsuz silah tətbiq etmələri, insanlara xəsarət yetirmələri, onların əmlakının məhv edilməsi haqqında ərizələr alınaraq bu fakt üzrə Azərbaycan SSR CM-in 94 və 251 maddələri ilə cinayət işi başlayaraq, hadisə yerlərinə baxış keçirmək, zərərçəkmişləri dindirmək və s. kimi istintaq hərəkətlərini həyata keçirərək mərkəzləşdirilmiş cinayət qeydiyyatına alınaraq 18/35103 qeydiyyat nömrəsi verilmiş, cinayət işi hərbi prokurorluğa göndərilmişdi. Belə işlər çox olmuşdur.

Məsələn, Salyan kazarması ilə üzbəüz olan yaşayış binalarının güllə-baran edilməsi, Ə.Ələkbərov küçəsindəki 97 saylı evin dəfələrlə atəşə tutulması və s. faktlar üzrə də cinayət işləri başlanmış, sonra hərbi prokurorluğa göndərilmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra 1992-ci ilin fevral ayında Respublikanın Baş prokuroru Murad Babayevlə idarə rəisi İdris Əsgərov Moskva şəhərində Yanvar hadisələrinin törədilməsində, Bakı şəhərinə qoşun yeridilməsində iştirak etmiş, SSRİ Ali Sovetinin sədri A.Lukyanovun, SSRİ Müdafiə naziri D.Yazovun, SSRİ DTKnın sədri V.Kryuçkovun dindirilməsində prokurorluğun təşəbbüsü ilə toplanmış materiallardan da istifadə olunmuşdu.

**Haşiyə:** Hərbi Prokurorluğun Azərbaycanın yurisdiksiyasında olmamasına dair baş vermiş bir hadisəni də nəql etmək istəyirəm:

1983-cü ildən SSRİ hərbi prokurorluğu sistemində əmək fəaliyyətinə başlayan Rauf Kişiyev 1990-cı ildə Bakı Qarnizon Hərbi Prokurorunun müavini vəzifəsinə təyin edilmişdi. "20 Yanvar"la əlaqədar Zaqafqaziya Dairə Hərbi Prokurorluğu tərəfindən istintaq edilmiş cinayət işinin bir çox materialları Bakı Qarnizon Hərbi Prokurorluğunda saxlanılırdı. Azərbaycan Respublikası Baş Prokurorluğu həmin cinayət işlərini tələb edərkən Zaqafqaziya Dairə Hərbi Prokurorluğundan gələn tapşırığa əsasən cinayət işləri prokuror Quşşin tərəfindən Moskvaya göndərilmişdi. Quşşinin qısa müddətli ezamiyyətdə olmasından istifadə edən Rauf Kişiyev bir hissəsi Bakı Qarnizon Hərbi Prokurorluğunda qalmış, 30-40 cildlik cinayət işini və maddi sübutları Respublika Baş Prokurorluğuna göndərmişdi. R.Kişiyevin bu "özbaşınalığından" hiddətlənən SSRİ Baş Hərbi Prokurorunun müavini zəng edərək onu həbsə almaqla hədələyir. Rauf Kişiyev təzəcə Baş Prokuror vəzifəsinə təyin edilmiş Murad Babayevin yanına gəlir. Murad müəllim telefonu götürüb yoldaşlıq və dostluq münasibətində olduğu SSRİ Baş Hərbi Prokuroru A.F.Katusevlə danışır. Təkzibedilməz faktlarla Raufun təqsirsiz olmasını sübut edir. Bir müddətdən sonra Murad müəllimin dəstəyi ilə Rauf Kişiyev Bakı Qarnizon Hərbi Prokuroru vəzifəsinə təyin edilir.




**Qeyd:** Bu həmin Rauf Kişiyevdir ki, 1996-cı ildə Rusiyanın Ermənistana 1 milyard dollar həcmində silahsursat verməsi barədə sənədləri yalnız özünə bəlli olan üsullarla əldə edə bilmişdi. Həmin vaxt Ermənistanın dövlət büdcəsi 400 milyon dollara çatmırdı.

### *İşdən çıxma...*

Çaldıran savaşında Şah İsmayıl od püskürən ən böyük topa yaxınlaşaraq qılıncla elə bir zərbə vurur ki, çuqun topun lüləsində dərin iz açılır. Döyüşdən bir neçə ay sonra Sultan Səlim məktub yazıb qılıncı istəyir. Şah İsmayıl qılıncı göndərir. Sultan Səlimin ən tanınmış sərkərdələri qılıncla topun lüləsində yalnız cızıq aca bilirlər. Bunu görən Sultan məktub yazır ki, mən həmin qılıncı is-təmişdim, Sən mənə başqa qılınc göndərmisən. Şah cavab verir ki, "Qılınc həmin qılıncdır, qol həmin qol deyil".

1982-ci ilin noyabr ayında Heydər Əliyev Sov.İKP MKnın siyasi bürosunun üzvü seçilib, SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsinə təyin edilib, SSRİ rəhbərlərindən biri olduqdan sonra Respublikada rəhbər kürsüsündə oturan şəxslər - Kamran Bağırov, Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov təbii ki, Hedər Əliyev yolunu davam etdirə bilmədilər. Kürsü həmin kürsü olsa da, şəxslər həmin şəxs deyildi ("Qılınc həmin qılıncdır, qol həmin qol deyil"). İlk əvvəllər bu açıq hiss olunmasa da, sonradan, xüsusi ilə, Yenidənqurma şəraitində idarəçilikdə boşluq daha qabarıq şəkildə özünü göstərirdi.

Məsələ burasındadır ki, Yenidənqurmanın imkan verdiyi müəyyən azadlıqlardan Respublikanın siyasi rəhbərliyi düzgün istifadə etmək əvəzinə inzibati amirlik üsulundan və "böyük qardaşa" güvənmək xislətindən qurtula bilmədilər.

SSRİ adlı nəhəng imperiyada istehsal münasibətlərinin yeni formaları yaranırdı. "Fərdi əmək fəaliyyəti haqqında" 19 noyabr 1986-cı il tarixli, "Kooperasiya haqqında" 30 iyun 1987-ci il tarixli, "Müəssisələr haqqında" 26 may 1988-ci il tarixli qanunlar yeni münasibətlər yaradır, yeni yanaşma tərzi tələb edirdi. İnzibati amirlik metodundan əl çəkmək istəməyən respublikanın "beyni" hesab edilən Mərkəzi Komitə və "partapa-rat" sərbəst düşünmək qabiliyyətinə malik deyildi. Millətin, xalqın fəlakət qarşısında qaldığı bir vaxtda, ən cüzi məsələnin həlli üçün mütləq yuxarıların razılığı olmalı idi. Heç kim üzərinə məsuliyyət götürmək istəmirdi. Az qala oturuş-duruş qaydalarını tənzimləyən "partaparat" aciz görünürdü.

Kamran Bağırovdan sonra respublika rəhbərliyinə gətirilən, ana dilində düzgün və səlis danışa bilməyən Ə.Vəzirovun Dağlıq Qarabağda baş verənləri vilayətdəki sosial iqtisadi gərginliklə əlaqələndirməsi (həmin dövrdə DQMV-də yaşayış səviyyəsi ümumazərbaycan göstəricisindən 1,4 dəfə çox idi), erməni separatizminə qarşı deyil, əvvəlki illərdə Azərbaycana rəhbərlik etmiş H.Əliyevə qarşı mübarizə aparması xalqda Vəzirova qarşı kəskin etiraz formalaşdırdı.

Bir əldə iki qarpız tutmaq istəyən Ə.Vəzirov ermənilərlə barışığın mümkünlüyünə inanır, bəzi məsələrdə onlara güzəştə gedirdi.

**Məlumdur ki, DQMV-də separatçıların qarşısında dayanan əsas güc ağdamlılar və onların rəhbəri Sadıq Murtuzayev idi.**

**(ardı var)**

### *Alimlər ürəyin bərpasına kömək edən geni aşkarlayıblar*

**Adətən doğuşdan sonra deaktiv olan Siklin A2 (CCNA2) geni, ürək hüceyrələrinin bölünməsini yenidən işə sala və infarkt, eləcə də ürək çatışmazlığından sonra zədələnmələri bərpa edə bilər. Mount-Sinay xəstəxanasının alimləri bu nəticəyə gəliblər.**

**Adalet.az xəbər verir ki, tədqiqatın nəticələri "npj Regenerative Medicine" jurnalında dərc olunub.**

**Eksperimentlər zamanı alimlər müəyyən ediblər ki, CCNA2 geninin təhlükəsiz virus vektoru**



**vasitəsilə aktivləşdirilməsi orta yaşlı yetkin insanlarda ürək əzələsi hüceyrələrinin bölünməsini stimullaşdırır. Bu, uzun müddət regenerasiya qabiliyyəti olmayan sayılan ürək hüceyrələrinin yeni funksional toxumalar formalaşdıra bilməsinin ilk sübutudur.**

**Eksperimentdə 21, 41 və 55 yaşlı donorların ürək hüceyrələrindən istifadə olunub. Siklin A2 geninin tətbiq edilməsi ilə aparılan terapiya yaşlı iştirakçılarda hüceyrə bölünməsini aktivləşdirib, lakin 21 yaşlı donorun gənc ürəyinə təsir etməyib. Bu nəticə gənc ürəklərin təbii regenerativ potensialı haqqında əvvəlki məlumatlarla uyğunluq təşkil edir.**

**Bundan əvvəl doktor Hess Çaudrinin rəhbərlik etdiyi komanda ilk dəfə iri məməlinin (donuz) ürəyinin infarktdan sonra CCNA2 geninin yenidən aktivləşdirilməsi yolu ilə bərpası imkanını nümayiş etdirmişdi. Yeni tədqiqat həmin mexanizmin insan hüceyrələrinə də təhlükəsiz şəkildə tətbiq oluna biləcəyini təsdiqləyən əlaqələndirici halqaya çevrildi.**

**Tədqiqatçıların sözlərinə görə, CCNA2 geni böyümə genlərini aktivləşdirərək, ürək hüceyrələri üçün "zamanı müvəqqəti geri çəkir" ki, bu da onların yetkinliklərini itirmədən və toxumaların qalınlaşmasına səbəb olmadan bölünməsinə imkan verir. Müəlliflərin qeyd etdiyinə görə, bu yanaşma simptomların müalicə edilməsindən ürək əzələsinin birbaşa real bərpasına keçid üçün yol açır.**

# Əkrəm Babayev: "Bu döyüş təkcə torpaq uğrunda deyildi, Vətənimizin şərəfi, şəhidlərimizin ruhu uğrunda idi"

*Vətən Müharibəsində iştirak edən qəhrəmanlardan biri də hazırda Qəbələ-Oğuz Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru vəzifəsində çalışan Əkrəm Kərəm oğlu Babayevdir. Onun həyat yolu və döyüş salnaməsi gənclər üçün nümunə, vətənə sədaqətin parlaq göstəricisidir.*

*Əkrəm Babayev 1976-cı il aprelin 24-də İsmayıllı rayonunun Buynuz kəndində anadan olub. 1982-ci ildə kənd məktəbində birinci sinfə gedib, orta təhsilini fərqlənmə ilə başa vurub. Daha məktəbdə oxuyarkən - 1992-ci ilin noyabr ayında - İ Qarabağ müharibəsinə könüllü olaraq yollanıb. 1993-cü ilin mayında döyüşlərdən qayıtdıqdan sonra həm buraxılış, həm də ali məktəb imtahanlarında iştirak edib və elə həmin il Azərbaycan Dövlət Aqrar Universitetinin (keçmiş Kənd Təsərrüfatı Akademiyası) Meşəçilik fakültəsinə qəbul olunub. 1997-ci ildə ali təhsilini bitirərək İsmayıllı rayon Meşə İdarəsində əmək fəaliyyətinə başlayıb.*

*1998-ci ildə Yeni Azərbaycan Partiyasının üzvü seçilən Əkrəm müəllim, sonrakı illərdə peşəkarlığı ilə fərqlənərək nazirliyə işə dəvət alıb, burada baş mütəxəssis vəzifəsində çalışıb. O, 2010-cu ildən Oğuz, 2013-cü ildən Qusar rayon Meşə İdarələrinin müdiri vəzifələrində çalışıb. 2021-ci ildə Şəki-Qax Regional Meşə Təsərrüfatı Mərkəzinə direktor, 2023-cü ilin fevralından isə Qəbələ-Oğuz Regional Mərkəzinə direktor təyin olunub.*

*İki dəfə müharibə iştirakçısı olmuş Əkrəm Babayevin döyüş yolu qəhrəmanlıq və vətənpərvərlik nümunəsidir. O, İ Qarabağ müharibəsində Mərzili, Ergid, Əmralı və Ağdam şəhəri uğrunda gedən döyüşlərdə iştirak edib. İİ Qarabağ müharibəsində isə leytenant kimi döyüşlərə qatılıb, Murov istiqamətində göstərdiyi şücaətə görə baş leytenant, daha sonra isə kapitan rütbəsinə yüksəlib.*

*Əkrəm Babayevin qəhrəmanlığı dövlət tərəfindən yüksək qiymətləndirilib. O, ”Kəlbəcərin azad olunmasına görə”, ”Suqovuşanın azad olunmasına görə”, ”Vətən Müharibəsi iştirakçısı” və ”Döyüş xidmətlərinə görə” medalları ilə təltif olunub.*

*Ailəlidir, 4 qızı, 2 oğlu və 3 nəvəsi var.*

**- Zəfər Gününün 5 illiyini qeyd etdik. İlk olaraq, həmin dövrü necə xatırlayırsınız?**

-Zəfər Günü bizim üçün ən müqəddəs tarixlərdən biridir. 44 günlük Vətən Müharibəsində qazandığımız Qələbə həm xalqımızın, həm də dövlətimizin iradəsinin təntənəsi oldu. O günləri xatırlamaq həm qürurverici, həm də kövrəldicidir, çünki biz bu zəfəri çox böyük itkilər hesabına qazandıq.

**- Necə oldu ki, müharibəyə getməyə qərar verdiniz?**

- Vətən Müharibəsi başlayan ilk günlərdə mənim kimi minlərlə gəncin və orta yaşlı insanın ürəyində yalnız bir fikir vardı - Vətəni qorumaq!. Bu çağırış bizim qanımızda, ruhumuzdadır. Mən də tərəddüd etmədən səfərbərlik elan olunan kimi könüllü olaraq hərbi komissarlığa müraciət etdim.

Biz bilirdik ki, bu döyüş sadəcə torpaq uğrunda deyil. Bu, şəhidlərimizin ruhu, milli ləyaqətimiz və gələcək nəsillərimiz üçün bir mübarizə idi.

Ailəm və dostlarım qərarımı anlayışla qarşıladılar, çünki bu, hər bir azərbaycanlının Vətən borcudur.

**- Müharibə dövründə keçdiyiniz döyüş yolu haqqında danışardınız.**

- Mən Tərtər, Suqovuşan, Murov və Kəlbəcər istiqamətlərində gedən döyüşlərdə iştirak etmişəm. Hər



gün, hər saat gərgin idi. Amma bizim birliyimiz, əsgərlərimizin ruh yüksəkliyi, zabitlərimizin peşəkarlığı bizə güc verirdi.

Xüsusilə Cəbrayılın azad olunduğu gün heç vaxt yadımdan çıxmaz. O an sanki bütün Azərbaycan əsgərinin qəlbi bir döyünürdü. Hamı bilirdi ki, bu zəfərin sonu Şuşa olacaq.

Şuşanın azadlığı xəbəri gələndə sanki bütün yorğunluq, ağrı, itkilər bir anlığa unuduldu. Hər kəs göz yaşlarını gizlədə bilmirdi. Biz bilirdik ki, artıq Azərbaycan qalib gəlir, 30 illik həsrət bitir.

**- Qazandığımız Qələbə bizə nə verdi - istər daxildə, istər xaricdə?**

- Qələbə bizə hər şeydən əvvəl qürurumuzu və birliyimizi qaytardı. Bu, xalqımızın öz gücünə, öz dövlətinə inamının bərpası idi. Daxildə həm siyasi, həm mənəvi həmrəylik formalaşdı. Hər kəs bir məqsəd ətrafında birləşdi - dövlətçiliyi qorumaq və inkişaf etdirmək. Xaricdə isə Azərbaycanın nüfuzu daha da artdı. Dövlətimizin regional liderə çevrilməsi, ordumuzun peşəkarlığının dünya miqyasında tanınması məhz bu Qələbə sayəsində mümkün oldu.

Bu gün azad edilmiş torpaqlarda yeni həyat başlayır. Məktəblər, yollar, hava limanları, kəndlər, enerji xətləri tikilir. Bu, həm şəhidlərimizin ruhuna ehtiram, həm də gələcəyə inamın rəmzidir.

Biz artıq təkcə döyüş meydanında deyil, həyat meydanında da qalib gəlirik.

**- Əkrəm müəllim, sonda oxucularımıza nə demək istərdiniz?**

- Mən bütün Azərbaycan xalqını qarşıdan gələn Zəfər Günü münasibətilə təbrik edirəm. Bu qələbəni bizə bəxş edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, Ordumuza və xalqımıza minnətdaram. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can sağlığı versin. Biz birlikdə güclüyük, birlikdə qalib gəlmişik və bu birliyi qorumaq bizim borcumuzdur.

***P.S:*** Əkrəm müəllim keçdiyi döyüş yolundan, müharibənin amansızlıqlarından qürurla danışdı. Müharibədir, təbii ki, şəhid də olacaq, yaralı da. Amma əsas komandir kimi əsgəri ruhlandırıb özü ilə döyüşə apara bilmək, döyüşdən qalib çıxmaq əzmini yaratmaqdır. Qorxmamaqdır!.. Əkrəm Babayev də qorxmadı. Geriyə belə boylanmadı. Qoyub gəldiyi 6 övladını düşünmədən döyüşlərə atıldı. Əslində yanında olanlar da onun övladları idilər. Əsgərlərini övladı kimi sevdi, əzizlədi. Hamımız Murov dağlarında daim qar, şaxta, çovğun və soyuq olur. Amma Əkrəm kimi mərd və qorxmaz zabitlərimizin, əsgərlərimizin hesabına yenilməz dağları aşdıq və 30 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımız geri alındı. Var ol Murov Qartalı!

Qarşıdan 8 noyabr Zəfər günümüz gəlir. Bu günü qeyd edərkən çox da Əkrəm müəllimin, müharibədə kişi kimi döyüşən minlərlə zabit və əsgərin haqqıdır. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik. Vətən sizin kimi oğulları ilə Vətəndir! Sən də baban kimi şərəfli döyüş yolu keçdin.

Bu gün övladların və nəvələrin sənlə qürur duyur Əkrəm Ata, Əkrəm Baba!

Zəfər Günün mübarək olsun Vətən oğlu!

---

**Mələklərin şeytana çevrilməsi mövzusu müxtəlif dinlərdə və mifologiyalarda fərqli şəkildə izah edilir. Bu barədə ən qədim mənbələr arasında ”Enokun kitabı”nda, Bibliyada, xristian və islam qaynaqlarında məlumatlar yer alır. Bizə məlum olan ən qədim peyğəmbərlərdən biri, kral Enokun kitabında ”düşmüş mələklər” insan övladı olan qızlara aşiq olub onlarla evlənərək yer üzündə yaşayan mələklərə deyilir. ”Enokun kitabı”nda**

çıxarmağa çalışırlar. Dini və mifoloji sistemlərdə Şeytanın mənşəyi və təbiəti haqqında müxtəlif fikirlər səsləndirilir. Bəzi mənbələrdə Şeytan Tanrıya itaət etməkdən boyun qaçırdan və buna görə cəzalandırılan bir mələk kimi təsvir olunur. Digər mənbələrdə, məsələn, yəhudilərin ”Talmud”unda isə Şeytan insanlara sınaq üçün göndərilən varlıq kimi təqdim edilir. Ümumilikdə, Şeytan obrazının ən qədim kökləri Zərdüştilik dinindəki Əhrimənə qədər gedib çıxır. Əhrimən Zərdüştilikdə şər qüvvənin təmsilçisi, xaos və yalan Tanrısı kimi təsvir olunur. O, həmçinin işıq və xeyirxahlıq Tanrısı olan Ahura Mazdaya qarşı mübarizə aparır. Əhrimən obrazı yəhudi dininə də təsir edərək iudaizmdə Şeytan obrazının formalaşmasına səbəb olub.

# Dennitsa adlı mələk niyə şeytana çevrildi?



**”düşmüş mələklər”in hekayəsi daha geniş təsvir edilib.**

Bibliyada Tanrıya itaətdən boyun qaçıran Dennitsa adlı mələyin cənnətdən qovulduğu qeyd olunur. Dini rəvayətə görə Dennitsa bilgili bir mələk olur və tanrılıq iddiasına düşür. O, bir neçə mələklə təkəbbür göstərərək öz Tanrısına üsyan edir. Tanrının qəzəbinə gələn həmin mələklər cənnətdən qovulurlar, beləliklə Dennitsa Şeytana çevrilir. Üsyan edən mələklərin ”düşmüş mələklər” adlandırılması onların göylərdən yerə və ya cəhənnəmə düşməsi ilə əlaqələndirilir. Bəzi dinlərə görə ”düşmüş mələklər” Şeytanın rəhbərliyi altında insanları yoldan

Yəhudi Bibliyasında Şeytan ilk dəfə ”ha-Satan” (rəqib, ittihamçı) adı ilə xatırlanır və Tanrının sadiq bəndələrini sınağa çəkən fövqəltəbii varlıq kimi təsvir olunur. Lakin xristianlıqdan və islamdan fərqli olaraq, ”yəhudilərin şeytanı” insanları sınağa çəkməyi Tanrının tapşırığı əsasında həyata keçirir. Yəni, ”yəhudilərin şeytanı” bir növ, Tanrının xidmətçisidir.

**Xristianlıqda isə Şeytan ”İblis” adı ilə tanınır və Tanrıya qarşı üsyan edən, insanları yoldan çıxaran varlıq hesab edilir. Xristian teologiyasında Şeytan günahın, şərin və qaranlığın simvolu kimi qəbul edilir. İslam dinində də Şeytan ”İblis” adı ilə tanınır və Tanrının əmrinə itaət etməyən, Adəmi və Həvvanı yoldan çıxaran varlıq kimi təsvir olunur.**

**Murad Köhnəqala**

---

**Fidan Abdurahmanova**



# YETİM QALMIŞ OYUNCAQLAR

**Oktyabr ayının 16-dan - 17-nə keçən gecə... Gəncə şəhəri... Gecə saat 00:45. Uğultulu bir partlayış səsi ilə tozanaq qalxır, göz-gözü görmür. Analar dizlərinə döyərək haray çəkir, atalar dəli kimi əlləri ilə dağılmış viran olmuş evlərinin uçuqları arasında övladlarını axtarır. O gecə cox körpənin həyatı üçün son oldu. Şirin yuxuya gedən bir körpə, axı hardan bilərdi sabahı qaralacaq. Yatdığı bu ana qucagı son mənzili olacaq. Onlar sülh qərarının ilk gecəsinin qurbanı oldu. Qaranlıqda qorxu içində ağrı hiss edən bir uşaq ağlayır. Dağıntılar arasında qalan Xədicənin fəriştə vücudu yaşamaq uğrunda mübarizə aparırdı.**

Valideynlərinin bir yaşlı bacısı ilə məşğul olduğunu görən balaca Xədicə çay şüşəsinin arxasınca gedir və həmin otaqda yuxulayır. Həyat bir az əvvəldən onların taleyini ayırmış. Xədicəni yaşatmaq üçün... Mənfur düşmən gülləsi körpə balalarına şirin layla deyən valideynlərini və bir yaşlı bacısını hədəf aldı. Bacısı anası ilə bir tabutda gömüldü. Xədicə isə ana qucağına bir ömürlük həsrət qaldı... Bu gecə üç yaşlı bir uşaq, ailəsini itirdi. O, dövlətimiz tərəfindən nəzarətə, həkimlərimiz tərəfindən müalicəyə götürüldü. Bir neçə gündən sonra sağalaraq evlərini, ailəsini istədi. Yanından heç ayrılmayan xalası göz yaşları içində onu necə sakitləşdirəcəyini düşünürdü. Dağılan evini körpə uşağa necə göstərsin axı? Xədicə elə hey ağlayırdı. Gah anasını gah da atasını çağırırdı. Gözü yollarda idi. Balaca əlini qapıya uzadaraq, evə, valideynlərinin yanına getmək istədiyini bildirirdi. Xədicə yalnız öz çay şüşəsi ilə yuxuya gedirdi. Bu çay şüşəsi ona doğma yeganə əşya idi, dağıntılar altında qalarkən hər ağlayanda çay şüşəsini ağzına yaxınlaşdırır, kiriyirmiş. Bir neçə həftə keçdi, xalası Xədicəni öz bağçasına apardı. Bağça onların evlərinin yaxınlığında yerləşirdi. Xədicə xalasının əlini buraxıb dəli kimi evlərinə dağılmış xarabalıqlara tərəf qaçdı. Sevinc içində dönüb xalasına və oraya toplanan insanlara baxdı. Bir qrup məktəbli yiyəsiz qalmış oyuncaqların sıra ilə düzüldüyü yerə gül qoyurdu. Onlar Xədicəni qorumaq məqsədi ilə uzaqlaşdırmaq istədilər. Bura həm tozlu, həm də daş kəsəkli idi. Xədicə isə çox xoşbəxt idi. Xalası onun əlindən tutaraq, istədiyi yerə doğru apardı. O, məktəblilərin gül qoyduğu oyuncaqlardan birini götürdü. Bu onun və bacısının ən sevimli oyuncağı idi. O, yağışın altında qalmış və hələ də evlərinin qoxusunu daşıyan oyuncağı ən əziz varlığı kimi möhkəm qucaqladı. Xədicə yetim qalmış oyuncağına sanki öz doğması kimi sahib çıxdı.

Erməni vəhşiliyi minlərlə Xədicəni ailəsiz, yaxud da, yetim qoyub, gələcəyini şikəst edib. Onlar yalnız yatmış köməksiz vəziyyətdə olan uşaqlarla mübarizə aparmağı bacarır, ”Xocalı faciəsi”ndə olduğu kimi.

**Xədicə bütün uşaqlar kimi, dünyada ən qiymətli varlığını ailəsini Vətən üçün şəhid verdi. Adətən analar öz övladlarını Vətən torpağı uğrunda fəda edir. Gəncə şəhərində baş vermiş erməni terroru gecəsində bu ağır yük körpələrin zərif çiyinlərinə, uşaqlıq həyatına qismət oldu. Onların uşaqlığına uğaqlığını itirmək, böyüməmiş böyüklük nəsib oldu. Və bu gecədən Xədicənin ailəsi bütöv Azərbaycan oldu.**



# BAYAT



№ 62 (922)



Tərlan Əbilov

# Hərənin bir sevməyi var

## Xəritə

Üzü dərdin, qəmin xəritəsidi,
qırışlar hərəsi iri bir ölkə.
Gəzirəm üzünün qırışlarını,
deyirəm, gəzməyə dəyməz heç bəlkə?!

Gözləri adadı, yaşıl bir ada,
yaşılı qurudu, ağı tamam su.
Onun gözlərində yaşamaq mənə
indi bir əlçatmaz arzudu, arzu.

Dikilib sükutun gözləri yerə,
gəl indi onun da damarını tut.
Bəlkə mən bilmirdim, bu yer üzündə
insan şəklindəymiş ən böyük sükut?!

Onun gözlərində, onun üzündə
eh, neçə dənizin fırtınası var.
Onun ürəyinin sərhədlərini
insan yox, tanısa, bir O tanıyar.

Gəzirəm, gəzirəm bu xəritəni,
barmağım elə bil daşa toxunur,
Bilmirəm nə günah sahibiyəm ki,
əlim daşdan axan yaşa toxunur.

Ya bu xəritədi daşlaşan mənsiz,
ya mən daşlaşmışam, daşa dönmüşəm.
Ya da elə bir vaxt ata dediyim
o daşın gözündə yaşa dönmüşəm?!

Asmışam gözümdən bu xəritəni,
bəlkə bir qırışı məni də öyə.
Başıma dəyəydi bu şairliyim,
düşməyəcəkdimsə bu xəritəyə!..

## Keçdi

Keçmədim səndən, könlümdən
nə keçdisə yalnış keçdi.
Dolu gəlmədin ömrümə,
sən də bu ömrü boş keçdin.

Düşdü sevgin iş qapımda,
Dedim göydən düş qapımda.
Duan keçməmiş qapımdan,
canımdan yüz qarğış keçdi.

Hürdü, adamlar hürüşdü,
Baxtın ayağı sürüşdü.
Ovcumda quraqlıq düşdü,
gözlərimdən yağış keçdi.

Qırıldım, səni qırmadım,
Bir addım geri durmadım.
Məni özgələr vurmadı,
üstümdən dost-tanış keçdi.

***

Bəsdi nəfəsimi kəsdin bu qədər,
imkan yarat, hava udum azacıq.
Mənə bir kərə də etimad göstər,
bəlkə günahımı yudum azacıq.

Yandır məni, yansın çırağım bir az,
Özümə yetişsin sorağım bir az...
Hərdən öz yaxamı buraxım bir az,
hərdən əllərini tutum azacıq.

Döyünsün ürəyin qəlbimə sarı,
Mən səndən yarıyım, sən məndən yarı.
Mən də bir nəfəri eşidim barı,
mən də bir laylaya yatım azacıq.

## Yeridir

Külək tutub yaxamdan bərk,
saçlarımda qar yeridir...
Dən düşmüş saçlarım məndə
külək tutan qar yeridir...

Yığılıb qarı simində...
Yığış gəl, qarı simində...
Qəlbimin sarı simində
barmaqlarım tar yeridir...

Tökülmüşəm yarpaq-yarpaq...
Göyün altında yer çılpaq...
Ayağı sürüşkən torpaq
yaxasında bar yeridir...

Yox ürəyi yanan adam,
Öz evində donan adam,
Sinəsi dağlanan adam
dünyanın ucqar yeridir...

***

Sənə nə var, səni qıran olmayıb,
sən bilmirsən ürək qırmaq necədi.
Çox çətindi çıxıb getmək birindən,
mən bilirəm başa vurmaq necədi.

Biləndə ki, özün boyda bir sirsən,
Ağrın artır, artır acın, gülmürsən.
Sən bilmirsən, sən bilmirsən, bilmirsən,
sevə-sevə uzaq durmaq necədi.

Yaşayırsan belə, yanıb tökülüb,
Gözlərinlə uzaqlara dikilib.
Sən bilmirsən adamlardan çəkilib,
özünə cəhənnəm qurmaq necədi...

## Sənə aid olmaq bir başqa həzzdir

Sənə aid olmaq bir başqa aləm,
Sənə aid olmaq bir ayrı həzzdir.
Sən Allah yanından uzağa qoyma,
Hərdən əllərimi yaxanda gəzdir.

Dər məni nəfəstək, çək öz içinə,
Adım dodağında yer saxlamasın...
Saçların sinəmdə zəmiyə dönsün,
Qollarım özgəni qucaqlamasan.

Köklənim əlinə, ayağına, qoy
Yerini bir kimsə soraqlamasın.
Səni məndən başqa bilən olmasın,
Məni də özgəsi varaqlamasın.

... Ötüb neçə əsr, neçə yüz min il,
Hələ də getməyib dadın ağzımdan.
Yüz yerdə qanıma qəltan ediblər,
Bir dəfə çıxmayıb adın ağzımdan.

Hələ də sirdi, sirr, o mənzil, o ev,
Dünya yaranandan ora gəlirəm.
Sənə aid olmaq bir başqa həzzdir,
Gör bir səndən ötrü hara gəlirəm..!

Haçandı bir ürək qalamaq üçün
Gözümün odunu almısan mənim...
Məni bir kişitək tutmusan uca,
Məni öz yadıma salmısan mənim.

Heç qarğış adamı bu sayaq tutmaz,
Gör səni nə yaman tutubdu gözüm.
Bir mömin savaba tuş gəlməz belə,
Nə gözəl günaha batıbdı gözüm.

Başıma düşmüsən köhnədəkitək,
Açıq qoy qapını, gəlib sevinim.
Öpüm dönə-dönə əl-ayağıntək
Yenə kandarını min il evinin.

Tək mənim pirim ol, ocağın olum,
Sındır, kəs hər yerdən ayaqlarımı.
İçim ovcundakı sudan bir qurtum,
Sənə nəzir qoyum dodaqlarımı.

Çevir istədiyin tərəfə məni,
Ha yana çevrilsəm, o yanım sən ol.
Sənə aid olmaq bir başqa həzzdir,
Sənə aid olum, qıyanım sən ol.

## Sevdim

Mən səni ölməməyimçin
çalışdığım qədər sevdim.
Tez-tez öz-özümdən küsüb,
barışdığım qədər sevdim.

Sevdim səni kölgəm kimi,
Sevdim səni ölkəm kimi,
Öz haqqımda özgə kimi
danışdığım qədər sevdim...

Ancaq səni, səni bir tək
Bu günümtək, keçmişimtək,
Tanrı işinə işimtək
qarışdığım qədər sevdim...

Salam deyərək soluma,
Salam deyərək sağıma,
Səni öz tənhalığıma
alışdığım qədər sevdim...

***

Salavat çəkməyə üz yoxdu, neynim,
əlimin içini qaşa tuturam...
Səni ağlamaqçün, yanaqlarımı
gözümün altında yaşa tuturam...

Heyf, mən də bu cür haray-həşirəm,
Ayrılıq səmtinə kəsə düşürəm...
Çox çəkmir, ağlayıb sakitləşirəm,
ovcumu, üzümü daşa tuturam...

Sanma, sanma mən bir düyünə ucam...
Qollarım qalxmayır şəklini qucam...
Təkcə başım dikdi, hər şeydən puçam,
birtəhər qəddimi başa tuturam...

## Gəlirəm

Ta saçıma yağan qaram,
bax, ömrümə qış gəlirəm.
Bu yandan dolu düşürəm,
o yandan yağış gəlirəm.

Tutubdu səma qolumu,
Buludlar kəsib yolumu,
Özüm kimi bir zalımın
sevgisinə tuş gəlirəm.

Donub kipriklərimdə qəm,
Donub kipriklərimdə nəm,
Sinəmdə düyün düşmüşəm,
ovcumda naxış gəlirəm.

Boşluqla dolan ömrümə,
Çöküb, uçulan ömrümə,
Xaraba qalan ömrümə
çiynimdə bayquş gəlirəm...

***

Soruşan yox, nə var, nə yox?
ölməyə kimin nəyi var?..
Bu dünyada hər bir kəsin
dünya boyda göynəyi var,
kəfəndən ağ köynəyi var...

Hamı eyni yolda çaşır,
eyni səmtə gedir hamı...
Hamı özünə yubanır,
öz səbrini ötür hamı,
hamının vallah boşuna
öz-özünü öyməyi var...

Sevgidən kəsilən adam,
nə bilsin ayrılıq nədi?..
Nə bilsin təbin təzədi,
nə bilsin yaran köhnədi?..
hərənin bir sevməyi var...

Əvvəlin nə olur, olsun,
sonun daşa qısılmaqdı.
Əcəl qapını döyəndə,
son nəfəsi qıc olmaqdı...
İstəyirsən soruş, ya heç
soruşma, bu gedən kimdi?
Onsuz da, onsuz da elə
ölənin dalınca baxıb
hamının göz döyməyi var...

***

Daha bu sevgidən heç nə umma, get,
keçib bir ovuc göz yaşı üstündən.
Təzədən bəlaya düşməmək üçün,
baxışlarımı çırp, qaşı üstündən.

Get, daha lüzum yox heç sarılmağa,
Gücüm yetdi təkcə sadiq qalmağa.
Dəyməz kiminləsə düşmən olmağa,
sevgidə mənimtək naşı üstündə.

Neylədim, bir yola gəlmədin bir yol,
Olanı, keçəni silmədin bir yol.
Quş da heç vaxt uça bilmədi bir yol
sənli hisslərimin başı üstündən...

## Ürəyim

Çox dedim ki, ürəksizəm,
guya ki, daşdı ürəyim.
Sənə qanım çox qaynadı,
əridi, daşdı ürəyim.

Özümə yuva qursam da...
Sənəcən yüzün qırsam da
Sən getdin, özüm dursam da,
ardınca qaçdı ürəyim.

Yolunu yora bilmədim,
Yıxıldım, dura bilmədim...
Bir kimsə qıra bilmədi, -
bir səndə çaşdı ürəyim...

## Bitdi

Payız saçlarından əlimi çəkdim,
Sənə bir əl kimi uzanmaq bitdi.
Daha səndən ötrü alışmaq yoxdu,
Daha səndən ötrü bu yanmaq bitdi.

Yaman ağrılıdı hisslərlə solmaq,
Hisslərin içində boşluqla dolmaq.
Bizdə alınmadı bir yerdə olmaq,
Şükür, bu yorulmaq, usanmaq bitdi.

Daha bu yaşanan gün deyil, köçdü,
İndən belə neyləsən puçdu, heçdi.
Sevgidə nəyisə itirmək keçdi,
Sevgidə nəyisə qazanmaq bitdi...

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 43 (2466) 14 noyabr 2025-ci il

# ŞANLI QƏLƏBƏYƏ GEDƏN YOL



**Biz bu yolu nə az, nə çox düz 30 ilə yaxın gözləmişdik. Biz bu yol uğrunda olmazın əzab-əziyyətin, çətinliyin, iztirabın yaşamışdıq. Bir milyondan çox məcburi köçkün evsiz-eşiksiz qalmış, çətin anlar yaşamışdı. O çətin anlar ki bir çox insanlar bu dərdə-kədərə, bu aləmə dözə bilməyib həyatla vidalaşdılar. Amma Allah-Təala bizim xalqı, bizim milləti, bizim ölkəni sınmağa qoymadı. Düzdür, dərddən-kədərdən, aləmdən əyildik, amma sınmadıq.**

Və bir də bizi sınmağa qoymayan hər an, hər dəqiqə xalqın, millətin, xüsusən də məcburi köçkünlərin arasında olan Ulu Öndər Heydər Əliyev idi. O, 1994-cü ilin əvvəllərində məcburi köçkünlərlə İmişlidə olan görüşündə demişdi ki, biz nəyin bahasına olursa-olsun Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana, Laçına, Kəlbəcərə, Ağdama, Şuşaya qayıdacağıq. Bəli, bunu Ulu Öndər Heydər Əliyev hələ o vaxtlar demişdi və xalq da Ümummilli Liderin dediyinə inanmışdı və güvənmişdi. Çünki Azərbaycan xalqı yaxşı bilirdi ki, Ulu Öndər bir söz deyəndə onun məsuliyyətini hiss edir və birmənalı olaraq millətə verdiyi sözü yerinə yetirir.

Bu da 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ savaşı. Yer-göy, aləm bir-birinə dəydi. Millət və Ordu 30 il içində gəzdirdiyi dərdi, kədəri artıq bir dəmir yumruğa çevirmiş və yağı düşmənin üstünə hücuma keçmişdi. Əlbəttə, bu mübarizəni, bu gücü, bu qüvvəni toplamaq üçün müəyyən zaman kəsiyi lazım idi. Və 30 ilə yaxın müddətdə də Azərbaycan Ordusu Ulu Öndər Heydər Əliyevin və prezident İlham Əliyevin rəhbərliyi ilə öz hərbi arsenalını daha da gücləndirmişdi. Dünyanın ən müasir döyüş texnikası və silahları Azərbaycan Ordusunda mövcud idi. Təbii ki, döyüşün ilk günlərində də erməni işğalçıları bunu çox yaxşı hiss etdilər. O vaxt Qarabağda olan Ermənistanın sabiq prezidenti Robert Köçəryan deyirdi ki, mən müharibənin üçüncü günü hiss etdim ki, biz məğlub olacağıq. Çünki Azərbaycan Ordusunun ildırım sürətli hücumunun qarşısını almaq heç cürə mümkün deyildi. Bizim hərbi hissələrin komandirləri, hətta generalları müharibənin üçüncü günü başlarını itirmişdilər. Mənim özüm də gördüm ki, vəziyyət çox mürəkkəbdir, Qarabağdan Ermənistana getdim.



Bu düşmənin sabiq prezidenti Robert Köçəryanın dedikləridi. Ən azından ona görə ki, onlar uzun müddət belə bir mif yaratmışdılar ki, erməni ordusu çox qüdrətlidi və onun qarşısına heç bir qüvvə çıxa bilməz. Xüsusən də Tovuz istiqamətində aparılmış döyüşlər zamanı general Polad Həşimovun öldürülməsi onları çox ruhlandırırdı. Və həmin vaxtlar Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən həmin döyüşdə iştirak edənlərə medal da verilmişdi. Amma bu medal onlara baha başa gəldi. Çünki Azərbaycan ordusu Tovuz istiqamətdə mövqelərimizi geri qaytardı və eyni zamanda 2020-ci ilin sentyabrın 27-30 arasında Füzuli və Cəbrayılın 8-ə yaxın yaşayış məntəqəsi erməni işğalından azad olundu. Bir neçə günün içində 30 il ermənilərin qurduğu müdafiə xəttinin darmadağın edilməsi və yaşayış məntəqələrinin azad olunması onu göstərirdi ki, qüdrətli ordumuz çox qısa zaman kəsiyində işğal altında olan bütün torpaqlarımızı azad edəcək.

İkinci Qarabağ savaşında Füzuli və Cəbrayıl istiqamətində döyüşlərdə iştirak edən tank komandiri Elçin Tehran oğlu Süleymanov həmin vaxtlar deyirdi ki, ermənilər bizim güclü hücumumuzun qarşısını heç cürə ala bilmirdi. Çünki generaldan tutmuş sıravi əsgərə qədər hamı çox yüksək döyüş ruhuna malik idi, qələbəmizə inanırdı. Bizim bir çox tankların üstündə "Heydər Əliyev uğrunda!", "İlham Əliyev uğrunda!", "Vətən uğrunda!" sözləri yazılmışdı. Mən öz tankımla bir neçə erməni mövqeyini darmadağın etdim. Sonra elə oldu ki, mənim idarə etdiyim tankı ermənilər vurdular, amma biz ordan salamat çıxdıq. Sabahı günü isə yeni tankla və ekipaj üzvləri ilə biz Cəbrayıl istiqamətində döyüşlərimizi davam etdirdik. İçi mən qarışıq heç kim ölümdən qorxmurdu, əksinə biz hamımız döyüşə düşməni öldürməyə gedirdik və şəhid olacağımızdan belə çəkinmirdik. Çünki Vətənin yolunda ya qalib, ya qazi, ya da şəhid olmaq lazımdır. Biz qalib olduq! sentyabrın 29-da mənim də iştirak etdiyim ağır döyüşdə Cəbrayılın 4 yaşayış məntəqəsini erməni işğalından azad elədik. Bax, həmin anların sevincini heç vaxt unuda bilmədim.

Bu sözləri mənə Elçin Tehran oğlu Süleymanov sentyabrın 29-da telefonla danışanda səhər saatlarında demişdi. Və özü də çox nikbin, inamlı idi. Hətta deyirdi ki, Faiq əmi, bir-iki həftədən sonra Allah qoysa Füzulini, Cəbrayılı, Zəngilanı, Şuşanı azad edəcəyik. Amma Elçin sentyabrın 30-da səhər saatlarında döyüşdə qəhrəmancasına şəhid oldu. Düzdür, o, Füzulinin, Ağdamın, Cəbrayılın, Şuşanın azad olmasını görmədi, amma onun qırx məclisində Azərbaycan Ordusu noyabrın 8-də Şuşanı erməni işğalından azad elədi və ermənilərin demək olar ki, bellərini qırdı. Bu, ordumuzun Elçin kimi yüzlərlə şəhidə və onların valideynlərinə, övladlarına çox böyük hədiyyəsi idi.

İndiyə kimi yaxşı yadımdadır, onun qırx məclisində atası Tehran Süleymanov dedi ki, mən Şuşanı azad edən oğullarımızla qürur duyuram. Elə bilirəm ki, onlar Elçindir, çünki bu gün mənim Elçinimin ruhu da sevindi, mən də sevindim, anası Xalidə də sevindi, qızı balaca Xalidə də sevindi. İndi bütün Azərbaycan sevinir. Lazım gəlsə Elçindən sonra bir oğlum qalıb, Telmanı da döyüşə göndərəcəm. Lap o yan-bu yan olsa özüm də döyüşə gedəcəm. Həmin günü Bəhmənlidə yüzlərlə gənc növbəyə durub cəbhəyə getmək istəyirdilər. Hərbi komissarlığın qarşısında iynə atsaydın yerə düşməzdi. Çünki onlar cəbhəyə gedib torpaqlarımızı azad edərək döyüş meydanında düşməndən qisas almaq istəyirdilər.

**Ermənilərdən fərqli olaraq Azərbaycan ordusu qisası mülki əhalidən yox, cəbhədə döyüşən erməni generallarından, erməni zabitlərindən alırdılar və onlar istəsəydilər minlərlə mülki əhalini ya əsir götürərdi, ya da güllələyərdi. Amma Azərbaycan əsgəri ona görə İkinci Qarabağ savaşına atılmışdı ki, işğal altında olan bütün ərazilərimizi ermənilərdən geri qaytarsın. Və 2020-ci ilin noyabrın 8-dən sonra bütün torpaqlarımız erməni işğalından azad edildi və azad edilmiş yaşayış məntəqələrinə Azərbaycan bayrağı sancıldı. Bu bir daha bizim böyük qələbəyə gedən yolumuz idi!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Vaqif TANRIVERDİYEV*

## "KƏPƏZ" KOMANDASINDA SULAR DURULMUR, NİYƏ?

**Bu günkü Kəpəz futbol komandasının özünə layiq məşqşisi, özünə layiq oyunçuları, özünə layiq azarkeşləri, özünə layiq də təəssübkeşləri var. Əl-ələ verib vəziyyətdən çıxmaq əvəzinə hamı giley-güzar edir, dahiyanə fikirlər söyləyir, təkliflər verirlər. Komandada rəhbərlik dəyişir, məşqçilərin biri gedir, biri gəlir, amma yenə köhnə hamam, köhnə tas, oyun səviyyəsi dəyişmir, komanda cədvəlin axırınvcı pilləsində öz yerini "möhkəmləndirib". Hamı da vəziyyəti öz arşını ilə ölçür, fikir deyir, təklif irəli sürür. Bir tələbə yoldaşımız vardı, müəllimlər bizi tənbeh edib, öyüd-nəsihət verəndə ağız büzüb deyərdi, "Bay Allahını ..."çıxsın", mən evdə kiçik qardaşlarıma bundan yaxşı məsləhət verirəm...**




**İndi komanda da vəziyyət belədir. Hamı dahiyanə fikirlər söyləyir, kəskin çıxışlar edir, etraz dalğası baş alıb gedir. Amma "gəlin məşqçili, oyunçulu, rəhbərli əl-ələ verib komandamızı düşdüyü vəziyyətdən çıxaraq deyən yoxdur.**

**Bu dedi-qodular, söylənən fikirlər bizim təhsil illərində orta məktəb dərsliyində pus yazıçısı Krılovdan əzbərlədiyimiz, palçığa batmış arabanı ələlə verib çıxarmaq əvəzinə hərənin bir tərəfə dartığına gülən məşhur təmsili yada salır.**

## 70-dən çox idmançıdan UEFA-ya İsraillə bağlı çağırış

**Dünyanın tanınmış futbolçuları da daxil olmaqla, 70-dən çox peşəkar idmançı Avropa Futbol Assosiasiyaları İttifaqını (UEFA) İsrailin yarışlardan kənarlaşdırılmasına çağırıb. Onlar bu addımı fələstinlilərin hüquqlarının pozulmasına etiraz olaraq atıblar.**

QOL.az xəbər verir ki, bu barədə "Al Jazeera" məlumat yayıb.

Bildirilir ki, "Sülh uğrunda idmançılar" adlı qrupun təşəbbüsü ilə UEFA prezidenti Aleksander Çeferinə məktub göndərilib. Məktub imzalayanlar arasında "Monako"nun yarımmüdafiəçisi Pol Poqba, "Vidad" klubunun futbolçusu Həkim Ziyeş və "Fulhem"də çıxış edən Adama Traore də var.

Məktubda Fələstin xalxına münasibətdə insanlığa qarşı cinayətlərin törədildiyi və bu kimi halların cəzasız qalmamalı olduğu bildirilib.

İdmançılar bu səbəbdən UEFA-nı İsrail Futbol Assosiasiyası ilə əlaqələri dayandırmağa çağırıblar.

## Ronaldo: "Futbolda ən çətin şey qol vurmaqdır"

**Portuqaliya millisinin və "Əl-Nəsr"in kapitanı Kriştiano Ronaldo futbolun çətinlikləri barədə danışıb.**

QOL.az xəbər verir ki, bu barədə "Record" məlumat yayıb. 40 yaşlı hücumçu deyib: "Məncə, futbolda ən çətin şey qol vurmaqdır. Müasir futbola, fiziki və psixoloji şəraitə, klubların, milli komandaların və liqaların xüsusiyyətlərinə uyğunlaşa bildim. Ağıllı oyunçu vəziyyətə uyğunlaşır. Gələcəkdə də belə düşünəcəyəm. Futbol bir neçə il əvvəlki kimi deyil. Hətta bir il əvvəlki kimi deyil. Amma iş eyni olmalıdır. Bəzi aspektlərdə güc qazana, bəzilərində isə itirə bilərsən".

Qeyd edək ki, Ronaldo cari mövsüm "Əl-Nəsr"in heyətində 11 oyuna çıxıb, 10 qol vurub və 2 məhsuldar ötürmə verib.

## AFFA-dan "Turan Tovuz"un futbolçusuna cəza, klublara cərimə



**AFFA İntizam Komitəsinin iclası keçirilib. QOL.az PFL-in saytına istinadən xəbər verir ki, iclasda Misli Premyer Liqasının 11-ci turundakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul olunub.**

"Qəbələ" - "Sumqayıt" oyununda "Sumqayıt"ın 4 futbolçusu sarı vərəqə aldığı üçün klub 700 manat cərimə edilib.

"Zirə" - "Turan Tovuz" matçında "Zirə"dən 5 nəfər sarı vərəqə aldığı üçün paytaxt təmsilçisi 700 manat cərimələnib.

Eyni görüşün 61-ci dəqiqəsində "Turan Tovuz"un 19 nömrəli futbolçusu Roberto Olabe ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun oyunluq cəzalandırılıb, klubu 500 manat cərimə edilib.

"Kəpəz" - "Sabah" oyununda ev sahiblərinin 5 futbolçusu sarı vərəqə aldığı üçün klub 700 manat cərimələnib.

Bu matçda "Sabah"ın 4 futbolçusu sarı vərəqə aldığı üçün Bakı təmsilçisi 700 manat cərimə edilib.

"Qarabağ" - "Neftçi" oyununun 90-cı dəqiqəsində "Qarabağ" azarkeşləri tərəfindən rəqib komandanın ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə 2-ci dəfə təkrarlandığına görə "Qarabağ" 6000 manat cərimələnib. Eyni oyunun 84-cü dəqiqəsində "Neftçi" azarkeşləri tərəfindən meydançaya kənar əşya atıldığına və bu hal cari mövsümdə 3-cü dəfə təkrarlandığına görə klub 3500 manat cərimələnib.

Həmin görüşün 84-cü dəqiqəsində "Neftçi" azarkeşləri tərəfindən rəqib komandanın ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə 3-cü dəfə təkrarlandığına görə klub 7000 manat cərimə edilib.

Sözügedən qarşılaşmada "Neftçi" azarkeşləri tərəfindən oturacaqlar sındırıldığına, stadiona zərər vurulduğuna görə "Neftçi" 3000 manat cərimələnib.

Bu oyun bitdikdən sonra "Neftçi"nin baş məşqçisi Samir Abasov hakimi təhqir etdiyinə görə 4 oyunluq cəzalandırılıb, "Neftçi" 10000 manat cərimələnib.

# Türkiyənin dünyaya bəxş etdiyi şirin ləzzət

**Türkiyənin dünyaca məşhur paxlavası - qızılı rəngi, nazik xəmiri və yüngül şərbəti ilə dadan hər kəsin damaq yaddaşında unudulmaz iz buraxan bu şirniyyat - artıq dünyanın ən tanınan desertlərindən birinə çevrilib.**

Türkiyənin ixrac imkanlarının genişlənməsi və müxtəlif ölkələrdə açılan türk şirniyyat mağazaları sayəsində paxlavanın şöhrəti çoxdan sərhədləri aşıb. Amerikadan Yaponiyaya qədər açılan türk şirniyyat dükanlarında insanlar orijinal ləzzəti dadmaq üçün növbəyə düzülürlər.

Mütəxəssislərin fikrincə, bu ləzzəti tam mənası ilə hiss etməyin ən doğru ünvanı onun vətəni - Türkiyədir. Üstəlik, bu zövqü yaşamaq üçün ən gözəl vaxt da yaxınlaşır. Hər il 17 noyabrda qeyd olunan Dünya Paxlava Günü bu unikal desertin mədəni dəyərini və dünyaya yaydığı şirin enerjini bir daha xatırladır.

Ənənəvi olaraq 40 qat nazik yufka xəmiri, içlikdə fıstıq və ya qoz, üzərinə isə şərbət əlavə edilməklə hazırlanan paxlava Türk mətbəxinin ən məşhur desertlərindən biridir. Osmanlı dövründən nəsildən-nəslə ötürülən bu resept bu gün də ölkənin kulinariya irsinin ayrılmaz hissəsidir.

UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş yufka (nazik xəmir) ənənəsindən qaynaqlanan paxlava öz mükəmməl formasını Osmanlı saray mətbəxlərində tapıb. O dövrdə ustalar xəmiri son dərəcə incə açaraq bu şirniyyatı həm zövq, həm də peşəkarlıq nümunəsinə çeviriblər.

Bir vaxtlar saray süfrələrinin rəmzi olan paxlava bu gün də Türkiyədə qonaqpərvərliyin və bayram süfrələrinin ayrılmaz hissəsidir. Çay və ya qəhvə ilə təqdim edilən, toylarda və dini bayramlarda və dini bayramlarda süfrələri bəzəyən paxlava insanların bir araya gəldiyi, birlik və paylaşımın simvoluna çevrilib.



Bu gün paxlava dünyanın bir çox ölkəsində desertsevərlərin ən çox seçdiyi ləzzətlərdən biridir. Sosial şəbəkələrdə müxtəlif reseptlər və paylaşımlarla bu desertin populyarlığı getdikcə artır. Lakin əsl paxlava hazırlamaq həm ustalıq, həm səbir, həm də istifadə olunan məhsulların keyfiyyətini dərindən bilməyi tələb edir.

Ən keyfiyyətli paxlava Türkiyənin cənub-şərqində yerləşən Qaziantep şəhərində hazırlanır. Qaziantep UNESCO-nun Qastronomiya üzrə Yaradıcılıq Şəbəkəsinin üzvüdür və bu şəhərin paxlavası Avropa İttifaqı tərəfindən mühafizə olunan mənşə adı statusu alan ilk türk məhsuludur. Qaziantep paxlavasını fərqləndirən əsas cəhətlər yalnız ustaların xəmiri şəffaf incəlikdə açmaq bacarığı deyil, həm də bölgəyə məxsus yüksək keyfiyyətli Antep fıstığı və yerli kərə yağıdır. Şəhərin ustaları xəmiri əl ilə açır, qatlar arasına bol fıstıq və yağ əlavə edərək odun sobasında bişirirlər. Bu üsul paxlavaya özünəməxsus qızılı rəng və xırtıldayan tekstura qazandırır. Bişdikdən sonra üzərinə xüsusi hazırlanmış şərbət əlavə olunur və desert asta şəkildə onu çəkir. Nəticədə xaricdən xırtıldayan, daxildən isə yumşaq və balanslı şirinliyə malik Qaziantep paxlavası yaranır - Türkiyə qastronomiyasının ən seçilən simvollarından biri. Ənənədən müasirliyə - saysız paxlava növləri

Qaziantep paxlavası ilə yanaşı, Türkiyənin müxtəlif bölgələrində bu məşhur desertin çoxsaylı növləri hazırlanır. Hər bölgə onu özünəməxsus üsulla və fərqli ərzaqlarla bişirir.

Bəzi növlər formalarına görə adlanır:

"Havuç dilimi" paxlava - yerkökü dilimi formasında kəsilir;

"Midyə paxlava" - midyə formasında bükülür;

"Bülbül yuvası" - halqa şəklində bükülür.

Digər növlər isə tərkibinə görə fərqlənir:

Şöbiyyət - qatlar arasına qozla yanaşı qaymaq əlavə olunur;

Südlü Nuriye - şərbət əvəzinə südlə hazırlanır;

Quru paxlava - daha az şərbətlə bişirildiyi üçün xırtıldayan quruluğa malik olur;

Fıstıq sarma və qoz sarma - bol içlikli növlər arasında ən çox sevilənlərdir.

Son illərdə gənc aşpazlar klassik paxlavanı müasir tərzdə təqdim edirlər. Onlardan biri də "soyuq paxlava"dır - bu növ az şərbətlə, südlə və şokoladla hazırlanır və qısa zamanda Türkiyədə ən çox sifariş edilən desertlərdən birinə çevrilib.

**İstər ənənəvi, istərsə də müasir formada təqdim olunsun, paxlava hər zaman öz dəyərini qoruyur. Dünya Paxlava Günündə bu məşhur desertin müxtəlif növlərini dadmaq və öz "şirin səyahətinizə" çıxmaq üçün ən uyğun vaxtdır.**

## Samirə Yusifqızı: "Onun üçün məni çox qınadılar"



**Meyxanaçı Samirə Yusifqızı pandemiya dönəmində taksi sürdüyü üçün insanların onu qınadıqlarını söyləyib.**

Adalet.az xəbər verir ki, xanım meyxanaçı bu qınaqlara görə narahatlıq keçirmədiyini dilə gətirib:

"Pandemiya dönəmində toylar yox idi, hər er qapanmışdı. Mən insanam axı, yaşamalıyam. Yaşamaq eüçün maddiyyat mütləqdir. Taksi sürürcüsü kimi fəaliyyət göstərirdim. Çox insan məni qınadı, hətta həmkarlarımdan bəziləri də bu siyahıda vardı. Bir dəfə Mənzurə Musayeva mənə dedi ki, taksi sürdyünü efirdə demə. Niyə deyirsən? Dəyərin düşəcək, sənə hamı aşağı baxacaq. Mən amma heç vaxt bundan utanmadım. Çün ki evimə halal qazanc apardığımı dərk edirdim. Zəhmətlə görülən heç bir iş eyib deyil".

**Əntiqə**

---

Nəbi Muxtarov ailə üzvləri ilə birlikdə **Aslan Mehdiyevə** əzizi

**Fəxrəddin Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə **Aslan Mehdiyevə** əzizi

**Fəxrəddin Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**
**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 254**
Çapa imzalanmışdır: 13.11.2025